**AZƏRBAYCAN MİLLİ ELMLƏR
AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİ
TARİX, ETNOQRAFİYA VƏ ARXEOLOGİYA
İNSTİTUTU**

**HACIFƏXRƏDDİN SƏFƏRLİ**

# NAXÇIVAN ŞƏHƏRİNİN EPİQRAFİK ABİDƏLƏRİ

**NAXÇIVAN – 2019**

**AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin 30 yanvar 2019-cu il tarixli, 04/07 saylı qərarı ilə (protokol № 04) çapa tövsiyə olunmuşdur.**

**Elmi redaktoru:** **İsmayıl Hacıyev,** ***akademik***

***Hacıfəxrəddin Səfərli. Naxçıvan şəhərinin epiqrafik abidələri.*** *Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2019, 152 s.*

***Monoqrafiya Naxçıvan şəhərinin epiqrafik abidələrinin tədqiqinə həsr olunmuşdur. Əsərdə Naxçıvan şəhərində zəmanəmizədək gəlib çatan memarlıq abidələrinin üzərində qalan kitabələrdən, həmçinin şəhərdə fəaliyyət göstərən muzeylərdə nümayiş etdirilən və təsadüfən aşkar olunan müsəlman epiqrafikası abidələrindən bəhs olunur. Haqqında bəhs olunan kitabələrin mətninin Azərbaycan dilinə tərcüməsi və foto-şəkilləri daxil edilən monoqrafiyadan tarixçilər, o cümlədən epiqrafika ilə məşğul olan alimlər, doktorantlar, magistrlər, Azərbaycanın orta əsrlər dövrü tarixi ilə maraqlananlar faydalana bilərlər.***

4700000000
053-2019

© "Əcəmi" 2019

## MÜNDƏRİCAT

**ÖN SÖZ**.............................................................................. 4
**NAXÇIVANDA ŞƏHƏR MƏDƏNİYYƏTİNİN YARANMASI TARİXİNDƏN**........................................... 8
**NAXÇIVAN BÖLGƏSİ X-XIX YÜZİLLİYİN I RÜBÜNDƏ**........................................................................ 14
**NAXÇIVAN ŞƏHƏRİNİN EPİQRAFİK ABİDƏLƏRİ**............................................................................ 52
Yusif Küseyr oğlu türbəsinin kitabələri..................... 55
Mömünə xatın türbəsinin kitabələri............................ 58
Qoşa minarəli baştağın kitabəsi.................................. 67
Naxçıvan şəhər imamzadəsinin kitabələri................... 74
Naxçıvan şəhər Came (Cəfəriyyə) məscidinin kitabəsi............................................................................ 81
**NAXÇIVAN ŞƏHƏRİNDƏ FƏALİYYƏT GÖSTƏRƏN MUZEYLƏRDƏ NÜMAYİŞ ETDİRİLƏN EPİQRAFİK ABİDƏLƏR**......................... 84
Naxçıvan Dövlət Tarix Muzeyində nümayiş etdirilən epiqrafik abidələr.......................................... 84
“Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində nümayiş etdirilən epiqrafik abidələr... 91
Açıq Səma Altında Muzeydə nümayiş etdirilən epiqrafik abidələr .................................................... 110
**ƏDƏBİYYAT**.......................................................... 117
**MƏTNƏ ƏLAVƏ OLUNMUŞ ŞƏKİLLƏRİN SİYAHISI**............................................................... 130
**FOTOŞƏKİLLƏR VƏ QRAFİK TƏSVİRLƏR**.... 133

# ÖN SÖZ

Azərbaycanın, geniş miqyasda Yaxın Şərqin ən qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvan şəhəri çox böyük inkişaf yolu keçmişdir. Şəhərdə, bütövlükdə Naxçıvan Muxtar Respublikası ərazisində aparılan son tədqiqatlar nəticəsində aydın olmuşdur ki, adını Nuh peyğəmbərin və tərəfdarlarının dünya tufanı zamanı mindiyi gəminin Ordubad rayonundakı Gəmiqaya ərazisində quruya oturması və gəmidəkilərin quruya çıxmasından götürən Naxçıvan (Nuhçıxan-Naxçıvan) ərazisi Kür-Araz Eneolit və Boyalı qablar və mədəniyyətinin yarandığı və ətraf yerlərə yayıldığı mərkəz olmuşdur. 2017-ci ildə şəhərin cənub-şərq tərəfində aparılan arxeoloji tədqiqatlar zamanı yeni mədəniyyət, indiyədək cənubi Qafqazda məlum olmayan "Dalma təpə mədəniyyəti" aşkar olunmuş və Naxçıvan şəhərində məskunlaşma tarixinin 8 min il əvvəl başlandığı müəyyən edilmişdir.

Belə qədim tarixə və mədəniyyətə malik olan Naxçıvan şəhəri ilk orta əsrlər dövründən başlayaraq daha da inkişaf etmişdir. VII əsrin ortalarından etibarən islamlaşan Naxçıvan əhalisi özünün həmin dövrədək əldə etdiyi bütün mədəni nailiyyətləri ilə birlikdə yeni yaranan islam mədəniyyəti xəzinəsinə daxil olmuş, yaradılan elmi-bədii, mədəniyyət əsərləri yerli türk ənənələrini qoruyub saxlamaqla həm də islami xarakter daşımağa başlamışdır. Beləliklə, bütün Naxçıvan bölgəsində, o cümlədən ərazinin ən mühüm sənətkarlıq, ticarət, elm, təhsil və mədəniyyət mərkəzi olan Naxçıvan şəhərində islam mədəniyyətinə məxsus çoxlu məscidlər, türbələr, xanəgahlar, körpülər, buzxanalar, hamamlar, ictimai binalar və s. inşa olunmuşdur. Bu abidələrin təyinatı, sifarişçisi, inşa tarixi, memarı və s. haqqında ən dolğun məlumatları həmin abidələr üzərində ərəb əlifbasının müxtəlif xətləri ilə həkk edilmiş kitabələr təqdim edirlər.

Xalqımızın qədim və orta əsrlər dövrü tarixinin hərtərəfli, dərindən və obyektiv şəkildə öyrənilməsində tarixin çox etibarlı qaynaqlarından sayılan epiqrafik abidələrin – kitabələrin özünə-

məxsus yeri vardır. Sıravi vətəndaşın ölümündən tutmuş xalqımızın çox böyük siyasi, iqtisadi və mədəniyyət tarixi məsələləri haqqında məlumatları özündə əks etdirən bu abidələr, bəzən hər hansı bir problemin aydınlaşdırılmasından başqa heç bir mənbənin öhdəsindən gələ bilmədiyi məsələnin uğurla həll olunmasında, həmin məsələ ilə əlaqədar tədqiqatçının düzgün nəticə çıxarmasında müstəsna rol oynayırlar.

Azərbaycanın digər bölgələri kimi Naxçıvan Muxtar Respublikasının ərazisi də orta əsr sənətkarlarının əməyinin məhsulu olan epiqrafik abidələrlə çox zəngindir. İndiyədək burada tək-tək hallarda olsa da mixi, aramey və kiril əlifbası ilə həkk edilmiş kitabələrə rast gəlinsə də müsəlman epiqrafikası abidələri əksəriyyət təşkil edir. VII əsrin ortalarından başlayaraq əhalinin islam dinini qəbul etməsi, ərəb əlifbasının ərazidə əsas yazı vasitəsinə, ərəb dilinin isə elm və təhsil dilinə çevrilməsi səbəbindən bütün Azərbaycanda olduğu kimi, onun qədim sənətkarlıq, ticarət, elm, təhsil və mədəniyyət mərkəzlərindən olan Naxçıvanda da çoxlu sayda müsəlman epiqrafikası abidəsi meydana gəlmişdir. Ancaq əksəriyyəti memarlıq və qəbirüstü xatirə abidələri üzərində həkk edilən bu abidələr əsasən açıq havada olduqlarından, onların bir hissəsi zaman keçdikcə təbii qüvvələrin (qar, yağış, isti, soyuq) təsirindən tədricən aşınaraq məhv olmuş, zəmanəmizədək müəyyən bir hissəsi gəlib çatmışdır. Bu işdə ərazidə baş verən təbii fəlakətlərin (zəlzələlərin, daşqınların), müharibələrin, yanğınların da müəyyən təsiri olmuşdur.

Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhərində də indiyədək orta əsr sənətkarları, xüsusilə xəttat və həkkaklar tərəfindən yaradılmış kitabələr gəlib çatmışdır. Bu kitabələr XIX yüzilliyin ortalarından etibarən tədqiqatçıların diqqətini cəlb etmişdir. Həmin yüzilliyin 30-cu illərindən başlayaraq bu kitabələr Rusiya Elmlər Akademiyasının akademiki X.M.Fren, rus şərqşünas-diplomatı N.V.Xanıkov, alman alimi M.Hartman tərəfindən tədqiq olunmuşlar. Bu tədqiqatlar XX yüzillikdə də davam etdirilmişdir. Həmin vaxt yerli ziyalılardan

Naxçıvanı öyrənən Cəmiyyətin üzvlərindən olan ruhani-alim M.Mirheydərzadə sırf epiqrafik abidələrdən bəhs etməsə də, nəşr etdirdiyi məqalələrində bu məsələyə də toxunmuşdur. Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin göndərişi ilə 1926-cı ildə Naxçıvanda elmi ezamiyyətdə olan İsa Əzimbəyov (Məddah) şəhərdə XII yüzillikdə inşa edilmiş Yusif Küseyr oğlu və Möminə xatın türbələrinin, İmamzadə kompleksinə daxil olan türbənin kitabələrini tədqiq və nəşr etdirmişdir.

Naxçıvan şəhərinin epiqrafik abidələrinin tədqiqində muxtar respublika ərazisindəki bir neçə kitabənin, o cümlədən Naxçıvan şəhərindəki Yusif Küseyr oğlu və Möminə xatın türbələrinin kitabələrinin mükəmməl oxunuşunu həyata keçirən epiqraf-alim Ə.Ələsgərzadənin xüsusi xidmətləri olmuşdur. Bu kitabələrin tədqiqində tarix üzrə fəlsəfə doktoru S.Kərimzadənin əməyini də qeyd etmək lazımdır. O ilk dəfə olaraq Möminə xatın türbəsinin öyrənilməmiş kitabələrini də tədqiqata cəlb etmişdir.

Naxçıvan şəhərində AMEA-nın müxbir üzvü M.Nemət də epiqrafik tədqiqatlar aparmışdır. XX yüzilliyin 50-ci illərində muxtar respublikaya epiqrafik səfər edərkən alim Naxçıvan şəhərində də olmuş, şəhər Came (Cəfəriyyə) məscidinin kitabəsini ilk dəfə tədqiq etmişdir. M.Nemət 80-ci illərdə muxtar respublikaya səfəri zamanı Yusif Küseyr oğlu və Möminə xatın türbələrinin kitabələrini tədqiq etmişdir. Alim Naxçıvan şəhərində apardığı epiqrafik tədqiqatların nəticələrini 1963 və 2001-ci illərdə nəşr etdirdiyi monoqrafiyalarına daxil etmişdir.

Naxçıvan şəhərinin epiqrafik abidələri keçən yüzilliyin sonlarından başlayaraq tərəfimizdən də tədqiq olunmuşdur. Tədqiqatlar zamanı şəhərdə mövcud olan və tədqiqatçılar tərəfindən müxtəlif vaxtlarda tədqiq olunan kitabələrlə yanaşı, şəhər ərazisində aparılan abadlıq-bərpa və təsərrüfat işləri zamanı təsadüfən aşkar olunmuş kitabələr də ilk dəfə öyrənilmiş, nəşr etdirilən monoqrafiya və məqalələr vasitəsilə elmi dövriyyəyə daxil edilmişdir.

Bütün bunlarla yanaşı qeyd etmək lazımdır ki, Naxçıvan şəhərinin epiqrafik abidələri haqqında ayrı-ayrı məqalələrdə, bəzi kitab və monoqrafiyalarda yeri gəldikcə yığcam şəkildə məlumat verilsə də, onlar bütünlüklə sistemli tədqiqata cəlb olunmamışdır. İndiyədək onlar haqqında ayrıca kitab və ya monoqrafiya yazılmamışdır. Bu baxımdan tərəfimizdən hazırlanan və geniş oxucu auditoriyasına təqdim olunan bu monoqrafiya Naxçıvan şəhərinin epiqrafik abidələrinə həsr olunmuş ilk monoqrafik əsərdir. Əsərdə Naxçıvan şəhərində indiyədək qalan kitabələrlə yanaşı, vaxtilə tədqiqatçılar tərəfindən tədqiq olunmuş, ancaq müəyyən səbəblərdən zəmanəmizədək gəlib çatmayan bir neçə kitabədən, həmçinin muxtar respublikanın müxtəlif yaşayış məskənlərindən gətirilərək şəhərdə fəaliyyət göstərən muzeylərdə nümayiş etdirilən müsəlman epiqrafikası abidələrindən də bəhs olunmuşdur.

# NAXÇIVANDA ŞƏHƏR MƏDƏNİYYƏTİNİN YARANMASI TARİXİNDƏN

Son vaxtlara qədər elmdə belə bir fikir mövcud idi ki, ibtidai icma quruluşu dövründə Naxçıvan bölgəsində insan yaşamamışdır. Ancaq 1987-1990-cı illərdə Şərur rayonunun Tənənəm kəndində yerləşən Qazma mağarasında aparılan arxeoloji tədqiqatlar göstərdi ki, ibtidai insanlar Naxçıvan bölgəsində 120 min il bundan əvvəl, Mustye dövründən məskunlaşmışdır **(Cəfərov Ə., 2010, s.11)**. Bundan əlavə insanların bölgənin müxtəlif yerlərində olan Kilit (Ordubad rayonu), Daşqala (Babək rayonu), Ərməmməd (Culfa rayonu) mağaralarında da yaşamaları haqqında məlumatlar vardır. Sovet hakimiyyəti illərində, xüsusilə müstəqillik dövründə Naxçıvan Muxtar Respublikasının müxtəlif yerlərində (I Kültəpə, Ovçulartəpəsi, Sədərək, Sirab və s.) aparılan arxeoloji tədqiqatlar göstərdi ki, burada Neolit dövründən başlayaraq ilk yaşayış məskənləri meydana gəlməyə başlamışdır.

Azərbaycanda, xüsusilə onun qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvanda ilkin şəhər mədəniyyətinin meydana gəlməsi məsələsi Azərbaycan tarixşünaslığının ən aktual problemlərindən biridir. Hələ keçən yüzilliyin 60-cı illərində hazırda AMEA-nın müxbir üzvü olan Vəli Əliyev arxeoloji qazıntılar zamanı əldə etdiyi maddi-mədəniyyət nümunələrinə əsaslanaraq Naxçıvanın e.ə. III minilliyin sonu – II minilliyin əvvəllərində, təxminən 3500-4000 il bundan əvvəl şəhər kimi formalaşması fikrini irəli sürmüşdü **(Əliyev V., Sultanov Ə., 1968; Əliyev V., 1996, s. 51-54)**. Ancaq onun bu fikri bəzi tarixçilər tərəfindən qısqanclıqla qarşılanmış, akademik İqrar Əliyev bu haqda tənqidi məqalə də yazmışdı **(Алиев И., 1999, с. 30-37)**. Sonralar Naxçıvanda aparılan arxeoloji tədqiqatlar zamanı əldə olunan maddi-mədəniyyət nümunələri professor Vəli Əliyevin bu məsələdə haqlı olduğunu təsdiq etdi və göstərdi ki, Naxçıvanda ilkin şəhər mədəniyyəti daha qədim zamanlardan yaranmağa başlamışdır.

1996-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun Sərəncamı ilə keçirilən "Uluslararası

qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumu Naxçıvan bölgəsi tarixinin müxtəlif problemlərinin milli təfəkkür baxımından öyrənilməsində dönüş nöqtəsi oldu **(Naxçıvan tarixinin səhifələri..., 1996)**. Bundan sonra müstəqilliyin yaratdığı imkanlardan istifadə olunaraq elmi-tədqiqat işlərində Naxçıvan bölgəsində şəhərlərin meydana gəlməsi ilə əlaqədar aparılan tədqiqatlar genişləndi.

2002-ci ildə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin Sərəncamı ilə AMEA Naxçıvan Bölməsi və onun tərkibində Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu yaradıldıqdan sonra bölgə tarixinin, o cümlədən ilk şəhərlərin yaranması probleminin öyrənilməsi istiqamətində aparılan tədqiqatlar sistemli xarakter aldı və bir sıra nailiyyətlər əldə edildi. Əcnəbi və xarici ölkə alimlərinin apardığı elmi-tədqiqat işləri göstərdi ki, Naxçıvanda ilkin şəhər mədəniyyəti təxminən 5000 il bundan əvvəl yaranmağa başlamışdır. 2009-cu ildə yenə də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə keçirilən "Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan" beynəlxalq simpoziumu bu istiqamətdə aparılan tədqiqatların ümumiləşdirilməsində və yeni tədqiqatların istiqamətlərinin müəyyənləşdirilməsində mühüm mərhələ oldu.

Simpoziumdakı çıxışlardan, xüsusilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun istiqamətverici və proqram xarakterli çıxışından əldə olunan ən mühüm nəticə ondan ibarət oldu ki, Naxçıvan bölgəsinin ən böyük yaşayış məskəni olan Naxçıvan şəhərinin bir yaşayış məskəni kimi əsası Dünya tufanı, Nuh peyğəmbər və tərəfdarlarının ilk dəfə bu ərazidə quruya çıxması ilə əlaqədar qoyulmuş, Naxçıvan şəhərinin adında məhz bu məsələ (Nuhçıxan – Naxçıvan) dayanmış, yaxınlıqdakı duz mədənlərinin istismarına bu zamanlardan başlanmış, elə həmin vaxtlarda emal mədəniyyəti və alətləri yaranmış, nəticədə yaşayış məskəni mühüm ticarət və sənətkarlıq mərkəzinə çevrilmişdir **(Nuh peyğəmbər..., 2010, s. 10-16)**.

Naxçıvanda ilkin şəhər mədəniyyətinin yaranması və inkişafı məsələsinin araşdırılmasına dövlət qayğısı bundan sonra da davam etdirilmişdir. Belə ki, bu simpoziumun keçirilməsindən təxminən 2 il sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 07 iyun 2011-ci ildə "“Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi” mövzusunda beynəlxalq simpoziumun keçirilməsi haqqında” Sərəncam imzalamışdır **(Rəsmi sənədlər, 2012, s. 511)**. Sərəncama əsasən 20-24 iyul 2011-ci ildə Naxçıvan şəhərində qeyd olunan mövzu ilə əlaqədar beynəlxalq simpozium keçirilmişdir. Azərbaycanın və bir sıra xarici ölkə alimlərinin iştirakı ilə baş tutan, yekun iclası Ordubad rayonundakı Gəmiqaya abidəsində keçirilən simpoziumda əldə olunan nəticə bundan ibarət oldu ki, Naxçıvan ərazisi bəşər sivilizasiyasının ilk beşiklərindən biri, Naxçıvan şəhəri isə bölgədə ilkin şəhər mədəniyyətinin yarandığı mərkəz olmuşdur **(Naxçıvan: ilk yaşayış..., 2012)**.

Simpoziumda çıxış edən Ali Məclisin Sədri Vasif Talıbovun “Naxçıvan şəhərinin yaranmasına bilavasitə təsir göstərən Naxçıvan Duzdağı mədəniyyətinin öyrənilməsini və Duzdağı ətrafındakı ilkin yaşayış məskənlərinin tədqiqata cəlb olunmasını ilkin şəhərsalma mədəniyyətinin öyrənilməsində yeni elmi istiqamət kimi qəbul etmək” **(Naxçıvan: ilk yaşayış..., 2012, s. 8)** haqqında tapşırığına uyğun olaraq tədqiqatlar aparıldı. Muxtar respublika rəhbərinin 20 aprel 2012-ci ildə imzaladığı Sərəncama müvafiq olaraq 27-28 iyul 2013-cü ildə Naxçıvan şəhərində “Naxçıvan: ilkin şəhər və Duzdağ” mövzusunda beynəlxalq simpozium keçirildi **(Naxçıvan: ilkin şəhər və Duzdağ, 2013)**. Simpoziumda aparılan müzakirələr göstərdi ki, Naxçıvan Duzdağında Eneolit dövründən başlayaraq duz çıxarılmış, burada mədənçilik mövcud olmuş, təxminən 6 min il bundan əvvəl, yəni miladdan qabaq IV minillikdə bu iş daha genişlənmiş, miqyası getdikcə artmış, tələbatdan artıq istehsal olunan duz ətraf yerlərdə mübadilə məqsədi ilə istifadə olunmuşdur. Bu isə öz növbəsində şəhərlərarası əlaqələrə və ticarətin inkişafına, eləcə də insanların

Duzdağ ətrafında məskunlaşmasına gətirib çıxarmışdır **(Naxçıvan: ilkin şəhər və Duzdağ, 2013, s. 319)**.

Beləliklə, 2009, 2011 və 2012-ci illərdə keçirilən bu simpoziumlarda əldə olunan ən mühüm nəticə bundan ibarət oldu ki, Dünya tufanı zamanı əsasən Naxçıvan ərazisində hərəkət edən, suyun çəkilməsindən sonra Ordubad ərazisindəki Gəmiqaya adlı yerdə torpağa oturan gəmidən quruya çıxan Nuh peyğəmbər və tərəfdarları bir müddət sonra ətraf ərazilərə yayılmış, Nuh peyğəmbər tərəfindən Naxçıvan şəhərinin əsası qoyulmuş, yaxınlıqda yerləşən Duzdağda duz istehsalına başlanmışdır. Şəhərdən təxminən 12 km qərb tərəfdə yerləşən Duzdağda duz istehsalının başlanması, emal mədəniyyətinin və alətlərinin meydana gəlməsi, həmçinin şəhər mədəniyyətinin ən mühüm elementləri olan bu və digər amillər Naxçıvanın tədricən şəhər kimi formalaşmasına gətirib çıxarmışdır. Mühüm ticarət yollarının keçdiyi bir coğrafi mövqedə yerləşməsi də bölgənin bu cəhətdən yüksək dərəcədə inkişafını şərtləndirən amillərdən olmuşdur.

Naxçıvanlıların ulu babalarının – qədim türk tayfalarının yaşadığı Naxçıvan əhalisinin dünyanın ən mühüm mədəniyyət mərkəzləri olan Mesopotamiya, Babil, Het, Egey sahilləri və s. ilə sıx mədəni-iqtisadi əlaqələr saxlaması da onun şəhər kimi formalaşmasında əhəmiyyətli rol oynamışdır. Tədqiqatlar, xüsusilə qədim Naxçıvan nekropolunda, şəhərətrafı bir sıra yerlərdə aparılan arxeoloji qazıntılar nəticəsində əldə olunan maddi-mədəniyyət nümunələri göstərir ki, Naxçıvan şəhəri ilkin şəhər mədəniyyətinin yarandığı ən mühüm mərkəz olmuşdur. Əsası bir yaşayış məskəni kimi daha əvvəllər qoyulan Naxçıvanda təxminən 5000 il bundan əvvəl ilkin şəhər mədəniyyəti yaranmağa başlamış və Naxçıvan şəhər kimi formalaşmışdır. Beləliklə, demək olar ki, Naxçıvanda ilkin şəhər mədəniyyəti Naxçıvan şəhərinin timsalında təxminən 5000 il bundan əvvəl yaranmağa başlamışdır **(Həbibbəyli İ., 2007, s. 20-27)**. Bu fikri bölgədə son illərdə Tarix, Arxeologiya, Etnoqrafiya, Folklor, Toponomika və s. sahəsində aparılan tədqiqatlar daha da möhkəmləndirmişdir.

İlkin şəhər mədəniyyətinin yaranması prosesi təkcə Naxçıvan şəhərində deyil, bölgənin digər yaşayış məskənlərində, o cümlədən II Kültəpə, Şahtaxtı, Oğlanqala, Qızılburun, Qarabağlar və s. yaşayış məskənlərində də baş vermişdir. Bu abidələrdə aparılan arxeoloji tədqiqatlar zamanı qədim şəhər-dövlətlər üçün xarakterik olan xüsusiyyətlər aşkar olunmuşdur. E.ə. II minillikdə artıq şəhərləşmə prosesi gedən bu yaşayış məskənlərinin bəzilərinin ətrafı etibarlı və möhkəm qala divarları ilə əhatə olunmuşdur. Hətta hazırda Kəngərli rayonunun Şahtaxtı kəndindəki yaşayış yeri bir neçə cərgə divarla əhatə olunmuşdur.

Zaman keçdikcə bu yaşayış məskənləri müxtəlif səbəblərdən şəhər kimi öz əhəmiyyətini itirsə də, bölgədə şəhərsalma işləri orta əsrlər dövründə də davam etmişdir. Orta əsr qaynaqları və arxeoloji tədqiqatlar sübut edir ki, orta əsrlərdə Naxçıvan bölgəsində bir sıra şəhərlər mövcud olmuşdur. Həmin vaxtlar, Culfa, Kiran, Azad, Qarabağlar, Ordubad, Əylis və s. şəhərlər də mühüm ticarət və sənətkarlıq mərkəzləri kimi Azərbaycanın siyasi, iqtisadi və mədəni həyatında mühüm rol oynasalar da, Naxçıvan şəhəri yenə də özünün möhtəşəmliyi, gözəlliyi ilə seçilmişdir. Əldə olunan tarixi, arxeoloji, etnoqrafik, epiqrafik və yazılı qaynaqlara əsasən qətiyyətlə demək olar ki, Naxçıvan bölgəsi istər qədim dövrdə, istərsə də orta əsrlər zamanı şəhərsalma mədəniyyətinin geniş yayıldığı yerlərdən biri olmuşdur.

Əlverişli təbii-coğrafi mövqedə yerləşdiyi üçün Naxçıvan şəhəri qədim dövrdə olduğu kimi orta əsrlər dövründə də böyük bir inkişaf yolu keçmiş, nəticədə hələ orta əsrlərin erkən çağlarından nəinki Azərbaycanın, bütövlükdə Yaxın Şərqin mühüm elm, təhsil, mədəniyyət, sənətkarlıq və ticarət mərkəzlərindən birinə çevrilmişdir. Mühüm ticarət yollarının keçdiyi bir ərazidə yerləşməsi bölgənin ticarət-iqtisadi cəhətdən inkişaf etməsinə, inzibati mərkəz kimi formalaşmasına şərait yaratmışdır. Məhz bu inkişafın nəticəsi olaraq Naxçıvan şəhəri hələ eramızın əvvəllərindən çox mühüm inzibati mərkəz kimi tanınmışdır. Naxçıvan eramızın əvvəllərində artıq hərtərəfli formalaşmış və yüksək inkişaf

səviyyəsinə malik bir şəhərə çevrilmişdir. İlk orta əsrlər zamanı şəhərdə 30 min yaşayış evi olmuş, orada 150 min əhali yaşamışdır **(Никитин К.А., 1882, с. 113)**.

Bu səbəbdən də Azərbaycan dövlətçiliyi tarixində özünəməxsus yeri və mövqeyi olan Naxçıvan şəhəri orta əsrlər zamanı istər Azərbaycan feodal dövlət başçılarının, istərsə də müxtəlif vaxtlarda ərazini tutan yadelli hökmdarların diqqət mərkəzində olmuşdur. İlk orta əsrlər dövründə Naxçıvan şəhəri Dvinlə (Dəbillə) birlikdə Sasanilər dövlətinin mühüm dayaq məntəqələrindən biri olmuş, hətta bəzi vaxtlar mərzbanlar öz iqamətgahlarını buraya köçürmüşdülər. Əlverişli coğrafi-strateji mövqedə yerləşməsini və hərbi-strateji əhəmiyyətini nəzərə alaraq ərəblər də ərazini tutduqdan sonra özlərinin iqamətgahını Naxçıvan şəhərində yerləşdirməklə bölgəni hərbi-inzibati mərkəzə və Bizansa qarşı əsas dayaq nöqtəsinə çevirmişdilər.

# NAXÇIVAN BÖLGƏSİ X-XIX YÜZİLLİYİN I RÜBÜNDƏ

Adını Dünya tufanı zamanı Nuh peyğəmbərin gəmisinin Ordubad rayonundakı Gəmiqaya ərazisində quruya oturması və Nuhçuların (Nuh peyğəmbərin tərəfdarlarının) quruya çıxmasından götürən (Nuhçıxan-Naxçıvan), qaynaqlarda Nəxcuan, Nəxçuan, Naxçivan, Naqcuvan, Nəxçəvan, Nəşəva, Nəşəvi və s. kimi xatırlanan, ilk orta əsrlər dövründən başlayaraq daha da tərəqqi dövrü keçirən, orta əsrlər zamanı intibah dövrünü yaşayan Naxçıvan şəhəri, siyasi-inzibati mərkəz, hətta dövlət paytaxtına çevrilmək səviyyəsinə yüksəlmişdir. Bu dövrdə böyüklüyü, gözəlliyi, tarix-mədəniyyət abidələrinin zənginliyi və s. cəhətləri ilə diqqəti cəlb edən Naxçıvan şəhəri hətta "Nəqşi-Cahan" ("Dünyanın bəzəyi") epitetini daşımışdır. Məhz buna görə də qaynaqlarda şəhər "əzəmətli və gözəl paytaxt şəhəri", "dünyanın ən gözəl və məşhur şəhərlərindən biri", "çoxlu bağları, meşələri, meyvəsi, təmiz havası, şirin suyu, məşhur binaları, mədrəsəsi və xanəgahı olan şəhər", "yer üzündə bundan daha çox əhalisi olan şəhər yoxdur", "Təbriz və Bağdaddan sonra Naxçıvan kimi, cəlallı və əzəmətli şəhər yoxdur", "şəhərdə çoxlu saray, köşk və eyvan vardır... Köşklərin çoxu qəsrlər kimi üç-dörd mərtəbəlidir" və s. bu kimi ifadələrlə tərənnüm olunmuşdur.

Naxçıvan bölgəsinin tarixinə nəzər salarkən aydın olur ki, Naxçıvan toponimi keçmişdə, xüsusilə orta əsrlər zamanı bir şəhərin adını bildirməklə yanaşı, sonralar daha böyük ərazilərə şamil edilmiş, həm də bu ərazilər indiki Naxçıvan Muxtar Respublikasının ərazisindən çox geniş olmuşdur. Azərbaycan ərazisində müxtəlif vaxtlarda yaranmış bir sıra feodal dövlətlərin tərkibinə daxil olan bu ərazidə adında Naxçıvan toponimini əks etdirən kiçik dövlət qurumları da olmuşdur. Belə dövlət qurumlarından biri tariximizdə "Naxçıvanşahlıq" adı ilə tanınan kiçik feodal dövləti olmuşdur. T.e.d. M.Şəriflinin müstəqil dövlət kimi **(Şərifli M., 1996, s. 29**), akademik N.Vəlixanlının isə Şəddadilər dövlətinin tərkibində bir əmirlik kimi təqdim etdiyi **(Vəlixanlı N., 2001, s. 126, 127; Vəlixanlı N., 2005, s. 77-78)**

Naxçıvanşahlıq 983-cü ildən 1066-cı ilə qədər mövcud olmuşdur. Mərkəzi Naxçıvan şəhəri olan bu dövlət qurumunun ərazisi şərqdə Dəbil (Dvin), qərbdə Ordubad da daxil olmaqla böyük bir ərazini əhatə edirdi. Bəzi vaxtlar Vaspurakanın da bir hissəsi bu feodallığın tabeliyində olmuşdur. M.Şərifli ərəb tarixçisi Kudamənin 928-ci ildə yazdığı kitaba əsaslanaraq Naxçıvan şəhərinin Vaspurakanın (Van gölünün cənub-qərbindən və Urmiya gölünün şimal-qərbindəki torpaqlardan başlayıb indiki Naxçıvan Muxtar Respublikasının cənub-qərb hissəsini əhatə edən tarixi vilayət-H.S.) paytaxtı olduğunu yazmışdır **(Şərifli M., 1996, s. 29)**.

Bu zaman yaranmış tarixi şəraitdə Naxçıvan şəhəri XII əsrin ortalarına yaxın tarix səhnəsinə çıxan daha möhtəşəm bir dövlətin paytaxtına çevrilir. Məlumdur ki, Səlcuq hökmdarı Məlikşahın ölümündən sonra hakimiyyət uğrunda gedən mübarizə Böyük Səlcuq imperiyasının zəifləməsinə, tənəzzülünə, parçalanmasına gətirib çıxardı və bir sıra sultanlıqların, o cümlədən 1118-ci ildə Azərbaycanın da daxil olduğu İraq Səlcuq sultanlığının yaranması ilə nəticələndi. Yeni yaranan sultanlıqlar arasında hakimiyyət uğrunda gedən çəkişmələr yeni dövlət birləşmələrinin təşəkkülü üçün zəmin yaratdı. Yeni yaranan bu dövlətlərin baniləri kiçik yaşlı səlcuq şahzadələrinin atabəyləri – tərbiyəçiləri oldular.

Belə dövlətlərdən biri, əsası 1136-cı ildə Səlcuq sultanı II Toğrulun oğlu Arslan şahın atabəyi Şəmsəddin Eldəniz tərəfindən qoyulmuş Azərbaycan Atabəyləri və yaxud Eldənizlər dövləti idi **(Bünyadov Z.M., 1985)**. Bu dövlətin yarandığı vaxtdan Naxçıvan ərazisi onun tərkibinə daxil olmuş, hətta bir müddət Yaxın Şərqin mühüm ticarət və sənətkarlıq mərkəzi sayılan Naxçıvan şəhəri dövlətin paytaxtına çevrilmişdi. Orta əsr qaynaqlarına söykənən bir sıra tədqiqatçılar Naxçıvan şəhərinin 1175-ci ilədək Azərbaycan Atabəyləri dövlətinin paytaxtı olması fikrindədirlər **(Петрушевский И.П., 1941, с. 5)**.

Bu dövrdə ərazidə əsas şəhər olmaq etibarilə Naxçıvan çiçəklənmə dövrü keçirmişdir. Dövlətin baş şəhəri kimi

Naxçıvan daim Eldəniz hökmdarlarının diqqət mərkəzində olmuş, onun abadlığına və tərəqqisinə xüsusi fikir verilmişdir. Ətrafındakı Əlincə, Sürməri, Təqmər və Fəqnən kimi nəhəng qalalarla müdafiə olunan Naxçıvan şəhəri XII əsrdə mühüm elm, təhsil, mədəniyyət, sənətkarlıq və ticarət mərkəzinə çevrilmişdir.

Atabəylər dövlətinin əsas mərkəzlərindən biri Naxçıvan ərazisi olduğundan və qeyd edildiyi kimi, bir müddət paytaxt Naxçıvan şəhərində yerləşdiyindən onun banisi Şəmsəddin Eldəniz bir sıra orta əsr qaynaqlarında "Naxçıvan hakimi" kimi xatırlanır. XII əsr müəllifi Mxitar Qoş özünün "Alban salnaməsi"ndə Şəmsəddin Eldənizi Naxçıvan şəhəri və vilayətinin hakimi adlandırır **(Петрушевский И.П., 1941, с. 5)**. Orta əsr qaynaqları təsdiq edirlər ki, Atabəy Şəmsəddin Eldənizin zamanında Naxçıvan şəhəri xeyli inkişaf etmişdir. Müəllifi məlum olmayan, XIII əsrə aid "Əcaib əd-Dünya" əsərində bu haqda oxuyuruq: "Eldənizin dövründə (Naxçıvan) özünün ən qüdrətli çağını yaşadı. Orada şah iqamətgahı quruldu və hökumət binası (dövlət xana) inşa edildi... Deyirlər ki, Naxçıvan məzarlığı kimi heç bir yerdə qəbiristanlıq yoxdur. ...Şəhərdə və kəndlərdə Naxçıvan məzarlığında olduğu qədər türbə yoxdur. Məscid, mədrəsə və çoxlu bağlara rast gəlinir" **(Ön və Orta Asiya..., 2003, s. 135-136)**.

Azərbaycan Atabəyləri dövlətinin yaranması və tarix səhnəsinə çıxması ilə qonşu dövlətlər narahat olmuş, onlar arasında münaqişələr yaranmış, müharibələr baş vermişdir. Bu zaman Atabəylər dövlətinin ən güclü rəqiblərindən biri Gürcü dövləti idi. 1161-ci ildən başlayaraq Eldənizlərin ərazisinə, o cümlədən Naxçıvana soxulmuş gürcülər sonrakı dövrlərdə də hücumlarını davam etdirmişlər. Bu hücumlar bəzən çox təhlükəli olmuş, hətta onlar dövlətin içərilərinə, Naxçıvan ərazisinə qədər gəlib çıxmışdılar. Ona görə də yaranmış təhlükəni aradan qaldırmaq üçün Şəmsəddin Eldəniz düşmənə qarşı səlcuqlarla birləşmiş və bunun sayəsində 1163-cü ildə Gürcüstan qoşunlarını məğlub etmişdi. Ancaq bundan sonra da gürcülərin Azərbaycan üzərinə hücumlarına son qoyulmadığı üçün Şəmsəddin Eldəniz oğulluğu Sultan

Arslan şahla ittifaqa girmək və gürcülərə qarşı birlikdə mübarizə aparmaq qərarına gəldi. Bu məqsədlə də o arvadı Möminə xatını Sultan Arslan şahla (Sultan Arslan şah Möminə xatının Sultan Toğruldan olan oğlu idi) razılığa gəlmək üçün Həmədan şəhərinə göndərdi. Gürcü qoşununun yeni hücumu haqqında məlumat verən Möminə xatın oğlunu bu ittifaqa razı sala bildi və Sultan Arslan şah 1174-cü ildə Naxçıvana gəldi. Həmin vaxta (12 iyul 1174-cü il) təsadüf edən Qurban bayramı şənliklərini Naxçıvanda keçirən Sultan Arslan şah bir azdan ana bir qardaşları Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan və atalığı Şəmsəddin Eldənizlə birlikdə torpaqları Naxçıvandan üç mənzil məsafədə olan **(Bünyadov Z.M., 1985, s. 57)** gürcü feodallarına qarşı hərəkətə başladı. Ancaq baş verən taun xəstəliyi birləşmiş qoşuna böyük tələfat verdiyindən və Sultan Arslan şah xəstələndiyindən onlar tezliklə Naxçıvana qayıtdılar. İki aya yaxın Naxçıvanda qalan Sultan Arslan şah Həmədana geri döndü.

1174-cü ildə Atabəy Şəmsəddin Eldənizin arvadı Möminə xatın, ondan bir ay sonra isə Şəmsəddin Eldənizin özü vəfat etdi. Atasından sonra hakimiyyətə keçən Atabəy Məhəmməd Cahan Pəhləvan dövlətin paytaxtını Naxçıvandan Həmədana köçürdü. Paytaxt Naxçıvandan köçürülsə də, Atabəy Məhəmməd Cahan Pəhləvan bu şəhərə xüsusi diqqət yetirmiş, vaxtilə atasının burada öz arvadının xatirəsinə başladığı işi, yəni anası Möminə xatının qəbri üzərində ucaldılan möhtəşəm türbənin inşasını davam etdirmiş və bu işi 1186-cı ildə başa çatdırmışdı.

Bu zaman Naxçıvan ərazisinin idarəsi Atabəy Məhəmməd Cahan Pəhləvan tərəfindən arvadı, qızı Cəlaliyənin anası Zahidə xatına tapşırılmışdı. Mənşəcə Azərbaycan türkü olan bu qadın Eldənizlər dövlətinin ictimai-siyasi həyatında mühüm rol oynamış, vaxtilə kəniz olmasına baxmayaraq, Atabəylər sarayında xüsusi hörmət və nüfuz sahibi olmuşdur. Məhz bunun nəticəsi idi ki, Naxçıvanı idarə edərkən Əlincəqalada saxlanan dövlət xəzinəsinin ixtiyarı onun sərəncamına verilmişdi.

Atabəy Məhəmməd Cahan Pəhləvanın ölümündən sonra hakimiyyətə keçən qardaşı Qızıl Arslanın və oğlanları Əbubəkr və Özbəyin hakimiyyəti illərində də Naxçıvan ərazisi dövlətin əsas ticarət, sənətkarlıq və mədəniyyət mərkəzlərindən biri olmuşdur. Onlar ərazidəki güclü müdafiə istehkamlarından, xüsusilə aparılan son tədqiqatlara əsasən yaranma tarixi I-VI əsrlərə aid edilən **(Əlincəqala, 2016, s. 83)** Əlincəqaladan müdafiə məqsədi ilə istifadə edir, hətta dövlətin xəzinəsini də orada saxlayırdılar. Müharibə təhlükəsi yarandıqda Eldəniz hökmdarları öz ailələrini də Əlincəqalaya göndərir, bununla da müharibələr zamanı onların təhlükəsizliyini təmin edirdilər.

Həmçinin, bir sıra amillərdən asılı olaraq lazım gəldikdə Eldəniz hökmdarları bəzən dövlətin paytaxtını Naxçıvan şəhərinə köçürürdülər. Bütün bunlar isə öz növbəsində strateji cəhətdən çox əlverişli bir coğrafi mövqedə yerləşən Naxçıvan ərazisinin Eldənizlərin hakimiyyəti dövründə yüksək səviyyədə tərəqqi etməsi və Yaxın Şərqin mühüm elm, təhsil, mədəniyyət, sənətkarlıq və ticarət mərkəzlərindən birinə çevrilməsi üçün münbit şərait yaratmışdı.

Əldə olunan yüksəliş nəticəsində orta əsrlər zamanı Azərbaycanın mühüm ticarət, sənətkarlıq, elm, təhsil və mədəniyyət mərkəzlərindən birinə çevrilən Naxçıvan şəhərində XI-XII yüzillikdə Azərbaycan memarlığının ən möhtəşəm qollarından biri olan Naxçıvan memarlıq məktəbi formalaşmışdır. Nəticədə şəhərdə Azərbaycan memarlığının incilərindən olan Yusif Küseyr oğlu və Möminə xatın türbələri, Came məscidi, Qoşa minarəli baştağ və s. kimi möhtəşəm abidələr inşa edilmişdir.

Ancaq Qızıl Arslanın 1191-ci ildə öldürülməsindən sonra Atabəylər sarayında başlanan hakimiyyət uğrunda mübarizə və hərc-mərclik dövlətin qüdrətinə mənfi təsir etdi. Bu zaman hakimiyyətdə olan Əbubəkrin fərsizliyi, dövləti idarə işlərindən baş çıxara bilməməsi, sərxoşluğa və əyyaşlığa qurşanması da dövlətin zəifləməsinin əsas səbəblərindən idi.

Eldənizlər dövlətinin daxilində gedən bu prosesləri diqqətlə izləyən Şirvanşahlar dövləti və gürcü feodalları yaranmış əlverişli məqamdan istifadə etdilər və dövlətin ərazisinə hücuma keçdilər. 1210-1211-ci illərdə hücuma keçən gürcü feodalları sürətlə irəliləyərək Naxçıvan ərazisinə daxil oldular və Naxçıvan şəhərini mühasirəyə aldılar. Ancaq şəhər güclü müdafiə olunduğundan onu tuta bilmədikləri üçün hücumlarını davam etdirərək Araz çayını keçdilər və Mərənd şəhərini dağıtdılar. Təbriz üçün böyük təhlükə yarandığından həmin vaxt şəhəri idarə edən Zahidə xatın çoxlu hədiyyələr müqabilində şəhəri dağıntıdan xilas edə bildi. Ancaq düşmən şəhər ətrafını və bir sıra Azərbaycan şəhərlərini talan etdi, əhaliyə divan tutuldu.

Atabəy Əbubəkr hakimiyyətinin sonlarına yaxın gürcülərin hücumunun qarşısını almaq, dövlətin təhlükəsizliyini təmin etmək məqsədi ilə müsəlman aləminin kəskin narazılığına səbəb olan bir işə – gürcü knyazının qızı ilə evlənməyə razılıq verdi. Bununla da gürcülərlə münasibətlərin müəyyən qədər nizama salınmasına nail oldu. Ancaq bu vəziyyət çox davam etmədi və onun ölümündən sonra gürcülərin əraziyə hücumları yeni qüvvə ilə qızışdı **(Bünyadov Z.M., 1985, s. 106)**.

Əbubəkrin 1210-cu ildə ölümündən sonra hakimiyyətə keçən qardaşı Müzəffərəddin Özbək (1210-1225) dövləti gücləndirməyə cəhd etsə də onun süqutunun qarşısını ala bilmədi. Onun hakimiyyəti dövründə Eldənizlər dövlətinin tənəzzülü daha da gücləndi və xarici müdaxilələr, xüsusilə Xarəzmşah Cəlaləddinin hücumu nəticəsində süqut edərək tarix səhnəsindən çıxdı.

XIII əsrin əvvəllərində Mərkəzi Asiyada güclü monqol dövləti təşəkkül tapdı. Əsası Çingiz xan tərəfindən qoyulan bu dövlət bir sıra torpaqları işğal etdikdən sonra qərbə doğru hərəkət edərək 1221-ci ildə Azərbaycan ərazisinə daxil oldular. Monqol sərkərdələrindən Cəbə və Subutayın rəhbərlik etdiyi 30 min nəfərlik ordu birləşmələri Ərdəbil şəhərini tutduqdan sonra Təbrizə doğru irəlilədilər. Həmin vaxt Eldənizlər dövlətində hakimiyyətdə olan Müzəffərəddin Özbək şəhərin müdafiəsini başlı-başına

buraxaraq Naxçıvana qaçdı. Təbrizi işğal edən monqollar Naxçıvan ərazisinə daxil oldular və Naxçıvan şəhərini tutaraq viranəyə çevirdilər. Əhali kütləvi qırğına məruz qaldı. Hətta monqollar xəstələrə, qocalara, qadınlara və uşaqlara da rəhm etməyib hamısını qılıncdan keçirdilər. Yalnız Naxçıvanın hakimi Qızıl Arslan Xamuş öz günahını boynuna alaraq onların yanına gəldikdən sonra monqollar qırğını dayandırdılar **(Bünyadov Z.M., 1985, s. 114-115)**.

Bu hücumdan sonra hələ də özünə gəlməmiş Naxçıvan ərazisi 1225-ci ildə Orta Asiya hökmdarı Xarəzmşah Məhəmmədin oğlu Cəlaləddinin hücumuna məruz qaldı. Cənubi Azərbaycan torpaqlarını tutan Cəlaləddin Naxçıvan ərazisinə daxil oldu və Naxçıvan şəhərini işğal etdi. Bu zaman Naxçıvanın hakimi Atabəy Məhəmməd Cahan Pəhləvanın Zahidə xatından olan qızı, həmin vaxt Eldənizlər dövlətinin başında duran Atabəy Özbəyin bacısı Cəlaliyə xatın idi. Təbrizə hücum başlanarkən canını xilas etmək üçün Gəncəyə, oradan da Naxçıvana qaçan Atabəy Özbək bu zaman Əlincəqalaya sığınmışdı. Naxçıvan şəhərini tutduqdan sonra şərqə tərəf hərəkət edən Cəlaləddinin qoşunları Əlincəqala ətrafında Atabəy Özbəyin ordusu ilə qarşılaşdı. Baş verən döyüşdə məğlub olan Özbək öldürüldü və Əlincəqalanın qərb tərəfində dəfn edildi. İndiyədək qalan bu qəbir el arasında "Özbəyin qəbri" adı ilə tanınır.

Bəzi orta əsr müəllifləri isə xəbər verirlər ki, Atabəy Özbək Əlincəqalada olarkən arvadı Sultan Məlikə ilə Cəlaləddinin izdivacı xəbərini eşidərkən başını balış üzərinə qoymuş, bədəninin hərarəti artmış, bir neçə gündən sonra ölmüşdü **(Bünyadov Z.M., 1985, s. 125)**. Beləliklə, Cəlaləddin başqa Azərbaycan torpaqları kimi Naxçıvan ərazisinə də sahib oldu. Ancaq burada möhkəmlənə bilmədi, xalq narazılıqlarının təsiri ilə ərazini tərk edib getməyə məcbur oldu.

Bu zaman Azərbaycan üzərinə monqolların ikinci hücumu başlandı. 1231-ci ildə Cormoqon noyonun başçılığı ilə böyük bir monqol ordusu Azərbaycanı işğal etdi. Yenidən monqol ordusu

tərəfindən işğal edilən Naxçıvan ərazisi başqa Azərbaycan torpaqları kimi təzə yaradılan dörd monqol ulusundan birinə – Qızıl Orda ulusuna daxil edildi. Az sonra, 1258-ci ildə Naxçıvan ərazisi monqol şahzadəsi Hülakü xanın yaratdığı beşinci monqol ulusuna – Hülakülər və ya tarixi ədəbiyyatda qeyd olunduğu kimi Elxanilər dövlətinin tərkibinə qatıldı.

Bu dövrdə Azərbaycan uğrunda Qızıl Orda ilə Hülakülər dövləti arasında aramsız müharibələr başlandı. Bu müharibələr zamanı döyüş meydanına çevrilən Azərbaycan, o cümlədən onun tərkib hissəsi olan Naxçıvan ərazisi böyük zərər çəkdi, dağıntılara məruz qaldı. Orta əsr qaynaqları monqol hücumları və bu dövrdə baş verən feodal müharibələrinin Naxçıvan ərazisinə vurduğu ziyan və törədilən dağıntılar haqqında çoxlu məlumatlar təqdim edirlər.

Hülakü hökmdarları Naxçıvan ərazisindəki müdafiə qalalarına, xüsusilə Əlincəqalaya böyük əhəmiyyət verirdilər. Hətta onun möhkəmləndirilməsi üçün bir sıra tədbirlər həyata keçirirdilər. Bu cəhətdən Hülakü hökmdarı Baydu xanın 1295-ci ildə öz tərəfdarları tərəfindən Naxçıvanda tutularaq təslim edilməsi ilə hakimiyyətə keçən Qazan xanın dövləti möhkəmləndirmək üçün keçirdiyi islahatların Naxçıvan ərazisində iqtisadiyyatın nisbətən dirçəlməsinə və təsərrüfatın inkişafına göstərdiyi müsbət təsiri xüsusilə qeyd etmək lazımdır.

Hülakülərin (Elxanilərin) hakimiyyəti altında olarkən Naxçıvan ayrıca bir tümənlik təşkil edirdi. Orta əsr tarixçi və coğrafiyaşünası Həmdullah Qəzvini xəbər verirdi ki, həmin vaxt Naxçıvan tümənində beş şəhər (Naxçıvan, Əncan, Ordubad, Azad, Maku) olmuşdur **(Казвини X., 1983, c. 51)**.

Müəllifin məlumatından aydın olur ki, XIII yüzilliyin ortalarında Naxçıvan tümənində beş şəhər olsa da, bölgənin ən inkişaf etmiş şəhəri Naxçıvan şəhəri olmuşdur. Bunu tümənin mərkəzi kimi Naxçıvan şəhərinin seçilməsi də təsdiq edir. Həmdullah Qəzvini şəhər haqda yazır: “Bu “Dünyanın bəzəyi” (Nəqş-i cahan) adlanan gözəl yerdir. Onun binalarının böyük hissəsi

bişmiş kərpicdən tikilmişdir. Əkin yerləri taxıl məhsulları, pambıq, üzüm və bir qədər meyvə verir. Yaxınlıqda arasında xarabalıqları qalan Alancik (Əlincə), Sürməri, Təqmər və Fəqnən kimi bir neçə güclü qalalar ucalır. Vergilər 113 min dinar təşkil edir" **(Казвини Х., 1983, с. 51)**.

Həmdullah Qəzvininin haqqında məlumat verdiyi, Azərbaycan tarixində hərəsinin özünəməxsus yeri olan bu şəhərlərdən Azad şəhəri haqqında qaynaqlarda məlumat çox azdır. İlk mənbələrin verdiyi xəbərlərə görə bu şəhər Culfa və Ordubad şəhərlərinin arasında, Arazın sol sahilində, kiçik bir çayın vadisində yerləşirmiş. Həmdullah Qəzvini yazır ki, Azad taxıl məhsulları, pambığı və üzümü ilə məhşur olmuş, buranın şərabı böyük şöhrət qazanmışdır. Suyunu Qapan dağlarından alan çaylar Araz çayına tökülür. Burada əhali ağbəniz olub, təbiətcə dəyişkəndirlər. Vergilər 18300 dinar təşkil edir **(Казвини Х., 1983, с. 51)**.

Əsas karvan yollarının keçdiyi bir ərazidə yerləşən Azad şəhəri orta əsrlər zamanı mühüm ticarət və sənətkarlıq mərkəzi kimi şöhrət qazanmışdı. Beynəlxalq ticarətdə mühüm rol oynayan şəhər və ətrafı qızıl boya (marena) tədarükü sahəsində tanınmış yerlərdən hesab olunurdu. Şəhərdə dörd karvansaranın mövcud olması onun inkişaf səviyyəsindən xəbər verir.

Son illərdə aşkar olunmuş epiqrafik abidələr, o cümlədən XVI əsrdə yaşamış Dərviş bəy əl-Azadiyə, onun qızı Zərifəyə və oğlu Əli Sultana aid qəbirüstü kitabələr vasitəsilə Azad şəhərinin yeri dəqiq müəyyən edilmiş və aydın olmuşdur ki, o, indiki Azadkənd (Ordubad bölgəsi) kəndinin ərazisində yerləşirmiş **(Səfərli F., Cəfərov H., 1998-1, s. 46-48)**.

1335-ci ildə Elxani Əbu Səid arvadı, Əmir Çobanın qızı Bağdad xatın tərəfindən zəhərlənib öldürüldükdən **(Zeynaloğlu C., 1992, s. 36)** sonra taxt-tac uğrunda başlanan mübarizə, tez-tez baş verən hakimiyyət dəyişiklikləri nəticəsində Hülakülər dövləti dağıldı və kiçik feodallıqlara parçalandı. Bu dövrdə tez-tez baş verən aramsız feodal müharibələri zamanı döyüş meydanına çevrilən Naxçıvan şəhəri bütün ərazi ilə birlikdə dəfələrlə əldən-ələ

keçdi, xeyli zərər çəkdi, təsərrüfat və iqtisadiyyat dağılaraq tənəzzül etdi.

Yaranmış vəziyyətdən istifadə edən Elxani Əbu Səidin sərkərdəsi və qayınatası Əmir Çobanın xələfi Əşrəf XIX yüzilliyin əvvəllərində Azərbaycanın və Arranın cənub hissələrini, o cümlədən Naxçıvan ərazisini öz hakimiyyəti altına saldı. Qeyd etmək lazımdır ki, Çobani əmirlərinin ağır zülmünə dözməyən Azərbaycan, o cümlədən Naxçıvan əhalisi öz vətənini tərk edib başqa yerlərə köçürdülər. XIV əsr tarixçisi Məhəmməd ibn Hinduşah Naxçıvani xəbər verir ki, həmin vaxt Naxçıvanın ancaq altıda bir hissəsində əhali yaşayırdı **(Azərbaycan tarixi, 1958, s. 202)**. Belə bir şəraitdə Qızıl Orda xanı Canıbəy Azərbaycanı ələ keçirmək üçün fəaliyyətə başladı və onun tərəfindən təqib olunan Əşrəf Naxçıvana gəldi. Buna baxmayaraq, o canını xilas edə bilmədi və 1356-cı ildə Naxçıvanda tutularaq qətlə yetirildi **(Məmmədov R., 1977, s. 91)**.

Əşrəf öldürüldükdən sonra Naxçıvanı işğal edən Canıbəy ərazinin idarəsini digər torpaqlarla birlikdə oğlu Berdibəyə tapşırdı. Ancaq Berdibəyin hakimiyyəti uzun müddət davam edə bilmədi və o tezliklə Azərbaycanı tərk edərək getdi. Bu zamandan başlayaraq Naxçıvan ərazisi bir sıra feodallar, xüsusilə Çobanilər, Cucilər, Cəlairilər və Müzəffərilər arasında mübarizə meydanına çevrildi, dəfələrlə əldən-ələ keçdi. Bütün bunların nəticəsində ərazi böyük dağıntılara məruz qaldı. Bu sülalələr Azərbaycanda, o cümlədən Naxçıvanda az bir müddət hakimiyyətdə olsalar da, imkan tapıb ərazidəki zərbxanalarda öz adlarına sikkə kəsdirmişdilər. 1858-ci ildə Ordubad şəhərində aşkar edilən və hazırda Sankt-Peterburqdakı Ermitajda saxlanılan çoxlu maddi-mədəniyyət nümunələri arasında olan 454 Cəlairi sikkəsinin bir qismi Naxçıvanda və Əlincədə zərb olunmuşdur **(Zeynaloğlu C., 1992, s. 41-43)**. Hakimiyyəti qısa müddət davam etsə də, Müzəffəri hökmdarı Şah Şuca da Naxçıvanda öz adına sikkə kəsdirmişdi.

Tarixin təhrif olunmamış qaynaqlarından sayılan epiqrafik materiallar təsdiq edirlər ki, Naxçıvan ərazisi bəhs olunan dövrdə

orta çağ müsəlman Şərqində geniş yayılmış dini-fəlsəfi cərəyan olan sufizmin mərkəzlərindən birinə çevrilmişdir. Burada müxtəlif təriqətlərə mənsub xanəgahlar fəaliyyət göstərmişdir. Ordubad şəhərinin şərq tərəfində yerləşən qəbiristanlıqdakı bir başdaşı üzərindəki kitabədən aydın olur ki, Ön Asiyada sufizmin banilərindən olan Şeyx Əbu Səid Əbül Xeyr Xorasaninin yeddinci nəslindən olan və babasının adını daşıyan eyni adlı Şeyx Əbu Səid XIV əsrdə Ordubadda yaşamış, özünün xanəgahını yaratmış, ideyalarını yaymışdır. 1357-ci ildə vəfat edən bu şeyx sənətkarlar və tacirlər arasında yüksək nüfuza malik olmuşdur **(Səfərov F., 1997, s. 30-31; Nemət M., 1992, s. 28-29; Səfərli F., Cəfərov H., 1998-1, s. 17-19)**.

Naxçıvan ərazisinin digər yerlərində də indiyədək qalan sufi məskənləri – xanəgahlar təsdiq edirlər ki, Naxçıvan sufi təriqətlərinin geniş fəaliyyət göstərdiyi yerlərdən olmuşdur. Qaynaqlar təsdiq edir ki, Naxçıvan ərazisində olan bir çox xanəgahlar müsəlman şərqinin nüfuzlu xanəgahları ilə bir sırada durmuşlar **(Буниятов З., 1985, с. 64-68)**.

XIV yüzilliyin 80-ci illərində bütün Azərbaycan torpaqları kimi Naxçıvan ərazisi də Əmir Teymurun hücumlarına məruz qaldı. 1370-ci ildə Orta Asiyada hakimiyyətə gələn Əmir Teymur qısa bir vaxtda qüdrətli bir dövlət yarada bilmiş, fəal xarici və işğalçılıq siyasəti yeritməyə başlamışdı. 1385-ci ildə qərbə doğru hərəkətə başlayan Əmir Teymur bir sıra Azərbaycan şəhərlərini tutaraq 1386-cı ildə Naxçıvan ərazisinə daxil oldu. Naxçıvan yaxınlığında Cəlairi hökmdarı Sultan Əhmədlə Teymurun sərkərdəsi İlyas Xocanın qoşunları rastlaşdı və baş verən döyüşdə İlyas Xocanın təsadüfən yaralanması Sultan Əhmədi ağır məğlubiyyətdən xilas etdi.

Ancaq Orta Asiyada iğtişaşlar başlanması xəbərini eşidən Teymur hücumu davam etdirə bilmədi və təcili Səmərqəndə qayıtdı. Elə həmin il Naxçıvan ərazisi Qızıl Orda hökmdarı Toxtamışın sərkərdəsi Bəy Poladın hücumlarına məruz qaldı. Ərazi işğal edildi və tamamilə dağıdıldı. Ancaq Toxtamış Qızıl Orda

torpaqlarını Əmir Teymurun hücumlarından qorumaq məcburiyyətində qaldığı üçün Azərbaycanda duruş gətirə bilmədi və ərazini tərk edərək geri qayıtdı.

1387-ci ildə Əmir Teymurun Naxçıvan ərazisinə yenidən hücumları başlandı. İlyas Xocanın rəhbərliyi altında hücum edən Teymur qoşunları Naxçıvan şəhərini tutdu, Kərni və Sürməli istehkamları dağıdıldı. İlyas Xocanın qoşunları hücumlarını Əlincəqala istiqamətində davam etdirdi. Ancaq qalanı hücumla tuta bilməyən Teymur qoşunları onu mühasirəyə aldılar. Əvvəldə qeyd olunduğu kimi, Naxçıvanda hökmranlıq edən hakimlər ərazidəki qalalara, xüsusən Əlincəqalaya xüsusi diqqət yetirir, xarici hücumlardan qorunmaq üçün onlardan istifadə edirdilər. Ona görə də bütün müdafiə istehkamlarında olduğu kimi vaxtaşırı bu qalada da bərpa və möhkəmləndirmə işləri aparırdılar.

Məhz bu baxımdan Cəlairi hökmdarları Əlincəqalanı möhkəmləndirərək alınmaz bir istehkama çevirmiş, dövlətin xəzinəsini də orada gizlətmişdilər. Həmçinin, Sultan Əhməd Cəlairi ailəsini də oğlu Məlik Tahirlə birlikdə qalaya yerləşdirmişdi. Qalanın müdafiəsi 300-ə yaxın döyüşçü ilə birlikdə Sultan Məlik Tahirə və qala rəisi kimi əvvəl Xacə Cövhərə, onun vəfatından sonra Əmir Altuna, onun qətlə yetirilməsindən sonra isə Əmir Seyyid Əhməd Oğulşamiyə həvalə edilmişdi.

Müdafiəçilər Əlincəqalanın gizli yollarına, strateji mövqeyinə yaxşı bələd olduqlarından Teymurilərin vaxtaşırı qala üzərinə edilən hücumlarının qarşısını alır, eyni zamanda əlverişli məqamlarda əks-hücumlara keçir, düşmənə böyük itkilər verirdilər. Bütün bunlara baxmayaraq düşmənə 14 il mətanətlə müqavimət göstərən Əlincəqala daxili çəkişmələr nəticəsində zəiflədi və tədricən boşalan qala Teymur qoşunları tərəfindən 1401-ci ildə fəth olundu. Uzun müddət onun qoşunları qarşısında davam gətirən bu qala öz möhtəşəmliyi ilə Teymuru heyrətləndirdiyindən o xüsusi olaraq qalaya çıxmış və onu ziyarət etmişdi.

Bəhs olunan dövrdə bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da Teymurilərə qarşı yönəlmiş dini-siyasi hərəkat olan Hürufilik yayılmağa başlamışdı. Bu hərəkatın rəhbəri və ardıcılları Teymurilər tərəfindən təqib olunurdular. Hürufilik təliminin ilk dəfə yayıldığı ərazilərdən hesab edilən Naxçıvanda da hürufilərin tərəfdarı çox idi. Ona görə də ərazidəki hürufiləri qorxutmaq, onları hərəkatdan çəkindirmək məqsədi ilə Teymurun oğlu Miranşah Hürufilik təliminin banisi Fəzlullah Nəimini həbs etdirərək Naxçıvana gətirtdirdi və Əlincəqala ətrafında onu dəhşətli surətdə qətlə yetirdi. Hazırda onun qəbri Əlincəqaladan təxminən 1 kilometr şərq tərəfdə yerləşən xanəgahdadır və yerli əhali tərəfindən ziyarətgaha çevrilmişdir **(Səfərli F., Cəfərov H.,1998-1, s. 31-32)**.

1405-ci ildə Teymur öldü. Bu zaman Təbriz qazısı İmadəddin Naxçıvana hücum edərək Əlincəqalanı tutdu. Az sonra, 1406-cı ilin iyul ayında Sultan Əhməd Cəlairi Təbriz şəhərini tutarkən qazı İmadəddin Sultan Əhmədi müdafiə edərək onun tərəfinə keçdiyi üçün mükafat olaraq bütün Naxçıvan mahalının idarəsi ona tapşırıldı **(Məmmədov R., 1977, s. 97)**.

Artıq bu zaman yeni güclü bir qüvvə – Qaraqoyunlu türk tayfaları birliyi tarix səhnəsinə qədəm qoymuş və onlar 1406-cı ilin oktyabrında Naxçıvanda Miranşahın oğlu Əbubəkrin ordusunu, 1408-ci ildə isə Təbriz yaxınlığında Miranşahın qoşunlarını darmadağın edərək Azərbaycanda Teymurilərin hakimiyyətinə son qoymuşdular. Az sonra onlar Cəlairilər dövlətini də süquta uğratdılar. Beləliklə, Qaraqoyunlu dövləti təşəkkül tapdı.

1412-ci ilin sonlarında Naxçıvan ərazisi Qaraqoyunluların hakimiyyəti altına keçdi. Mənbələrin də təsdiq etdiyi kimi, Naxçıvan feodalları Qaraqoyunluları müdafiə etsələr də, Qara Yusifin ölümündən sonra hakimiyyət uğrunda başlanan mübarizədən istifadə edən Teymurun oğlu Sultan Şahrux hücum edərək Azərbaycanın bir sıra torpaqlarını tutdu. 1424-cü ildə Şahruxla Qaraqoyunlu İsgəndər arasında baş verən döyüşdə Qaraqoyunlular məğlub oldu və Naxçıvan Şahrux tərəfindən tutuldu. Az sonra Şahrux

Azərbaycanı tərk etdiyi üçün Naxçıvan yenidən Qaraqoyunluların əlinə keçdi.

Bu zaman Qara Yusifin oğlanları İsgəndərlə Cahanşah arasında hakimiyyət uğrunda mübarizə gedirdi. 1436-cı ildə Mərənd yaxınlığındakı Sufiyan qəsəbəsində iki qardaş arasında baş verən döyüşdə İsgəndər məğlub oldu və Naxçıvana qaçaraq Əlincəqalaya pənah gətirdi. Ancaq o burada onun cariyyələrindən birinə aşiq olmuş oğlu Şahqubad tərəfindən öldürüldü **(Qızılbaşlar tarixi, 1993, s. 20)**.

Qaraqoyunlu hökmdarı, "Həqiqi" təxəllüsü ilə şeirlər yazan Cahanşahın hakimiyyəti illərində (1435-1467-ci illər) Qaraqoyunluların tabeliyində olan Naxçıvan ərazisində dinc quruculuq işləri aparılmışdır. Epiqrafik materialların təsdiq etdiyi kimi, ərazidə möhtəşəm memarlıq abidələri inşa edilmişdir.

Culfa bölgəsinin Xanəgah kəndində indiyədək qalan möhtəşəm türbənin kitabəsi Azərbaycan ərazisində Cahanşahın adı qeyd edilən yeganə kitabə olmaqla, Naxçıvan ərazisində aparılan quruculuq işlərini təsdiq edən ən sanballı qaynaqdır **(Səfərli F., Cəfərov H.,1998-1, s. 40-41)**. Həmçinin, bu zaman mühüm ticarət mərkəzi kimi tanınan Culfa şəhəri Cahanşahın diqqət mərkəzində olmuşdur. Təsadüfi deyildir ki, o hicri 857-ci ilin ramazan ayında (sentyabr, 1452-ci il) Culfa şəhəri haqqında xüsusi fərman imzalamışdır **(Musəvi T., 1977, s. 46)**.

Qaraqoyunlu Cahanşahın hakimiyyətinin sonlarına yaxın Azərbaycanın qərb hissəsində yaşayan Ağqoyunlu tayfa başçıları güclənməyə başladılar. Ağqoyunlu Uzun Həsənlə Qaraqoyunlu Cahanşah arasında 1467-ci ilin mayında Muş düzündə baş verən döyüşdə Cahanşah məğlub oldu və öldürüldü. Beləliklə, Qaraqoyunlu dövlətinin varlığına son qoyuldu. Bununla da digər Azərbaycan torpaqları kimi Naxçıvan şəhəri də bütün ərazi ilə birlikdə yeni yaranmış Ağqoyunlular dövlətinin hakimiyyəti altına düşdü. Ərazi 1501-ci ilədək Ağqoyunluların əlində qaldı.

XV əsrin sonlarında Ağqoyunlu dövlətini daxili çəkişmələr bürüdü. Hakimiyyət uğrunda mübarizə qızışdı. Uzun Həsənin

varisləri arasında gedən mübarizə Ağqoyunlu Yaqub padşahın oğlu Baysunqur Mirzənin adından çıxış edən Sufi Xəlilin qələbəsi ilə nəticələndi. Hakimiyyətə əsas namizədlər öldürüldü, Uzun Həsənin nəvəsi Rüstəm Mirzə Əlincəqalada dustaq edildi. 1448-ci ildə Əlincəqaladan xilas olan Rüstəm Mirzə ilə Uzun Həsənin digər nəvəsi Gödək Əhməd arasında döyüş oldu. 1496-cı ildə Naxçıvan yaxınlığında baş verən bu döyüşdə Rüstəm Mirzənin qoşunları məğlub oldu, özü isə əsir alındı **(Məmmədov R., 1977, s. 98)**.

Qeyd olunan bu hadisələrə əsasən Naxçıvanın XV əsr tarixi ilə bağlı belə bir nəticəyə gəlmək olar ki, bölgədə bütün əsr boyu siyasi vəziyyət sabit olmamış, ölkə vaxtaşırı oturaq cəlairi, teymuri, qaraqoyunlu və ağqoyunlu qoşunlarının həmlələrinə məruz qalmış, müharibələr meydanına çevrilmiş, ərazi əldən-ələ keçmiş, müxtəlif dövlət qurumları tərəfindən idarə olunmuşdur **(Fərzəliyev Ş., 2006, s. 95-96)**.

Naxçıvan şəhəri bu dövrdə də bölgənin əsas ticarət, sənətkarlıq, elm, təhsil və mədəniyyət mərkəzi kimi öz yerini qoruyub saxlamışdır. Şəhəri "Azərbaycanda divarları və iç qalası olan gözəl şəhər" kimi xarakterizə edən orta əsr müəllifi Əbdürrəşid əl-Bakuvi yazır: "Bağlı-bostanlı, meşəli, meyvəli və çörəkli yerdir. Havası təmiz, suyu şirindir. Orada məşhur binalar, mədrəsələr və xanəgahlar var. Əhalisi nəqqaşlıqda və xələnc ağacından qab-qacaq və müxtəlif əşya düzəltməkdə mahirdir. Bütün bunlar müxtəlif ölkələrə aparılır" **(Bakuvi Ə., 1992, s. 132)**.

Belə bir şəraitdə Azərbaycanda yeni bir siyasi qüvvə, Səfəvilər sülaləsi tarix səhnəsinə çıxmış və böyük uğurlar qazanmışdı. XVI əsrin başlanğıcında bu sülalənin nümayəndəsi İsmayıl Şirvana hücum etmiş, böyük qələbələr əldə etmişdi. Şirvanda olarkən İsmayılın kəşfiyyatçısı Məhəmməd Xəlifənin çaparı Azərbaycan hökmdarı, Ağqoyunlu Əlvənd Mirzənin Naxçıvana 30 minlik qoşun toplaması haqqında xəbər verdi. Ona görə də İsmayıl Şirvandan Təbriz üzərinə gedərkən "Tozqoparan" ləqəbli Qara Piri bəy Qacarı və İlyas bəy Halvaçı oğlunu irəlidə gedən

qoşun hissəsinin sərkərdəliyinə təyin edərək Naxçıvan istiqamətində hərəkət etdi. İlyas bəylə ona qarşı Əlvənd tərəfindən göndərilən Osman bəy Mosullunun arasında Naxçıvan ərazisində baş verən döyüşdə qızılbaşlar qalib gəldi, Osman bəy əsir düşdü və öldürüldü **(Əfəndiyev O., 1993, s. 44)**. Vəziyyəti belə görən Əlvənd Mirzə İsmayıla təklif etdi ki, o Şirvana qayıtsın və oranın idarəsi ilə məşğul olsun. Ancaq İsmayıl bu təklifi rədd etdiyi üçün Əlvənd Mirzə Naxçıvan şəhərini tərk edərək Şərur düzünə getdi və həlledici döyüşə hazırlaşmağa başladı.

I Şah Abbasın tarixçisi İsgəndər bəy Münşi yazır ki, "Mirzə Əlvənd Naxçıvanda Süleyman şanlı xaqanın Azərbaycan tərəfə hərəkət etdiyini eşidib Əmir Osman Mosullunu Ağqoyunlu qoşununun bir dəstəsi ilə o həzrətin üstünə yolladı. Süleyman şanlı xaqan da Piri bəy Qacarı, Halvaçı oğlu Mirişkarı canını qurban edən qazilərdən bir dəstə ilə onları dəf etməyə göndərdi. Tərəflər arasında çox gərgin bir döyüş oldu. Səadətli [qızılbaş] qoşunları zəfər və qələbə qazandılar. Əmir Osman bir sıra türkman başçıları ilə əsir düşüb, Süleyman şanlı xaqanın hökmü ilə öldürüldü. Əmirzadə Əlvənd [göndərdiyi] qoşunun məğlubiyyəti və Əmir Osmanın əsir düşməsi xəbərini eşitdikdə Süleyman şanlı xaqana qarşı müharibə kəmərini qurşanıb intiqam almaq və o həzrətin hücumunu dəf etmək naminə öz yanında olan otuz min türkman döyüşçüsü ilə o həzrətin qarşısına çıxmağa tələsdi. Amma Süleyman şanlı xaqanın son dərəcə şücaətli və cəsur olması, özlərini pərvanə kimi atəşə atmağı əbədi həyat bilən qızılbaşların fədakarlığı onların ürəyində dəhşət və vahimə doğurmuşdu" **(İsgəndər bəy Münşi, 2009, s. 84)**.

Bu zaman qüvvələr nisbəti İsmayılın xeyrinə deyildi. Əlvənd Mirzənin 30 minlik ordusuna qarşı onun 7 minlik ordusu dayanmışdı. İsmayılla Əlvənd Mirzə arasında həlledici döyüş 1501-ci ilin ortalarında Şərur düzündə baş verdi. Döyüş İsmayılın parlaq qələbəsi ilə nəticələndi. Əlvənd Mirzənin 8 min nəfərlik seçmə süvari dəstəsi, Lətif bəy, Sidi Qazi bəy, Musa bəy, Qaraca Mahmud bəy kimi sərkərdələri döyüş zamanı öldürüldü.

Öldürülən sərkərdələrin başları kəsilərək nizələrə vuruldu. Bunu görən Ağqoyunlular arasında güclü vahimə yarandı və onlar döyüş meydanından qaçmağa başladılar. Əlvənd Mirzə ağır məğlubiyyətə uğrayaraq canını güclə xilas etdi və Ərzincana qaçdı **(Əfəndiyev O., 1993, s. 45)**. Müharibədə Naxçıvan əhalisinin Səfəviləri müdafiə etməsi döyüşün nəticəsinə təsir edən əsas amillərdən biri oldu.

Beləliklə, hələ Səfəvilər dövlətinin təşəkkül prosesində Naxçıvan ərazisi qızılbaşların ixtiyarına keçdi və az sonra, 1501-ci ilin payızında İsmayılın Təbrizi tutması ilə əsası qoyulan Səfəvilər dövlətinin tərkib hissəsinə çevrildi. 23 avqust 1514-cü ildə Səfəvilərlə qonşuluğunda belə qüdrətli bir dövlətin yaranması ilə barışmaq istəməyən Osmanlılar arasında baş verən Çaldıran döyüşünədək Səfəvilərin hakimiyyəti altında qalan Naxçıvan ərazisi döyüşdən sonra qısa bir müddətdə, cəmi beş gün Sultan Səlimin əlində oldu. Şəhəri tərk etməyə məcbur olan Sultan Səlimlə Şah İsmayıl arasında bağlanan sülh müqaviləsinə görə Naxçıvan torpaqları Səfəvilərin hakimiyyəti altında qaldı.

Bir-birinə rəqib kimi baxan Səfəvilərlə Osmanlılar arasında münasibətlərin getdikcə kəskinləşməsi nəticəsində bu iki dövlət arasında I Şah Təhmasibin hakimiyyətinin əvvəllərindən başlayaraq aramsız, üzücü, uzun sürən müharibələr başlandı. Bu müharibələr zamanı əsas döyüş meydanlarından birinə çevrilən Naxçıvan ərazisi dəfələrlə əldən-ələ keçdi, böyük dağıntılara və itkilərə məruz qaldı. Xüsusilə, Osmanlı sultanı Süleyman Qanuninin 1554-cü ildə başlanan dördüncü, tarixdə "Naxçıvan səfəri" adlanan və say hesabı ilə Osmanlıların 12-ci yürüşü zamanı Naxçıvan ərazisində güclü dağıntılar törədildi. Əhali kütləvi surətdə qırıldı. Düşmənin belə güclü hücumunun qarşısını ala bilməyəcəyini dərk edən I Şah Təhmasib döyüşə girməyərək öz ordularını geri çəkmiş, bu zaman Naxçıvan əhalisinin çoxu da onlarla birlikdə yaşayış məskənlərini, öz ev-eşiklərini tərk edib getmişdilər.

28 iyul 1554-cü ildə Naxçıvan şəhərini tutan Osmanlılar şəhəri talan edərək onu viranəyə çevirdilər. Bu hadisədən bəhs edən orta əsr qaynaqları özlərində dəhşətli məlumatlar qoruyub saxlamışlar **(Məmmədov R., 1977, s. 125)**. Hətta Süleyman Qanuniyə rəğbətlə yanaşan türk tarixçiləri də törədilən dağıntıları təsvir etməkdən yan keçə bilməmişlər. M.Solakzadə Süleyman Qanuninin Naxçıvana etdiyi bu yürüş haqqında yazır ki, padşah Naxçıvan səhrasında mənzilgah qurdu. Orada da qabaqkı kimi qızılbaşların ocaqlarının qarət edilməsi və xarabaya çevrilməsi üçün akınçı (düşmən ərazisinə kəşfiyyat və ya qarət məqsədilə ilə basqın (akın-axın) edən süvari dəstələri) tayfasına rüsxət verildi. Akınçılar iyirmi günlük yeri yandırıb yerlə bir etdilər. Məmur və abad olan xanə və kaşanələri yer üzü ilə bir edib, daş üstə daş qoymadılar. Adı keçən akınçıların əllərinə düşən qənimət hesaba gəlməzdi **(Solakzadə M., 1992, s. 50)**.

Başqa bir türk tarixçisi İbrahim Paşa Peçəvi isə yazırdı ki, Naxçıvanda gündüz gecəyə çevrildi. Bütün şəhər və kəndlər, evlər ordu tərəfindən bayquş və qarğa yuvalarına çevrilərək elə xaraba qoyulmuşdu ki, baxdıqca insanı dəhşət bürüyürdü. Qənimətə susamış əsgərlər öz yollarındakı kəndlər, qəsəbələr və evləri o qədər amansızlıqla talan edirdilər ki, onlardan bir əsər belə qalmırdı **(Məmmədov R., 1977, s. 126)**.

Naxçıvanı tamamilə viranəyə çevirən osmanlılar ərzaq sarıdan çətinlik çəkdikləri və Səfəvi süvarilərinin gözlənilməz zərbələrinə məruz qaldıqları üçün üç gündən sonra, yəni 30 iyul 1554-cü ildə ərazini tərk edərkən I Sultan Süleyman Qanuninin əmri ilə Naxçıvan şəhərinə od vurdular və Ərzuruma çəkildilər.

Bütün bunlara baxmayaraq, XVI əsrdə Naxçıvan ərazisi Səfəvi şahlarının diqqət mərkəzində olduğundan orada sənətkarlıq və ticarət inkişaf etmiş, iqtisadiyyat dirçəlmişdi. Xüsusilə, bu zaman Culfa inkişaf edərək beynəlxalq ipək ticarətinin mərkəzlərindən birinə çevrildi. Artur Edvards qeyd edirdi ki, XVI əsrin 60-cı illərində Culfa tacirləri Suriya limanı olan Hələbə 500 tay ipək aparmışdılar ki, bu da 30 min batman ipək edir.

Bunun əvəzində isə yalnız 18 min parça Venetsiya maddəsi (qara zəy) aparırdılar. 1581-ci ildə Culfada olmuş ingilis taciri Nyüberi şahidlik edir ki, həmin vaxt şəhərdə evlərin sayı 3 minə, əhali isə 15-20 minə çatırdı. Ondan 10 il sonra Culfadan keçən başqa bir ingilis taciri Kartvrayt isə orada 2 min ev, 10 min əhali olması haqqında məlumat verir **(Azərbaycan tarixi, 1994, s. 448; Əfəndiyev O., 1993, s. 211)**.

Ümumiyyətlə, bu zaman Naxçıvan ərazisində Culfa ilə yanaşı Naxçıvan, Ordubad, Əylis kimi şəhərlər ticarət-iqtisadi cəhətdən xüsusi əhəmiyyət kəsb edirdilər. Kiçik şəhər olsa da, Əylis də ipək və digər məhsulların ticarətində xüsusi mövqe tutur, Səfəvi şahlarının diqqət mərkəzində dayanırdı.

XVI yüzilliyin son rübündə II Şah İsmayıl Naxçıvan ərazisinin idarəsini Şərəf xan Bitlisiyə həvalə etmişdi. Ancaq Şərəf xan burada uzun müddət davam gətirə bilməyərək 1578-ci ildə özünün 400 nəfərə yaxın tərəfdarı ilə Naxçıvanı tərk edərək Bitlis şəhərinə qayıtmışdı.

Hakimiyyətdə II Şah İsmayılı əvəz edən Şah Məhəmməd Xudabəndənin zamanında (1578-1587) Səfəvi dövləti inzibati cəhətdən bəylərbəyliklərə bölünmüş, Naxçıvan ərazisi qızılbaş ustaclu tayfalarından olan Kəngərlilərin irsi mülkiyyətinə verilmişdi. Bu zaman, 1578-ci ildə başlanan Səfəvi-Osmanlı müharibəsinin gedişində Naxçıvan ərazisi Mustafa Lələ Paşanın qoşunları tərəfindən işğal edildi. Ancaq Osmanlı qoşunları orada çox dayana bilmədilər və ərazini tərk etdilər. 1579-cu ildə Osmanlılar Naxçıvandan 40 min nəfərdən artıq adamı əsir apardılar. Beləliklə, Naxçıvan ərazisinin dinc həyatı pozulmuş, dəfələrlə talan edilmişdi. On ildən bəri davam edən müharibənin gedişində, 1588-ci ildə Fərhad paşanın başçılıq etdiyi Osmanlı ordusu ərazini yenidən işğal etdi. Elə həmin il Təbrizdəki Osmanlı qoşunlarının komandanı Cəfər paşa hücum edərək Ordubad şəhərini tutdu.

Gənc Səfəvi hökmdarı I Şah Abbasla (1587-1629) Osmanlılar arasında 1590-cı ildə İstanbulda bağlanan sülh müqaviləsinin

şərtlərinə əsasən Naxçıvan ərazisi Sultan Türkiyəsinin hakimiyyəti altına keçdi. Bundan sonra əlverişli coğrafi mövqeyini, hərbi-strateji cəhətdən əhəmiyyətini əsas götürərək Osmanlı komandanlığı Naxçıvanı müdafiə məntəqəsinə çevirdi və burada özlərinin seçmə qüvvələrini yerləşdirdilər. Ərazinin idarəsi Xıdır paşaya tapşırıldı.

İstanbul sülhü ilə yaranan fasilədən istifadə edən I Şah Abbas keçirdiyi islahatlar nəticəsində mərkəzi hakimiyyəti gücləndirdi, ordunu yenidən qurdu və itirilmiş torpaqları geri qaytarmaq üçün ciddi hazırlaşaraq məqam gözləməyə başladı. Belə bir şəraitdə, XVII yüzilliyin əvvəllərində Osmanlı imperiyasında başlanan qarışıqlıqdan əlverişli məqam kimi istifadə edən I Şah Abbas 1603-cü ildə Osmanlılarla müharibəyə başladı. Təbrizi, Culfanı, Əlincəqalanı tutan Qızılbaş orduları Ərdəbil valisi Zülfüqar xanın başçılığı ilə Naxçıvan üzərinə hücuma keçdi.

Bu dövrdə Təbriz tutularkən qaçıb xilas olan türk əsgərlərinin bir hissəsi gəlib Naxçıvanda yerləşmişdilər. Naxçıvanda olan Osmanlı qoşunu onların vasitəsi ilə Təbrizdəki vəziyyəti öyrənmiş, şəhərin hakimi Zəncirqıran Ali paşanın əsir düşməsi xəbərini eşitmiş, vahiməyə düşmüşdülər. Ona görə də Zülfüqar xan ordusu ilə Naxçıvana yaxınlaşarkən orada olan Osmanlı qarnizonu döyüşə girməyə cürət etməyərək şəhəri tərk etdi. Şəhəri tərk edərkən Şərif paşanın orada saxladığı 150 nəfərlik hissə isə Səfəvi ordusu yaxınlaşan kimi onların tərəfinə keçdi. Buna görə də Səfəvi qoşunu sərbəst şəkildə, heç bir müqavimətə rast gəlmədən Naxçıvan şəhərinə daxil oldu. Müqavimət göstərmədiklərinə görə Zülfüqar xan Osmanlı əsgərlərini əfv etdi, ancaq onların əmlak və mallarının müsadirə olunması haqqında göstəriş verdi **(Məmmədov R., 1977, s. 129-130)**.

Qələbədən 3 gün sonra Səfəvi hökmdarı I Şah Abbas Naxçıvana gəldi. Onunla birlikdə Naxçıvana gəlmiş müasirləri Culfa şəhərinin də Səfəvilərə heç bir müqavimət göstərmədiyini qeyd etmişlər. I Şah Abbas əlverişli coğrafi və hərbi-strateji mövqedə yerləşən Naxçıvan şəhərini hərbi düşərgəyə çevirtdirərək, bütün

Naxçıvan mahalının idarəsini Kəngərli sülaləsinin nümayəndəsi Maqsud Sultan Kəngərliyə həvalə etdi.

Qeyd etmək yerinə düşər ki, Naxçıvan ərazisinə gəlmələri eramızın əvvəllərinə aid edilən Kəngərli tayfası və onun içərisindən çıxmış ayrı-ayrı şəxsiyyətlər Naxçıvanın ictimai-siyasi, mədəni həyatında mühüm rol oynamışlar. Azərbaycan xalqının etnogenezində iştirak etmiş bu türk tayfası orta əsrlər dövründə Azərbaycanın və onun tərkib hissəsi olan Naxçıvanın siyasi həyatında fəal rol oynamış, böyük iz buraxmışlar. Xüsusilə, Səfəvilərin hökmranlığı dövründə və sonralar Kəngərlilər yüksək dövlət vəzifələri tutmuş, böyük nüfuz sahibi olmuşlar.

XVI əsrdən etibarən Naxçıvan torpaqları tiyul hüququ ilə (müəyyən xidmət müqabilində tayfa başçılarına, sərkərdələrə və başqa bu kimi adamlara verilən torpaq sahələri) Kəngərlilərə verilmiş, ərazinin idarə olunması da tayfanın başçılarına tapşırılmışdı. Onlar Naxçıvan mahalının həm iri feodalları, həm də hakimləri hesab olunurdular. Bunun müqabilində isə xəzinəyə müəyyən vergilər verməklə bərabər, lazım gəldikdə orta əsrlər zamanı çərik adlanan qeyri-nizami dəstələrlə dövlətin köməyinə gəlməli idilər. Orta əsr qaynaqlarında Naxçıvan mahalının hakimi olmuş Kəngərlilərə məxsus çoxlu şəxsiyyətin, o cümlədən Maqsud Sultan Kəngərlinin, Əliqulu xan Kəngərlinin və başqalarının adları çəkilir **(Səfərov F., 1989).**

Kəngərlilərin hərbi işdən yaxşı baş çıxarmaları, əməliyyatları bacarıqla yerinə yetirmələri, cəsarətləri və yüksək döyüş qabiliyyətləri Səfəvi şahlarının diqqətini cəlb etmiş, bu keyfiyyətlərinə görə onlardan xüsusi döyüşçü dəstələri təşkil olunmuşdur. Yüksək döyüşkənlik qabiliyyətlərini nəzərə alaraq I Şah İsmayıl ölkənin sərhədlərini türkmənlərin gözlənilən hücumlarından qorumaq üçün kəngərlilərin bir hissəsini Xorasana göndərmişdi. Həmçinin, sədaqətli, qorxmaz və dönməz olduqlarını nəzərə alaraq Səfəvi şahları özlərinin mühafizə dəstələrini və həmin dəstələrin başçılarını da kəngərlilərin arasından seçirdilər **(Səfərli H., Cəfərov H., 1998-2, s. 37-40)**. Məsələn, 1666-1694-cü

illərdə hakimiyyətdə olmuş Səfəvi şah Süleymanın (II Şah Səfinin) hicri 1095-ci ilin səfər ayında (yanvar 1684-cü il) imzaladığı fərmandan aydın olur ki, Kəngərli tayfasına mənsub Eynəlxan bəyə "Sultan" titulu verilməklə o şahın xüsusi rikab (orta əsrlər zamanı şah, sultan və xaqanları müşayiət edən xüsusi süvari dəstələr "rikab" adlanırdı) qulamlarına başçı təyin edilmişdi. Fərmandan o da aydın olur ki, Eynəlxan bəyin atası Pirmurad Sultan Kəngərli də illik məvacibi Təbriz pulu ilə 180 tümən, 5 min dinar olmaqla, həmin vəzifədə çalışmış və öldükdən sonra həmin məvacibi almaqla oğlu onun yerinə təyin olunmuşdur **(Musəvi T.M., 1977, s. 40)**.

Göründüyü kimi, Kəngərli tayfası Səfəvi şahlarının xüsusi diqqət mərkəzində olmuş, onlara bir sıra imtiyazlar verilmişdi. Mənbələrin verdiyi məlumatlara görə bəzən Kəngərli tayfa başçıları təkcə Naxçıvan kəngərlilərinə deyil, hətta başqa yerlərdə yaşayan bu tayfaya mənsub adamlara da rəhbərlik etmişlər. İsgəndər bəy Münşi bu fikri təsdiq edərək göstərir ki, 1628-ci ildə Maqsud Sultan təkcə Naxçıvan kəngərlilərinin deyil, həmçinin Xorasan kəngərlilərinin də başçısı hesab olunurdu.

Naxçıvanın, eləcə də bütün Azərbaycanın, baş verən Səfəvi-Osmanlı müharibələrinin tarixini öyrənmək üçün bir sıra orta əsr qaynaqları ilə yanaşı, Naxçıvan ərazisində bu günədək gəlib çatan epiqrafik materiallar – kitabələr dəyərli məlumatlar təqdim edirlər. Bu baxımdan Ordubad şəhər Came məscidinin kitabəsi çox diqqətəlayiqdir. Kitabənin mətni Səfəvi hökmdarı I Şah Abbasın 1604-cü ildə imzaladığı fərmandan ibarətdir **(Нейматова М.С., 1967, с. 105-110; Сафаров Ф.Я., 1987-2, с. 15-16)**.

Fərmanın verildiyi tarix Səfəvi-Osmanlı müharibələrinin ən qızğın dövrünə düşür. Kitabənin məzmunundan aydın olur ki, I Şah Abbas imzaladığı bu fərmanla Ordubad şəhər əhalisini xəzinəyə veriləcək vergilərdən azad etmişdir. Belə bir fərmanın Səfəvi şahı tərəfindən imzalanması heç də təsadüfi deyildi. Qeyd edildiyi kimi, Səfəvi dövlətinin yaranması ilə meydana çıxan

Səfəvi-Osmanlı ziddiyyətləri getdikcə kəskinləşmiş, sonralar qanlı, dağıdıcı və uzun sürən müharibələrə çevrilmişdi. Bu müharibələr XVI əsr boyu fasilələrlə davam etmiş, döyüş meydanına çevrilən Azərbaycan ərazisinin dəfələrlə dağıdılmasına səbəb olmuşdu.

XVI əsrin sonu – XVII əsrin əvvəllərində baş verən müharibələr zamanı Ordubad şəhəri də dəfələrlə döyüş meydanına çevrilmiş, əldən-ələ keçmiş, tamamilə dağıdılmış, əhali qırğına məruz qalmışdı. Ordubad əhalisi bu üzücü və aramsız müharibələrdən bezikmişdi. Ona görə də baş verən döyüşdə Ordubad əhalisi səfəviləri müdafiə etmiş, onların tərəfində vuruşmuşdu. Məhz buna görə də I Şah Abbas şəhəri osmanlılardan geri aldıqdan sonra, ordubadlıların bu xidmətini qiymətləndirmiş, 1604-cü ilin yanvarında fərman imzalamışdı.

Həmçinin bu fərmanı imzalamaqla şah müxtəlif strateji məqsədlər güdürdü. Belə ki, Ordubad ərazisi Osmanlı imperiyası ilə sərhəddə yerləşirdi. Ona görə də şah bu fərmanı verməklə, Ordubad əhalisinin, xüsusilə fərmanda qeyd olunan və qədim zamanlardan orada sakin olan Nəsirəddin Tusi nəslinin hörmətini qazanmaq, bununla da Osmanlılarla gələcək müharibələrdə özünə möhkəm arxa yaratmaq istəmişdi. I Şah Abbas bu fərmanı imzalamaqla həm də bütün Azərbaycan əhalisinin diqqətini cəlb edərək onların rəğbətini qazanmağa çalışmış və göstərmək istəmişdir ki, şahın hörmətini qazanan, onu müdafiə edən hər bir kəs onun mükafatına layiq ola bilər.

Bu fərmanın verilməsində şahın baş vəziri, əslən Ordubaddan, Nəsirəddin Tusi nəslindən olan etimad əd-dövlə (dövlətin dayağı) Hatəm bəy Ordubadinin də rolunu qeyd etmək lazımdır. Tədqiqatçıların fikrincə I Şah Abbas bu fərmanı baş vəziri Hatəm bəy Ordubadinin xahişi ilə imzalamışdır **(Петрушевский И.П., 1949-1, с. 181)**.

Qaynaqlar təsdiq edir ki, Hatəm bəy gəncliyində bir müddət Ordubad şəhərinin kələntəri olmuşdur. Qeyd etmək yerinə düşər ki, I Şah İsmayıl zamanından başlayaraq Ordubad şəhərinin

kələntərləri irsi olaraq Hatəm bəyin mənsub olduğu Nəsirəddin Tusi nəslinin nümayəndələrindən təyin olunurdu. Səfəvilər dövlətinin bütün varlığı ərzində bu qaydaya əməl olunmuş, Ordubad şəhərindən, xüsusilə Nəsirəddin Tusi nəslindən olan adamlar Səfəvi dövlət aparatında mühüm vəzifələr tutmuşlar. Məsələn, Hatəm bəy Ordubadinin vəfatından sonra onun oğlu Əbu-Talib Mirzə saray münşisi, onun oğlu Məhəmməd İbrahim Nəsiri isə divan vəziri olmuşdur. Hatəm bəyin qardaşı Hacı Ədhəm bəyin oğlu Əbdülhüseyn Ordubadi də Səfəvi I Şah Səfi dövründə sarayın baş münşisi olmuşdur **(Baxşıyev Ə., 1990, s. 46)**.

Şəhər haqqında xüsusi fərman imzalayan I Şah Abbas 1606-cı ildə Ordubada gəldi və şəhəri soyurqal (orta əsrlər zamanı hərbi xidmət müqabilində feodal əyanlara bağışlanan torpaq sahəsi) olaraq Hatəm bəy Ordubadiyə bağışladı. Həmin vaxt bölgənin bəzi kəndlərini də gəzən şah növbəti ildə öz tarixçisi İsgəndər bəy Münşi, xanəndə Mövlana Mütribi Qəzvini və ud çalan Heydərqulu Udini də özü ilə birlikdə Ordubada gətirdi. Görünür, Ordubadın iqlimi, füsunkar təbiəti, saf sulu çeşmələri, gözəl bağçaları şahı heyran etmiş və o buraya məxsusi istirahət üçün gəlmişdir **(Onullahi S.M., 1968)**.

Şahın bu səfərini İsgəndər bəy Münşi belə təsvir edir: "Əlahəzrət zilləllah şah Ordubad qəsəbəsinə gedəndə mərhum Hatəm bəyin etimadlı adamları və böyükləri şahın görüşünə gəlib mütilik və sədaqətlə ... öz ümid gözlərini ona dikdilər. O həzrət də onlara iltifat və mərhəmət nəzəri salıb ... onların həmin ürəkaçan yerlərini öz qədəmləri ilə bəzədi. ... Orada şahanə bir məclis quruldu, huri və qılmanlar kimi gələn gül üzlü gözəllərin atəşin və gülgün ruxsarları o behişt misallı məclisi bəzədi, reyhani meylə dolu qədəhlər əllərdə dolanmağa başladı. Onlar bir neçə gün belə şadyanalıq etdilər. Bir neçə gündən sonra padşah Ordubadın görməli yerlərini seyr etmək istədi. ...O yerlərin seyrindən və tamaşasından sonra Ordubada tərəf qayıtdılar və o gözəl yer yenidən humayun padşahın gəlişi ilə İrəm bostanının qibtəsinə

səbəb oldu. ... Şah on gün də gözəl Ordubadda qaldı" **(Bax: Fərzəliyev Ş., 2008, s. 101)**.

Səfəvi ordusunun XVII əsrin əvvəllərində qazandığı hərbi uğurlar Osmanlı imperatorunu ciddi narahat etdiyindən o 1605-ci ildə Sinan paşa Cığaloğlunun başçılığı ilə Səfəvilərin üzərinə böyük bir ordu göndərdi. Osmanlı qoşunlarının hücumundan narahat olan I Şah Abbas bir sıra yaşayış məskənlərindən əhalinin köçürülməsi və həmin yerlərin dağıdılması haqqında əmr verdi. Hücum edən düşməni yaşayış vasitələrindən – ərzaqdan, ot-alafdan və s. məhrum etmək üçün həyata keçirilən bu tədbir Naxçıvan ərazisinə də şamil edilmişdi. Şahın əmri ilə Arazboyu yaşayış məskənlərində yaşayan əhaliyə köçmək üçün bir neçə saat vaxt verilmiş, köçürmə təcili surətdə yerinə yetirilmişdi **(Məmmədov R., 1977, s. 132)**. Maqsud Sultan Kəngərlinin başçılığı ilə Naxçıvan şəhərinin əhalisi əsasən Dizmar və Qaradağ əyalətlərinə köçürülürdü. Mühüm ticarət mərkəzi olan Culfanın əhalisi İsfahana sürgün edildi. Mənbələr şahidlik edir ki, 1605-ci ildə Naxçıvan bölgəsindən 70 minə qədər adam İranın cənub və şərq vilayətlərinə köçürülmüşdü.

Tarixdə "böyük sürgün" adı ilə məşhur olan bu köçürmə zamanı "yandırılmış torpaq", "dağıdılmış torpaq" taktikası tətbiq edilir, əkin sahələri yandırılır, bütün tikililər dağıdılır, yaşayış vasitələri məhv edilir, hətta su mənbələri belə zəhərləndirilirdi. Bütün bunların nəticəsində Naxçıvan ərazisi böyük dağıntılara məruz qalmış, xarabazarlığa çevrilmişdi. Hətta gözəl memarlıq abidələri də dağıdılmış, qaynaqların təsdiq etdiyi kimi, Culfadan Naxçıvana qədər olan ərazidə bir bina da salamat qalmamışdı.

I Şah Abbasın tarixçisi İsgəndər bəy Münşi göstərir ki, bir müddətdən sonra geri qayıdan Şah Abbas bir gün Naxçıvan şəhərində qalmalı oldu. Şəhər o dərəcədə dağıdılmışdı ki, burada şah və onun ətrafındakı əyanlar üçün yemək məhsulları tapmaq mümkün olmamışdı. Ərzaq əldə etmək üçün ətraf yerlərə xüsusi dəstələr göndərilsə də, məlum olmuşdu ki, şəhər və ətrafdakı digər yaşayış məskənləri, əkin sahələri bərbad haldadır və

düşərgə salmaq üçün əlverişli yer yoxdur **(Məmmədov R., 1977, s. 134)**.

Qeyd etmək lazımdır ki, əhalini Naxçıvandan, Culfadan və digər Arazboyu ərazilərdən köçürməklə I Şah Abbas hərbi məqsədlərlə yanaşı, İran vilayətlərinin iqtisadiyyatını canlandırmaq, xüsusən ticarəti inkişaf etdirmək, ipək ticarətinin mərkəzini Culfadan İsfahana keçirmək məqsədini də güdürdü. Həmçinin, tədqiqatçıların yazdığı kimi, Culfadan keçən ticarət yolları Osmanlı imperiyasının ərazisindən keçdiyindən I Şah Abbas bu hərəkətlə Avropa və Asiyaya gedən ipək ticarəti yolunu cənuba çəkmək və İran körfəzi limanları vasitəsilə Osmanlı imperiyasından yan keçərək Afrika ətrafı ilə Avropaya keçirmək istəyirdi. Beləliklə, İran və ingilis tacirlərinin marağını nəzərə alaraq I Şah Abbas Culfa kimi böyük ticarət birjasını yeni karvan yolu ilə İsfahana keçirmək istəyirdi **(Петрушевский И., 1949, с. 278)**.

1673-cü ildə Naxçıvanda olan fransız səyyahı Jan Şardən I Şah Abbasın bu siyasəti haqqında yazır: "Bu incə siyasətçi və böyük kapitan öz qüvvələrinin düşmən qüvvələrinə bərabər olmadığını görərək hər il farsların (türklərin-H.S.) gəlməsinə, orada istilaçılıq etməsinə mane olmaq, onları müvəqqəti də olsa, dayandırmaq üçün vasitələr fikirləşərək, Ərzurum və Təbriz arasındakı yerləri İrəvan və Naxçıvan xətti boyunca səhraya çevirməyi qərara aldı. Adətən türklər bu xətdən keçib gəlir, orada öz ordularını doyuzdurmaq üçün kifayət qədər ərzaq tapır və möhkəmlənirdilər. Buna görə də I Şah Abbas oradan adamları və taxılı daşıtmış, bütün kəndlərə və ağaclara od vurdurmuşdu, hətta bir çox su paylaşdıran kolonkaları zəhərlətmişdi" **(Şardən J., 1994, s. 67)**.

XVII əsrin əvvəllərində baş vermiş bu hadisədən sonra Culfa bir şəhər kimi öz əhəmiyyətini itirdi və onun taleyi bütün yüzillik müddətində faciəli oldu. J.Şardənin qeydlərində oxuyuruq: "Şəhər başdan-başa dağıdılmış və viran edilmişdir. Təkcə böyüklüyü hiss olunur. Bundan başqa heç nə təsəvvür olunmur... bu şəhərdə dörd min ev olmuşdur. İndi xarabalıqlara əsasən

deмək olar ki, bunun yarısına qədər ola bilərdi. Hələ bunların da əksəriyyəti daxmalardan, dağda qazılmış və adamların yaşamasından daha çox sürü üçün yararlı olan mağaralardan ibarətdir. İnanmıram ki, dünyada qədim Culfa kimi daha çox barsız, bəhərsiz və idbar bir yer olmuş olsun" **(Şardən J., 1994, s. 66)**.

I Şah Abbasın həyata keçirdiyi bu siyasətdən sonra Arazboyu yaşayış məskənlərinin yenidən məskunlaşması uzun bir müddət çəkdi. Bu da öz növbəsində iqtisadiyyatın və ticarətin inkişafına öz mənfi təsirini göstərdi. XVII yüzilliyin 60-cı illərində Culfa şəhərinin ancaq şimal-qərb hissəsi məskunlaşmışdı. Onların da sayı çox cüzi idi. Adı çəkilən fransız səyyahı qeyd edirdi ki, 70-ci illərdə orada evlərin sayı 30-dan çox deyildi **(Şardən J., 1994, s. 66)**. Başqa bir fransız səyyahı Jan Batist Tavernye isə xəbər verir ki, bu illərdə culfalıların evi yaşayış evindən çox katakombaya oxşayırdı.

Ancaq qeyd etmək lazımdır ki, Naxçıvan ərazisi üçün böyük fəlakətlər gətirən Səfəvi şahlarının həyata keçirdiyi köçürmə siyasəti onların şəxsi istəklərinin deyil, zamanın obyektiv tələbinin, rəqib qarşısında əyilməmək əzminin nəticəsi idi. Diqqəti cəlb edən cəhət ondan ibarətdir ki, Səfəvi hökmdarları (xüsusilə I Şah Abbas) insan amilinə xüsusi əhəmiyyət vermiş, dövlətin ərazisində yaşayan dinc əhalinin yeni yaşayış yerlərinə köçürülməsi qayğısına qalmışlar. Şübhəsiz ki, həmin tədbirlər nəticəsində Naxçıvanın əhalisi xeyli azalmış, şəhər əski mövqeyini itirmişdi. Səfəvi hökmdarlarının həyata keçirdiyi bu tədbirlər osmanlıların Naxçıvan diyarında möhkəmlənməsinə imkan vermədi **(Nəcəfli T., 2008, s. 94)**.

Qeyd etmək lazımdır ki, I Şah Abbas həyata keçirdiyi bu tədbirlərlə öz məqsədinə nail oldu. Cığaloğlu Sinan paşanın başçılığı ilə Naxçıvan istiqamətində hərəkət edən Osmanlı qoşunları bütün yol boyu böyük çətinliklərlə qarşılaşdılar. Əsgərlər üçün ərzaq, minik və qoşqu heyvanları üçün yem tapmaq müşkül məsələyə çevrildi. Havaların getdikcə soyuması və qışın yaxınlaşması da Osmanlı ordusunun işini çətinləşdirirdi. Ancaq bütün bu

çətinliklərə baxmayaraq, Osmanlı qoşunları Naxçıvana yaxınlaşdı. Cığaloğlu Sinan paşa Ömər ağanın başçılığı ilə Naxçıvan şəhəri üzərinə bir dəstə göndərdi. Bu dəstə heç bir müqavimətə rast gəlmədən xaraba vəziyyətdə olan şəhərə daxil oldu. Bu zaman I Şah Abbas Əmirgünə xanın başçılığı ilə Naxçıvana, Ömər ağanın üstünə qoşun göndərdi. Baş verən döyüşdə Osmanlı qoşunları məğlub edildi. Ömər ağa həlak oldu. Türklərin bir hissəsi əsir alınaraq öldürülmüş əsgərlərin kəsilən başları ilə birlikdə Təbrizə, I Şah Abbasa göndərildi.

Döyüşdən sonra I Şah Abbas Əmirgünə xana Naxçıvanda qalmağı tapşırdı **(Məmmədov R., 1977, s. 136)**. Ərazi 1635-ci ilə qədər, yəni Osmanlı hakimi Sultan IV Muradın buraya hücumunadək Səfəvilərin ixtiyarında oldu. Göstərilən ildə Naxçıvan ərazisi Sultan IV Muradın sərkərdəsi Məhəmməd paşanın qoşunları tərəfindən işğal edildi və dağıdıldı. XVII əsrdə Naxçıvanda olmuş başqa bir fransız səyyahı J.Tavernye həmin hadisələrdən bəhs edərək yazırdı ki, Naxçıvan çox böyük şəhərlərdən biri olmuşdur. O Sultan Murad tərəfindən tamamilə dağıdılmışdır. Orada çoxlu miqdarda gözəl məscidlərin xarabalıqları görünür. Bu məscidlər Osmanlılar tərəfindən dağıdılmışlar. Çünki Məhəmməd təriqətindən olanlar Əli təriqətindən olanların məscidinə girmək istəmirdilər. (Göründüyü kimi, səyyah islam məzhəblərini ayırd edə bilməmiş, sünni və şiə təriqətlərini Məhəmməd və Əli təriqətləri kimi qələmə vermişdir). Başqa məscidləri də müharibələr zamanı osmanlılar və iranlılar bu yolla dağıtmışdılar **(Məmmədov R., 1977, s. 137)**.

Orta əsr qaynaqları bu dövrdə Naxçıvanda baş verən hadisələr haqqında çox maraqlı məlumatlar təqdim edirlər. Fransız səyyahı Jan Batist Tavernye öz səyahətnaməsində yazır ki, İrəvanla Təbrizin arasındakı bütün ərazi, həmçinin Naxçıvan I Şah Abbas tərəfindən tamamilə tarmar edildi. O bunu həmin yerə doğru irəliləyən Osmanlı ordusunun heç bir vəsait tapa bilməməsi məqsədi ilə etmişdi.

Adı çəkilən fransız səyyahı Jan Şardən öz yol qeydlərində Naxçıvan ərazisinin bu dövrdəki vəziyyətinin mənzərəsini yaratmışdır. XVII yüzilliyin 70-ci illərində ərazidə olan səyyah yazır ki, Naxçıvan səksən faiz dağıdılmış böyük bir şəhərdir, yaxud böyük və qeyri-adi viranə topasıdır. ...Şəhərə kənardan baxdıqda I Şah Abbas tərəfindən dağıdılan çoxlu istehkamlar (qalaça) və böyük bir qalanın viranələri görünür. O Naxçıvanı türklərin əlindən aldıqdan sonra qala və istehkamları sökdürmüş, xaraba qoymuş, əhalisini köçürmüşdü. Türklərin möhkəmlənməsinə və ərzaq tapa bilməsinə mane olmaq üçün hər yerdə bu üsuldan istifadə edirdi. Həqiqətən bu şəhər hazırkı vəziyyətinə görə ürək ağrıdan bir obyektdir **(Şardən J., 1994, s. 63)**.

Ancaq 1647-ci ildə Naxçıvanda olmuş türk səyyahı Evliya Çələbinin "Səyahətnaməsi"ndə verdiyi məlumatlar bu fikirlə təzad təşkil edir. Səyyah yazır ki, həmin vaxt Naxçıvan şəhərində 70 came məscidi, 40 məscid, 20 mehmanxana, 7 gözəl hamam və s. olmuşdur **(Çələbi E., 1997, s. 12)**. Görünür, Sultan IV Muradın Naxçıvanı tutmasından 12 il sonra Naxçıvanda olan E.Çələbi təəssübkeşlik edərək onun törətdiyi dağıntılardan söhbət açmamış, "Sultan IV Murad xan ordusu gəlib Mehmet paşa başda olmaqla bu yerləri istila etmişdir" **(Çələbi E., 1997, s. 11)** və "IV Muraddan sonra buranın əhalisi çoxalmış və abadlaşmışdır" **(Çələbi E., 1997, s. 12**) fikirlərini söyləməklə kifayətlənmişdir.

Səfəvilərlə Osmanlılar arasında 1635-ci ildən davam edən müharibə 17 may 1639-cu ildə Qəsri-Şirində bağlanan sülh müqaviləsi ilə başa çatdı. Bu sülh müqaviləsi uzun ömürlü oldu və XVIII əsrin birinci rübünə qədər qüvvədə qaldı. Azərbaycanda, o cümlədən Naxçıvanda sabitlik yarandı. Yaranmış sabitlikdən istifadə edərək ləng də olsa, quruculuq işləri başlandı. XVII əsrin ortalarında və II yarısında Naxçıvan ərazisində olan səyyahlar özlərinin yol qeydlərində əyalətdə gedən abadlıq işlərindən də bəhs etmişlər. Məsələn, 1646-1648-ci illərdə Cənubi Qafqaza ikinci dəfə səyahət edən görkəmli türk səyyahı Evliya Çələbi Qarabağlar şəhərindən bəhs edərkən yazırdı: "Bu yerlərdə Süleyman

xan (Süleyman Qanuni-H.S.) və başqa sərdarlar dəfələrlə qışlağa çıxmışlar. İndi şəhəri orda-burda yenidən tikib abadlaşdırırlar. Bizim xidmətçilər şəhərin içində 40-a qədər minarə saymışdılar... Burada bağ-bağatı və üzümlükləri olan 10 minə qədər ev, 70 mehrab, o sıradan minarəli 40 camiyə vardır. Karvansara, hamam və bazarlar çoxdur. Fəqət onların sayı artmaqda davam edir" **(Evliya Çələbi, 1989, s. 232)**. Fransız səyyahı J.Şardən Naxçıvan şəhərində olarkən onun bərpa olunduğunu görmüş və yazmışdır ki, şəhər yavaş-yavaş məskunlaşır və bərpa olunur. Şəhərin mərkəzi hal-hazırda yenidən qurulmuş və məskunlaşmışdır **(Şardən J., 1994, s. 63)**.

XVII əsrin 70-ci illərində Naxçıvan ərazisində bərk quraqlıq oldu. Bunun nəticəsində məhsul qıtlığı yarandı, əhalinin vəziyyəti daha da pisləşdi. Quraqlığın nəticəsi olaraq baş verən aclıq, taxılın qiymətinin qalxması və s. hökuməti bir sıra tədbirlər həyata keçirməyə məcbur etdi. Naxçıvandan başqa yerlərə taxıl aparılması və satılması qadağan edildi. Görülən tədbirlər heç bir nəticə vermədiyindən, aclıq tüğyan etdiyindən əhalinin narazılığı artır, ac qalmış adamlar kəndlərdən şəhərə axışır, hücum edərək taxıl anbarlarını tutur, ələ keçirilən taxıl bölüşdürülürdü.

Ümumiyyətlə, tez-tez baş verən müharibələr, bu müharibələrin mənfi təsiri və yüzilliyin sonlarına yaxın başlanan təsərrüfat tənəzzülü nəticəsində Naxçıvan ərazisində iqtisadiyyat dağılmış, təsərrüfat pozulmuş, çox gərgin vəziyyət yaranmışdı. Əhali ağır vəziyyətə düşmüşdü. Vəziyyəti çətinləşdirən amillərdən biri də Səfəvilər dövlətinin yuxarı eşelonunda baş verən hərc-mərclik, hakimiyyət böhranı idi. Artıq tənəzzül etməkdə olan Səfəvilər ölkədə vəziyyəti normallaşdırmaq üçün əsaslı tədbirlər həyata keçirə bilmirdilər.

Bütün bunlara görə müvəqqəti yüksəlişə baxmayaraq Naxçıvan ərazisi, xüsusilə ərazinin ən böyük şəhəri olan Naxçıvan öz sabiq əzəmətini və ehtişamını bir daha geri qaytara bilmədi. Təkcə şəhərdəki evlərin və əhalinin miqdarındakı mühüm fərq fikrimizi sübut etmək üçün kifayətdir. Əgər hələ erkən orta əsrlər

dövründə şəhərdə 30 min ev var idisə, XVII əsrin sonlarında bu evlərin sayı 2 mindən artıq deyildi. Bunun əsas səbəblərindən biri əhalinin zorla başqa yerlərə köçürülməsi ilə yanaşı, eyni zamanda başlıca olaraq feodal təsərrüfatının ümumi iqtisadi tənəzzülü olmuşdu **(Nəcəfli T., 2014, s. 158)**.

Bir sıra qaynaqlar təsdiq edirlər ki, XVIII əsrin başlanğıcında Səfəvilər dövlətini ağır siyasi və iqtisadi böhran bürümüş, dövlətin xəzinəsi boşalmış, əhalinin vəziyyəti hədsiz dərəcədə ağırlaşmışdı. Yüzilliyin 20-ci illərində əfqan qəbilələrinin zərbələri nəticəsində dövlət daha da zəifləmişdi. Bu zaman rus ordusunun Xəzər sahili ərazilərə yiyələnmək üçün Rəşt şəhərinə kimi gəlib çıxması Osmanlı imperiyasını ciddi surətdə narahat etmiş, Azərbaycana yiyələnmək üçün 1723-cü ildə hərbi əməliyyatlara başlanmışdı. Bu əməliyyatlar zamanı Naxçıvan ərazisi də hədsiz ziyan çəkmiş, dağıntılara məruz qalmışdı.

Osmanlı ordusu 1724-cü ilin avqustunda Arifi Əhməd paşanın başçılığı ilə hücuma keçərək İrəvan qalasını mühasirəyə aldı. Ona görə də Səfəvi şahı II Təhmasib İrəvan xanı Mustafa xanın köməyinə 30 min nəfərdən ibarət qoşun göndərmək qərarına gəldi. Bu xəbəri eşidən Arifi Əhməd paşa Bəyazid hakimi Mahmud paşaya və Ələşgert bəyi Xəlil bəyə Naxçıvana hücum haqqında əmr verdi. Əmrə əsasən göstərilən istiqamətdə hücum edən Osmanlı ordusu 1724-cü il sentyabr ayının əvvəllərində Naxçıvan şəhərini işğal etdi. Bir neçə gün sonra, sentyabrın 10-da isə Osmanlılar Ordubad şəhəri yaxınlığında naxçıvanlı Mənsur xanın 8 minlik ordusu ilə qarşılaşdı. Təxminən bir saat davam edən döyüşdə Osmanlılar qalib gəldi və bütün Naxçıvan ərazisi tutuldu **(Naxçıvan sancağının müfəssəl dəftəri, 1997, s. 12)**.

Bu hadisədən sonra Naxçıvan ərazisi Osmanlı üsul idarəsinə daxil oldu və orada yeni inzibati ərazi bölgüsü – 14 nahiyədən ibarət Naxçıvan sancağı yaradıldı. İşğal olunmuş yeni ərazilərdə idarə işlərini asanlaşdırmaq və vergi verəcək əhalidən vergilərin nizamlı şəkildə toplanmasını təşkil etmək üçün Osmanlılar bir sıra tədbirlər həyata keçirdilər. Belə tədbirlərdən biri

əhalinin siyahıya alınması oldu. 1727-ci ildə Osmanlılar tərəfindən tərtib olunmuş siyahı – "Naxçıvan sancağının müfəssəl dəftəri" dövrün tarixini öyrənmək üçün ən sanballı mənbələrdən biri hesab olunur **(Naxçıvan sancağının müfəssəl dəftəri, 1997; Naxçıvan sancağının müfəssəl dəftəri, 2001)**.

"Müfəssəl dəftər"dən aydın olur ki, həmin vaxt Naxçıvan sancağında 315 yaşayış məntəqəsi olmuş, orada yaşayan 9788 vergi verən adam (buraya 20 yaşdan yuxarı kişi cinsi daxil idi) xəzinəyə hər il 2.629.059 ağça vergi vermişdir **(Naxçıvan sancağının müfəssəl dəftəri, 1997, s. 8)**.

Naxçıvan sancağının ərazisi indiki Naxçıvan Muxtar Respublikasının ərazisindən xeyli böyük olmuşdur. Bu inzibati-ərazi bölgüsünə indiki Naxçıvan bölgəsinin böyük bir hissəsi ilə birlikdə tarixi Azərbaycan torpaqları olan, ancaq XX yüzilliyin əvvəllərində sovet hökuməti tərəfindən Ermənistana verilən və hazırda Ermənistan Respublikasının tərkibində olan bir sıra rayonların, o cümlədən Əzizbəyov (Paşalı), Yexeqnadzor (Keşişkənd), Cermuk, Sisyan (Qarakilsə), Mehri rayonlarının ərazisi də daxil olmuşdur **(Naxçıvan sancağının müfəssəl dəftəri, 2001, s. 11; Mustafazadə T., 2002, s. 90-91)**. Göründüyü kimi, Naxçıvan sancağının ərazisi kifayət qədər böyük ərazini əhatə edirdi. Qeyd etmək lazımdır ki, həmin vaxt tətbiq olunan inzibati-ərazi bölgüsünə görə indiki Naxçıvan Muxtar Respublikasına daxil olan Şərur və Sədərək rayonları ərazisi Naxçıvan sancağına deyil, İrəvan əyalətinə daxil edilmişdi.

Naxçıvan sancağının müfəssəl dəftərindən aydın olur ki, tədqiqat obyektimiz olan Naxçıvan şəhəri XVIII əsrin 20-ci illərində tipik bir müsəlman şəhəri, hərbi-inzibati, ticarət və sənətkarlıq mərkəzi olmuşdur. 11 məhəlləsi (Qaziyi-cahan (başqa adı Xacə Mirixan), Seyid Hüseyn, Molla Əhməd, Mirzəbəy, Şahab, Günbəz (başqa adı Nuri-Kamandar), Bala, Hacıbəy, Xuzəmərək, Tizxiran, Məhəlleyi-gebran) olan Naxçıvan bəhs olunan dövrdə 2 məhəlləli (Yuxarı və Aşağı məhəllələr) şəhər olmuşdur **(Naxçıvan sancağının müfəssəl dəftəri, 2001, s. 16, 37, 43)**. Bu dövrdə

Naxçıvan şəhərində 3 came (Cameyi Qızıl-Arslan, Cameyi Məhməd-Kətxuda, Cameyi Şərif (bu came Sultan III Muradın şərəfinə ucaldılmışdı)) və 10 məscid (Ağa məscidi, Hacı Xəlil məscidi, Keçəçi məscidi, Hacı Sani məscidi, Bəsri məscidi, Şeyx Əminəddin məscidi, Ətməlik (?) məscidi, İsmayilan məscidi), 5 bazar (Xətib bazarı, Şeytanbazar, Çanaq, Türəngi, Meydan çarşıları), 191 dükan, 26 dəyirman fəaliyyət göstərmişdir **(Naxçıvan sancağının müfəssəl dəftəri, 2001, s. 16-17, 43, 50)**. Şəhər əhalisi 192.676 ağça vergi ödəmişdir **(Naxçıvan sancağının müfəssəl dəftəri, 2001, s. 24, 52)**.

Osmanlı hakimiyyəti dövründə dövlət orqanları onlara xidmət edən yerli feodallarla yanaşı dini idarələrə də torpaq və digər mülklər paylayırdılar. Məsələn, Ordubadda Sultan III Murad məscidinə 150 dükan, 1 hamam və 1 karvansaradan ibarət olan əmlak bağışlanmışdı. Məscidin illik gəliri 27,5 min ağçaya çatırdı. Əgər Osmanlı xəzinəsinin Ordubad nahiyəsindən aldığı gəlirin cəmi 64 min ağçadan ibarət olduğunu nəzərə alsaq bu böyük məbləğ idi **(Mustafazadə T., 2002, s. 89)**.

"Dəftər"in tərtib olunmasından sonrakı illər Səfəvilərin, xüsusilə İran ordusunun baş sərkərdəsi Nadirqulu xanın Azərbaycan torpaqlarını Osmanlılardan geri almaq uğrunda mübarizəsi ilə xarakterikdir. Bu müharibələr zamanı bütün Azərbaycan ərazisi xeyli zərər çəkmiş, ölkə talanmış və viran edilmişdi. Bu dövr hadisələrini əks etdirən ən sanballı qaynaqlardan biri Ordubad bölgəsinin Vənənd kəndindəki məscidin kitabəsidir **(Nemətova M., 1963, s. 139-141; Сафаров Ф., 1987-2, c. 10-11,16)**. Kitabənin əvvəlində məscidin bərpa olunmasından, ölkədəki qıtlıq və bahalıqdan, satışda olan bir sıra məhsulların qiymətindən bəhs edən xəttat daha sonra həmin dövrdə baş verən hadisələrə toxunaraq qeyd edir ki, zəmanə cəhənnəmi andırırdı. Vənənd kəndi və onun ətrafı bir il içərisində üç dəfə talan olmuşdu. Bir çox müsəlman qadın və kişilər öldürülüb və əsir alınmışdı. Digər Allah bəndələri qaçaraq Araz çayını keçib o taydakı kəndlərdə

məskən salmışdılar **(Nemətova M., 1963, s. 139-141; Сафаров Ф., 198-2, с. 10-11, 16)**.

Aparılan müharibələr zamanı Naxçıvan və bütün Azərbaycan ərazisində təsərrüfat pozulmuş, torpaqlar becərilməmiş və nəticədə qəhətlik, aclıq başlanmışdı. Əgər Vənənd məscidinin kitabəsində qeyd edildiyi kimi, 1732-ci ildə buğdanın bir manı 400 dinara satılırdısa, mənbələrin verdiyi məlumata görə, Nadir şahın hakimiyyəti illərində taxılın hər manı 900 dinara satılırdı.

Tədqiqatçıların fikrincə, Azərbaycanda yaranan acınacaqlı vəziyyət 1744 və 1746-cı illərdə daha da pisləşmişdi. 1732-1733-cü illərdə Naxçıvan ərazisində bir man taxılın qiyməti 400 dinar idisə, 1742-ci ildə Təbriz manı ilə buğda ununun qiyməti iki min dinara qalxmışdı. Təbriz manının 3 kq, Naxçıvan manının isə 13 kq olduğunu nəzərə alsaq, aydın olur ki, 1732-33-cü illərdə buğdanın kiloqramı təxminən 30 dinar, 1742-ci ildə isə buğda ununun kiloqramı 666 dinar olmuşdur.

Bütün bunlara baxmayaraq, Nadirqulu xanın keçirdiyi bir sıra uğurlu hərbi əməliyyatlar, Osmanlı əsgərlərini Azərbaycanın bir sıra yerlərindən qovub çıxarması onun xalq arasında və orduda nüfuzunu artırmış, fərasətsiz şah II Təhmasib isə tamamilə hörmətdən düşmüşdü. Ona görə də şah vəziyyəti öz xeyrinə dəyişdirməyə cəhd edərək Naxçıvanı və İrəvanı osmanlılardan geri almaq üçün müharibəyə başladı. Ancaq baş verən döyüşdə o rüsvaycasına məğlub oldu və sülh bağlamaq məcburiyyətində qaldı. 16 yanvar 1732-ci ildə Kirmanşahda bağlanan sülh müqaviləsinə görə bir sıra torpaqlarla birlikdə Naxçıvan ərazisi də Osmanlı Türkiyəsinin əlində qaldı.

Nadirqulu xan 1736-cı ildə şah elan edildikdən sonra Şirvan, Qarabağ, Çuxur-Səd və Təbriz bəylərbəyliklərinin əvəzində mərkəzi Təbriz olan Azərbaycan inzibati- ərazi bölgüsünü yaratdı və qardaşı İbrahim xanı ora hakim təyin etdi. Həmin vaxt Naxçıvanın idarəsi Mirzə Rzaya tapşırılmışdı. Naxçıvan mahalının iri feodalları olan kəngərlilərin bəzi nümayəndələri mərkəzi hakimiyyətə tabe olmaqdan boyun qaçırdıqları üçün Nadir şah onları

Əfqanıstana köçürtdü. Kəngərlilərin bu hərəkəti Nadir şahın onlara inamını və etibarını itirmişdi. Qeyd etmək lazımdır ki, Nadir şah hələ hakimiyyətə keçməmişdən əvvəl də kəngərlilərin tayfa başçılarından şübhələnmişdi. Ona görə də, 1736-cı ildə Muğanda tacqoyma mərasimi keçirərkən oraya Naxçıvan nümayəndəsi kimi həmin vaxt Kəngərlilərin tayfa başçısı olan Vəliqulu xan Kəngərli yox, Mirzə Rza dəvət olunmuşdu **(Əliyev F., Əliyev M., 1996, s. 18)**.

Naxçıvan ərazisində bəhs olunan dövrə aid çox maraqlı müsəlman kitabələri qalmışdır. Ordubad şəhərində qeydə alınmış bir kitabə bu cəhətdən çox əhəmiyyətlidir. Azərbaycanda Nadir şah Əfşarın adı və Hindistana yürüşü qeyd olunan nadir bir qaynaq kimi diqqəti cəlb edən bu kitabə təsdiq edir ki, naxçıvanlılar Nadir şah Əfşarın 1737-ci ildə başlanan və 1739-cu ildə Dehlinin tutulması ilə başa çatan Hindistan yürüşündə iştirak etmişlər **(Сафаров Ф.Я., 1987-2, с. 16)**.

Naxçıvan hakimi Mirzə Rza çox qəddar olduğundan, vergi toplanmasında ciddi qüsurlara yol verdiyindən Nadir şah onu cəzalandırdı və onun yerinə müvəqqəti olaraq Ağa Həsən təyin olundu. Ancaq o da çox zülmkar olduğundan əhali silaha əl ataraq üsyan qaldırdı. Üsyan Nadir şah tərəfindən amansızlıqla yatırılsa da, başqa yerlərdə üsyanların başlanması üçün səbəb oldu.

Kəngərlilərə etibar etmədiyindən Nadir şah Naxçıvan ərazisini idarə etmək üçün buraya iki hakim təyin etdi. Bunlardan birincisi Naxçıvan ölkəsinin hakimi, ikincisi isə Naxçıvan tüməninin hakimi adlanırdı. İkinci hakim həm də Kəngərlilərin tayfa başçısı olmaqla, süvari dəstənin komandiri idi. Həmçinin, Naxçıvan ərazisinin idarə olunmasında vəkillər və tayfa ağsaqqalları da iştirak edirdilər **(Əliyev F., Əliyev M., 1996, s. 18)**.

Belə bir şəraitdə, 20 iyul 1747-ci ildə Nadir şah sui-qəsd nəticəsində gecə, yatağında öldürüldü. Bundan sonra onun zor gücünə yaradılan dövləti tamamilə dağıldı və süqut etdi. Yaran-

mış əlverişli vəziyyətdən istifadə edən Kəngərli tayfa başçısı, nüfuzlu feodal Heydərqulu xan tərəfdarları ilə birlikdə Ağa Həsəni Naxçıvandan qovaraq onun hakimiyyətinə son qoydu və özünü xan elan etdi. Beləliklə, Azərbaycanda yeni bir xanlıq – Naxçıvan xanlığının əsası qoyuldu.

Naxçıvan xanlığı çox böyük bir sahəni – 9428,7 $km^2$ ərazini əhatə edirdi **(Naxçıvan tarixi atlası, 2010, s. 30)**. Xanlıq şimalda Zəngəzur dağlarından, cənubda Araz çayı dərəsinədək, şərqdə Mehri və Qapan (Qafan) da daxil olmaqla qərbdə Şərur və Dərələyəz ərazilərini əhatə edirdi. Naxçıvan xanlığını yaradan və idarə edən Kəngərli xanlarının müstəqil yaşamaları və apardıqları uzaqgörən diplomatiya bölgədə marağı olan qüvvələri razı salmadığından onlar Naxçıvan xanlarını cəzalandırmaq üçün Qapan və Mehri mahallarını Qarabağ xanlığına bağışlamışdılar. Beləliklə, 1747-1797-ci illərdə xanlığın əhatə etdiyi 9428,7 $km^2$ ərazi 1797-ci ildən sonra suni surətdə 4642,83 $km^2$-ə endirilmişdi **(Quliyev M. Naxçıvan xanlığının..., 2013, s. 26)**.

Xanlıq inzibati cəhətdən Əlincə, Xok, Dərələyəz, Ordubad, Əylis, Dəstə, Çənnəb və Biləv mahallarına bölünmüşdü. Bu mahallar hər biri bir neçə kənddən təşkil olunmuşdu. Mahalları mahal bəyləri (mirzəbəyilər), kəndləri kəndxudalar idarə edirdi. Xanlığın mərkəzi Naxçıvan şəhəri idi.

Naxçıvan xanlığı özünün ən yüksək inkişaf mərhələsinə görkəmli dövlət xadimi və diplomat I Kəlbəli xanın dövründə çatmışdı. Fasilələrlə 1787-ci ildən 1820-ciilədək hakimiyyətdə olan I Kəlbəli xan xanlığın müstəqilliyinin qorunub saxlanması üçün çox ağıllı və fəal xarici siyasət yeritmiş, aparılan düzgün daxili siyasət nəticəsində xanlıq iqtisadi cəhətdən xeyli inkişaf etmişdi. Onun dövründə bölgədə abadlıq və quruculuq işləri genişlənmiş, hətta Naxçıvan şəhərində xan ailəsinin yaşaması üçün şərq memarlıq üslubunda, hazırda əhali arasında "Xan sarayı" kimi tanınan möhtəşəm memarlıq abidəsi inşa olunmuşdu **(Naxçıvan abidələri ensiklopediyası, 2008, s. 176; Naxçıvan tarixi, 2014, s. 75-78)**.

Ancaq həyata keçirilən tədbirlərə baxmayaraq xanlığın mərkəzi olan Naxçıvan şəhəri özünün əvvəlki gözəlliyini bərpa edə bilmədi. XVIII əsrin II yarısında Azərbaycanda mövcud olan iqtisadi və siyasi pərakəndəlik Naxçıvanın da inkişafına öz mənfi təsirini göstərmişdi. Bu təsir o qədər böyük olmuşdu ki, Naxçıvan rus qoşunları tərəfindən 1828-ci ildə işğal edildikdən sonra da şəhər öz simasını dəyişdirə bilməmiş, feodal şəhəri olaraq qalmışdır **(Əliyev F., Əliyev M., 1996, s. 36)**. Həmin dövrdə şəhər inzibati cəhətdən 4 məhəlləyə (Əlixan, Şahab, Qurdlar, Sarbanlar) bölünmüşdü. Şəhərin mərkəzində dördkünc bazar var idi. Bu bazarda 3 karvansara yerləşirdi. Dükanların hamısı demək olar ki, bazarda mərkəzləşmişdi. Naxçıvanda adi və memarlıq baxımından sadə, Asiya üslubunda tikilmiş 4 məscid var idi. Şəhər əhalisinə 3 hamam (Şıxəli bəy, Fəzli, Mirzə Əli hamamları) xidmət edirdi **(Əliyev F., Əliyev M., 1996, s. 37)**.

XIX yüzilliyin I qərinəsində baş verən Rusiya-İran müharibələri Naxçıvan xanlığından da yan keçmədi. Birinci Rusiya-İran müharibəsinin (1804-1813-cü illər) gedişi zamanı, 1808-ci ildə Naxçıvan ərazisi rus qoşunları tərəfindən tutulsa da, 1813-cü il Gülüstan müqaviləsinin şərtlərinə əsasən onlar Naxçıvanı tərk etdilər. Lakin İkinci Rusiya-İran müharibəsi (1826-1828-ci illər) başlandıqdan az sonra, 1827-ci ilin iyun ayında Naxçıvan ərazisi rus qoşunları tərəfindən yenidən tutuldu. Beləliklə, müharibənin yekunu kimi Rusiya ilə İran arasında 10 fevral 1828-ci ildə imzalanan Türkmənçay müqaviləsinin şərtlərinə əsasən Naxçıvan xanlığı Ordubad mahalı ilə birlikdə Rusiyaya birləşdirildi **(Azərbaycan tarixi, 1994, s. 579)**.

İstər birinci, istərsə də ikinci Rusiya-İran müharibələrinin gedişi zamanı bütün ərazi kimi Naxçıvan şəhəri də güclü dağıntıya məruz qaldı. Əhalinin bir hissəsi etiraz əlaməti olaraq şəhəri tərk etdi və qonşu ölkələrə qaçdı. Nəticədə şəhərin əhalisi kəskin surətdə azaldı, orada evlərin sayı təxminən yeddi yüzə endi.

İşğaldan sonra Naxçıvanın sonuncu xanlarından olan Ehsan xan Kəngərli Rusiya hakimiyyət orqanları tərəfindən Naxçı-

vanın naibi təyin olundu. Ancaq hakimiyyətinin formal xarakter daşıdığını görən Ehsan xan Rusiya imperatoru I Nikolaya raportla müraciət edərək Kəngərli tayfasının nümayəndələrindən təşkil olunmuş süvari dəstənin komandanı qalmaq şərti ilə naiblikdən imtina etmişdi.

XVIII yüzilliyin ortalarında Azərbaycan dövlətçiliyi tarixində özünəməxsus yeri olan Naxçıvan xanlığının yaranması digər Azərbaycan xanlıqları ilə eyni qanunauyğunluğa malik olsa da, bəzi səciyyəvi xüsusiyyətlərə də malik idi. Bu, xanlığın yaranması ərəfəsində Naxçıvanın idarəsi ilə bağlı idi. Məlumdur ki, Nadir şah Əfşar hakimiyyətə gəldikdən sonra Naxçıvan diyarını onun tərəfindən təyin olunmuş iki hakim ("ölkə" hakimi və süvari bölmələrinin başçısı) idarə edirdi. Hələ Nadir şahın sağlığında onlar arasında başlanan mübarizə şahın qətlə yetirilməsindən sonra daha da qızışmış və mübarizə hərbi rəisin – Kəngərli tayfa başçısı Heydərqulu xanın qələbəsi ilə başa çatmışdı **(Mustafazadə T., 2014, s. 171)**.

Beləliklə, Rusiyanın Naxçıvan bölgəsinə münasibətdəki siyasəti təxminən yarıməsrlik bir dövrdə müxtəlif mərhələlərdən keçərək onun işğalı ilə başa çatdı. Bununla da bütün Şimali Azərbaycan torpaqları kimi, Naxçıvan bölgəsinin tarixində də yeni, ağır Rusiya müstəmləkəçiliyi dövrü başlandı **(Naxçıvan tarixi, 2014, s. 97)**.

# NAXÇIVAN ŞƏHƏRİNİN EPİQRAFİK ABİDƏLƏRİ

Azərbaycanın qədim elm, təhsil və mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan bölgəsində, o cümlədən onun mərkəzi şəhəri olan Naxçıvan şəhəri bir sıra maddi-mədəniyyət nümunələri ilə yanaşı epiqrafik abidələrlə də çox zəngindir. Bu abidələr Azərbaycanda uzun müddət əsas yazı vasitəsi olmuş ərəb əlifbasının müxtəlif xətləri (kufi, süls, nəsx, nəstəliq və s.) ilə ərəb, fars, qarışıq ərəb-fars və Azərbaycan türk dilində həkk edilmiş kitabələrdən, başqa sözlə desək müsəlman epiqrafikası abidələrindən ibarətdir. Bunun isə obyektiv səbəbləri vardır. Məlumdur ki, VII əsrin ortalarından başlayaraq bütün Azərbaycan ərazisi ərəb qoşunları tərəfindən tutulduqdan sonra əhali islam dinini qəbul etdi və ərazidə islam mədəniyyətinin inkişafı üçün şərait yarandı. İslamın Azərbaycanda yayılması və bərqərar olması nəinki Azərbaycan mədəniyyətinin inkişafını ləngitdi, əksinə özünəməxsus mədəniyyətə malik olan bu ölkənin mənəvi həyatında yüksəliş üçün güclü bir stimul oldu, onun mədəni tərəqqisinə yeni təkan verdi. Əvvəllər yaranıb, inkişaf etmiş Azərbaycan mədəniyyəti qazandığı nailiyyətləri ilə birlikdə islam mədəniyyətinin tərkib hissəsinə çevrildi və özünəməxsus xüsusiyyətləri ilə ümumislam mədəniyyəti konteksində inkişaf edərək yeni əxlaqi keyfiyyətlər və dəyərlər kəsb etdi. Artıq bu zamandan etibarən Azərbaycan mədəniyyəti islam mədəniyyətinin bir hissəsi kimi səciyyələndirilməyə başladı. Azərbaycanda yeni mədəniyyət abidələri, o cümlədən məscidlər, mədrəsələr, türbələr, xanəgahlar və s. yaranmağa başladı.

Xilafətin hər yerində olduğu kimi, Azərbaycanda, o cümlədən onun mühüm elm, təhsil və mədəniyyət mərkəzlərindən olan Naxçıvanda da dövlət dili ərəb dili – Quran dili oldu. Həmin dövrdə ərəb dili islam dünyasında latın dilinin Avropada oynadığı rolu oynayırdı. Bu dil yeni dini və mədəni birliyin dili kimi, Quran və şəriət dili kimi Xilafətin bütün ərazilərində bir çox danışıq dillərini və ədəbi dilləri sıxışdırmış, dövlət, elm və təhsil dili kimi qəbul edilmişdi. Ərəb dilinin tez yayılması üçün islamın

ilk dövrlərindən başlayaraq hər yerdə ərəb dilində məktəblər açılırdı. Quranın düzgün qiraəti üçün məscidlərdə məşğələlər keçirilir, ərəb dilinin qayda və qanunları ciddi şəkildə öyrədilirdi. Məhz bunun nəticəsində Yaxın Şərqin, Şimali Afrikanın, Cənubi Avropanın bir hissəsinin, Hindistanın, İranın, Orta Asiyanın və Qafqazın, o cümlədən Azərbaycanın dil xəritəsi dəyişdi. Xilafətin tərkibində birləşdirilmiş xalqların, həmçinin Azərbaycanın qədim mədəniyyətləri hicrətin I əsrindən (VII-VIII əsrlər) etibarən tarixdə ilk dəfə olaraq vahid bir dildə, bütün Yaxın və Orta Şərq xalqlarının oxuya bildiyi və başa düşdüyü ərəb dilində ifadə olunmağa başladı. Görkəmli rus ərəbşünası İ.Y.Kraçkovskinin yazdığı kimi, ərəblərlə birlikdə tarix meydanına təkcə yeni din olan islam deyil, həm də yeni poeziya, yeni dil də daxil oldu.

Bu zamandan başlayaraq Azərbaycan mədəniyyəti islam mədəniyyətinin tərkib hissəsi, onun ötürücüsü və ünsiyyət vasitəsi kimi ərəb dilində inkişaf edir. Ərazidə türk dili danışıq vasitəsi kimi qüvvədə qalsa da, xalq içərisindən çıxmış ziyalılar ərəb dilini də öyrənir, bu dili bilməyi özləri üçün borc və şərəf sayırdılar. Çünki Quran bu dildə oxunur, namaz ərəb dilində qılınırdı. Bu dili ziyalıların öyrənməsini vacib edən şərtlərdən biri də ondan ibarət idi ki, ərəb dilinin köməyi ilə islam dünyasında baş verən hadisələrlə, elm və mədəniyyət nailiyyətləri ilə tanış ola bilirdilər. Həmçinin, dünya ölkələrinin ən gözəl elmi və bədii əsərləri, ərəb dilinə tərcümə edilərək xilafət ərazisində yayılırdı. Ərəb dili bu əsərləri oxumaq üçün bir açar idi. Məhz bu səbəbdən də ərəb dilinin öyrənilməsinə maraq böyük idi.

Həmçinin, Xilafətdə çox incə dil siyasəti yeridilir, ərəb dilini bilməyənlərə heç bir dini və mülki idarələrdə məsul iş tapşırılmırdı. Bu isə ərəb dilinə yaxşı və mükəmməl yiyələnməyi zəruri edirdi. Azərbaycan ziyalılarının özləri də artıq öz əsərlərini bu dildə yazırdılar. Azərbaycandan elə alim və şairlər yetişirdi ki, onlar nəinki ərəb dilinin incəliklərinə yiyələnmişdilər, həmçinin, bu dilin inkişafında müstəsna xidmətləri olmuşdur. Ərəb dili və ərəb əlifbası tədricən xalqın məişətinə daxil olur, ərəb dili ilə

yanaşı təbii ki, ərəb əlifbası da qəbul edilirdi. Məktəb və mədrəsələrdə yazı və oxu işləri bu əlifba ilə aparılır, dövlət idarələrində ondan istifadə edilirdi. Artıq bu zamandan etibarən memarlıq və qəbirüstü xatirə abidələri üzərində ərəb qrafikası ilə yazılmış kitabələr də meydana çıxmağa başlayır və getdikcə genişlənərək kütləvi hal alır.

Görkəmli ərəbşünas V.A.Kraçkovskayanın yazdığı kimi, ərəb dilində ifadə olunan islamın qəbulu qeyri-semit mənşəli bir çox xalqların məişətinə Quranla birlikdə daxil olmuş, ərəb mədəniyyəti genişlənmiş, həmin ərazilərdə ərəb qrafikası da qəbul edilmişdi **(Крачковская В.А., 1935, с. 197)**. Ərəb epiqrafikası abidələri İran, türk, monqol mənşəli xalqlarda belə əmələ gəlmişdir.

Naxçıvan Muxtar Respublikası ərazisində indiyədək müxtəlif tip arxeoloji abidələr, etnoqrafik, numizmatik, antropoloji və s. materiallarla yanaşı çoxlu sayda müsəlman epiqrafikası abidələri də gəlib çıxmışdır. Zaman keçdikcə bu abidələrin bir qismi baş verən təbii fəlakətlər (zəlzələlər, daşqınlar və s.), müharibələr, yanğınlar və s. nəticəsində məhv olmuşdur. Əsasən açıq havada olduqları üçün kitabələrin böyük bir hissəsi isə təbii qüvvələrin (yağış, qar, külək, isti, soyuq) təsirindən aşınaraq sıradan çıxmışdır. Onların müəyyən bir qrupu isə zəmanəmizədək tamamilə salamat, yaxud orta və yaxşı vəziyyətdə qalmışdır. Qeyd etmək lazımdır ki, əlyazmalar sonradan üzü köçürülərkən müəyyən təhriflərə məruz qalsalar da, bu kitabələr nadir hallar istisna olmaqla, yarandığı dövrdə necə olmuşdursa günümüzədək elə, olduğu kimi, təhrif olunmadan gəlib çatan mənbələrdəndir.

Tədqiqatçılar tərəfindən "kiçik mənbələr" **(Рыбаков В.А., 1964, с. 5)**, "əsrlərin daş yaddaşı" **(Nemətova M., 1987)** kimi qiymətləndirilən, dəqiq və mübahisə doğurmayan faktlarla zəngin olan bu abidələr tədqiqatçılara daim yeni, heç bir mənbədən məlum olmayan dəyərli faktlar təqdim edirlər. Onlar digər qaynaqlarla birlikdə orta əsr tarix və mədəniyyətimizin bir sıra problemlərinin obyektiv, dərindən və hərtərəfli araşdırılmasında

müstəsna rol oynayırlar. Kitabələrdə əks olunan faktlar bir sıra mühüm tarixi məsələlərin aydınlaşdırılmasında xüsusi əhəmiyyətə malik olduqları kimi, tarix-mədəniyyət, memarlıq abidələrinin təyinatı, inşa tarixi, sifarişçisi, memarı, yaşayış məskənlərinin və qəbiristanlıqların dövrü, orta əsrlər zamanı bölgədə yaşamış görkəmli şəxsiyyətlərin adı, atasının adı, dəfn olunduğu yer, daşıdığı titullar, onların yaşadığı dövrün ictimai-siyasi və mədəni həyatında tutduğu mövqe, mənsəb və s. haqqında da dəqiq və müfəssəl məlumatlar təqdim edirlər.

Bölgədən toplanılan çöl materialları və tədqiqatçıların məlumatları təsdiq edir ki, islamın qəbulundan sonrakı ilk dövrlərdən başlayaraq Naxçıvan bölgəsində müsəlman epiqrafikası abidələri meydana gəlmişdir. Zaman keçdikcə bu kitabələrin çoxu təbii və s. qüvvələrin təsirindən aşınmış, məhv olmuş, zəmanəmizədək gəlib çatmamışlar. Ancaq həmin kitabələrdən bəzi nümunələr XIX yüzillikdə və XX yüzilliyin əvvəllərində tədqiqatçılar tərəfindən qeydə alınaraq tədqiq olunmuşlar.

## Yusif Küseyr oğlu türbəsinin kitabələri

Naxçıvan bölgəsində müsəlman intibahı dövrünə aid bir neçə kitabə gəlib çatmışdır. Müsəlman epiqrafikası elminin nailiyyətləri kimi Dünya mədəniyyəti tarixinə daxil olmuş bu kitabələrin ən qədimi Naxçıvan şəhərinin cənub tərəfində əzəmətlə ucalan, görkəmli Azərbaycan memarı, Azərbaycan memarlığının ən möhtəşəm qollarından olan Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Əbubəkr oğlu Naxçıvani yadigarı Yusif Küseyr oğlu türbəsinin inşa tarixini əks etdirən hicri 557, miladi 1162-ci ilə aid kitabədir.

Orta əsrlər zamanı, xüsusilə Azərbaycan Atabəylərinin paytaxtı olarkən və sonrakı dövrlərdə Naxçıvan şəhəri yüksək dərəcədə inkişaf etmişdi. Həmin vaxt şəhər Azərbaycanın ən mühüm elm, təhsil və mədəniyyət mərkəzlərindən birinə çevrilmişdi. Heç də

təsadüfi deyildir ki, məhz həmin vaxtlar Azərbaycan memarlığının ən möhtəşəm qollarından olan Naxçıvan məktəbi formalaşmağa başlamışdı. Bu məktəbin ən gözəl abidələri də Naxçıvan şəhərində inşa edilmişdi. Belə abidələrdən biri Naxçıvan şəhərinin cənub-şərq tərəfində, Şahab məhəlləsində yerləşən və el arasında "Atababa günbəzi" adı ilə məşhur olan türbədir (şəkil 1). Yeraltı sərdabədən və yerüstü türbədən ibarət olan abidə zəmanəmizədək əsasən salamat vəziyyətdə gəlib çatmışdır. Daxildən və xaricdən səkkizguşəli şəkildə ucaldılan türbə piramida şəkilli günbəzlə örtülmüşdür. Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Naxçıvaninin qüdrətli barmaqlarının məhsulu olan abidə Azərbaycanın qülləvari türbələri içərisində yeganə abidədir ki, üst piramida örtüyü yaradılmasından 855 il keçməsinə baxmayaraq zəmanəmizədək tamamilə salamat vəziyyətdə gəlib çatmışdır. Bu da memar Əcəmi Əbubəkr oğlu Naxçıvaninin yüksək məharətinin və mühəndislik qabiliyyətinin nəticəsi kimi diqqəti cəlb edir.

Türbə inşa edilərkən onun üzərində çoxlu kitabələr yazılmışdır. Kufi xətlə yazılmış bu kitabələr bir çox səyyah və tarixçilərin diqqətini cəlb etmişdir. Türbənin üzərindəki kitabələri vaxtilə N.Xanıkov, V.Minorski, M.Hartman, İ.Əzimbəyov və Ə.Ələsgərzadə, S.Kərimzadə, sonralar isə M.Nemət oxumuşdur. Qeyd etmək yerinə düşər ki, əvvəlki tədqiqatçıların oxunuşunda səhvlər və təhriflər olmuşdur. Tarix üzrə fəlsəfə doktoru Ə.Ələsgərzadə onların səhvlərini düzəldərək ilk dəfə kitabələrin düzgün oxunuşunu həyata keçirmişdir.

Zəmanəmizədək əsasən salamat vəziyyətdə gəlib çatan məqbərənin giriş qapısının baş tərəfində 4 sətirdə belə bir kitabə vardır. Kitabənin mətninin tərcüməsi belədir: "Bu məqbərə xacə, tanınmış rəis, mömin, islamın gözəlliyi, şeyxlərin başçısı Yusif Küseyr oğlunundur. Şəvval, beş yüz əlli yeddinci il tarixdə" **(Алескерзаде А.А., 1947, с. 371)**.

Şəvval 557 h.i. = 13.09 – 11.10. 1162-ci il.

Məqbərənin kitabəsini tədqiq edən tədqiqatçılardan N.V.Xanıkov bir sıra səhvlərlə bərabər "Küseyr" sözünü "Kəbir", İ.Əzimbəyov "Ketr", V.Minorski isə "Kəsir" kimi oxumuşdur.

Məqbərənin frizində (qurşağında) isə Qurani-Kərimin III surəsindən 15-17-ci ayələr (15. (Ya Rəsulum!) Söylə: "Sizə bunlardan (dünya zinətlərindən) daha yaxşısını xəbər verimmi? Allahdan qorxub pis əməldən çəkinənlər üçün Rəbbi yanında (ağacları) altından çaylar axan cənnətlər (bağlar) vardır ki, orada əbədi qalacaqlar. Onlardan ötrü orada (hər cür eyibdən) pak olan zövcələr və (ən böyük nemət olan) Allah rizası (hüsn-rəğbəti) vardır. Allah, həqiqətən, bəndələrini görəndir! 16. O bəndələr ki: "Ey Rəbbimiz, biz, həqiqətən, (Sənə) iman gətirmişik, günahlarımızı bağışlayıb bizi cəhənnəm əzabından qoru" – deyirlər. 17. Onlar (müsibətlərə) səbr edən, (sözlərində və işlərində) doğru olan, (Allaha) itaət edən, mallarından fəqirlərə verən və sübh vaxtı (Allahdan) bağışlanmaq diləyənlərdir (sübh namazına qalxanlardır") **(Qurani-Kərim, 2015, s. 50-51)** və 112-ci surə (Bismilləhir-rahmənir-rahim! 1. (Ya Peyğəmbər! Allahın zatı və sifətləri haqqında səndən soruşan müşriklərə) de: "(Mənim Rəbbim olan) O Allah birdir (heç bir şəriki yoxdur); 2. Allah (heç kəsə, heç nəyə) möhtac deyildir! (Hamı Ona möhtacdır; O əzəlidir, əbədidir!) 3. O, nə doğmuş, nə də doğulmuşdur! (Allah Özünə heç bir övlad götürməmişdir!) 4. Onun heç bir tayı-bərabəri (bənzəri) yoxdur!") **(Qurani-Kərim, 2015, s. 604)** yazılmışdır **(Алескерзаде А.А., 1947, с. 372)**.

Məqbərənin ikinci tağı üzərində belə bir kitabə yazılmışdır: "Bənna Əcəmi Əbubəkr oğlu Naxçıvaninin əməlidir" **(Алескерзаде А.А., 1947, с. 372)**.

Kitabədən görünür ki, türbə Yusif Küseyr oğlunun xatirəsinə onun qəbri üzərində, 1162-ci ildə Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən inşa edilmişdir. Digər qaynaqlarda Yusif Küseyr oğlu haqqında bizə qədər məlumatlar gəlib çatmadığı üçün onun şəxsiyyəti haqqında tam aydın təsəvvür yaratmaq mümkün

deyildir. Ancaq kitabənin verdiyi bəzi məlumatlar onun haqqında müəyyən fikir söyləməyə imkan verir.

Yusif Küseyr oğlu kitabədə "xacə, ər-rəis əl-əcəl" ("xacə, tanınmış rəis") titulları və bir sıra epitetlərlə ("mömin", "islamın gözəlliyi", "şeyxlərin başçısı") təqdim olunmuşdur. Orta əsrlər zamanı "Xacə" titulu ilə böyük tacirlərə, görkəmli alimlərə müraciət edilirdi. Bu titulu daşıması onun tacirlər gildiyasının başçısı, tanınmış alim, "rəis" titulu isə Atabəylər dövlətinin paytaxtı olarkən Naxçıvan şəhərinin rəisi – rəhbəri olduğunu göstərir. Eldənizlərin hakimiyyəti (1136-1225-ci illər) dövründə şəhərləri hökmdarın müavini sayılan valinin adından idarə edən rəislər bir qayda olaraq yerli, tanınmış nəsillərdən seçilirdi. Şəhərlərin ətrafında yerləşən mahal və kənd rəisləri, həmçinin, şəhər və mahalda təhlükəsizlik və sakitliyə cavabdeh olan axtarış rəisləri ona tabe idi **(Bünyadov Z.M., 1985, s. 182)**. Göründüyü kimi Yusif Küseyr oğlunun tutduğu şəhər rəisi vəzifəsi kifayət qədər nüfuzlu idi.

Kitabədə adına əlavə edilən "Şeyxlərin başçısı" sözləri isə Yusif Küseyr oğlunun mühüm dövlət vəzifəsi tutmaqla bərabər, həm də həmin vaxt Naxçıvan şəhərində yaşayan ali ruhani təbəqəsinə və şəhərdə fəaliyyət göstərən müxtəlif sufi təriqətlərinə mənsub xanəgahların başçılarına, rəhbər-şeyxlərinə rəhbərlik etdiyini göstərir.

## Möminə xatın türbəsinin kitabələri

Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Əbubəkr oğlu Naxçıvani Azərbaycan Atabəyləri (Eldənizlər) dövlətinin, eyni zamanda Naxçıvan şəhərinin baş memarı olmaq etibarı ilə özünün ən möhtəşəm abidələrini də bu şəhərdə, onun mərkəzində ucaltmışdır. Şəhərin mərkəzində inşa edilmiş bir sıra abidələr, o cümlədən Eldənizlər sarayı, dövlətxana (darül-Mülk), Came məscidi, Qoşa minarəli baştağ, mədrəsə, xanəgah, bizə məlum

olmayan başqa tikililər bir memarlıq ansamblı yaratdığından bu ərazi memarlıq ədəbiyyatında Atabəylər memarlıq kompleksi kimi dəyərləndirilir.

Atabəylər memarlıq kompleksinə daxil olan həmin memarlıq nümunələrindən zəmanəmizədək yalnız biri, yerli əhali arasında bəzən "Atabəy günbəzi", yaxud da "Atabəy türbəsi" adlandırılan Möminə xatın türbəsi gəlib çatmışdır. Naxçıvan şəhərinin mərkəzində, hazırda "Əcəmi seyrəngahı" adlanan ərazidə əzəmətlə ucalan Möminə xatın türbəsi də Yusif Küseyr oğlu türbəsi kimi yeraltı (sərdabə) və yerüstü (türbə) hissədən ibarətdir (şəkil 2). Daxildən dairəvi quruluşda olan abidə xaricdən on üzlüdür. Yarandığı zaman hündürlüyü təxminən 35 metr olan türbənin yuxarı hissəsi zaman keçdikcə təbii qüvvələrin təsirindən aşınaraq uçub dağılmış, indiyədək yalnız 25 metr hündürlüyündə gövdə qalmışdır.

Türbənin gövdəsi kufi xətlə yazılmış kitabələrlə və həndəsi ornamentlərlə nəfis şəkildə bəzədilmişdir. Ornamentlərinin gözəlliyi, nəfisliyi, təkmilliyi, kitabələrinin zənginliyi ilə seçilən və digər abidələri bu cəhətdən geridə qoyan türbənin kitabəsi həm də Naxçıvan şəhərində və bölgədə qədimliyinə görə Yusif Küseyr oğlu türbəsinin kitabəsindən sonra bizə qədər gəlib çatan ikinci ən qədim kitabədir. Əcəmi Əbubəkr oğlu Naxçıvani yaradıcılığının məhsulu olan Möminə xatın türbəsinin inşa ilini bizə çatdıran kitabə 1186-cı ilə aiddir.

Möminə xatın türbəsinin frizində (qurşağında) göy kaşılı kərpiclərlə, hündürlüyü 90 santimetrdən artıq olan kufi xətlə kitabə yazılmışdır. Zəmanəmizədək bir hissəsi aşınaraq məhv olsa da, çox hissəsi salamat vəziyyətdə gəlib çatan kitabənin mətninin tərcüməsi belədir: "Mərhəmətli və rəhmli Allahın adı ilə! Bu məqbərənin tikilməsini müdrik hökmdar, ədalətli, qalibiyyətli, möhkəmlənmiş, böyük Şəmsəddin Nüsrət əl-islam vəl-müslimin Cahan Pəhləvan Atabəy Əbu Cəfər Məhəmməd ibn Atabəy Eldəniz dünyanın və dinin şöhrəti, islamın və müsəlmanların şərəfi Möminə xatının [xatirinə] – uca Allah ona rəhm etsin! – əmr etdi.

Biz gedirik ancaq qalır ruzigar, Biz ölürük, əsər qalır yadigar! İlahi, bəd nəzərdən uzaq elə!" **(Алескерзаде А.А., 1947, с. 373)**.

Kitabənin mətnində Azərbaycan Atabəyləri dövlətinə rəhbərlik etmiş iki görkəmli hökmdarın adı qeyd edilmişdir. Bunlardan birincisi Azərbaycan Atabəyləri (Eldənizlər) dövlətinin banisi və ilk hökmdarı Şəmsəddin Eldənizdir. Kitabədə Atabəy Məhəmməd Cahan Pəhləvanın atası kimi təqdim olunan Şəmsəddin Eldənizin adı "Atabəy Eldəniz" kimi qeyd olunmuşdur.

Mənşəcə Qıpçaq türkü olan və qul kimi Həmədanda Səlcuq sultanı Mahmudun vəziri tərəfindən satın alınan Şəmsəddin Eldəniz vəzirin ölümündən sonra sultanın xidmətinə keçmişdir. O qısa müddətdə özünün qabiliyyəti, fərasəti, xüsusi ilə hərbi işdən baş çıxarması, yaxşı at çapması, ox atması və s. keyfiyyətləri ilə diqqəti cəlb edir və Sultan Mahmudun vəfatından sonra onu əvəz edən yeni sultan II Toğruldan "Əmir" titulu alır. Sultan onu oğlu Arslanşahın atabəyi təyin edir.

1135-ci ildə hakimiyyətə keçən sultan Məsud Şəmsəddin Eldənizi sultan II Toğrulun dul qalmış arvadı Möminə xatınla evləndirir. Bu izdivacdan sonra onun Möminə xatından Atabəy Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslan adlı iki oğlu və bir qızı dünyaya gəlir.

Bu dövrdə Səlcuq sultanları hərbi iqta sistemi yaratmışdılar. Bu sistemə əsasən sadiq qoşun başçılarını belə torpaq payları – iqta ilə təmin edirdilər. Nəticədə bütün sultanlığın ərazisi tabeliyində on minlərlə hərbçi olan hərbi sərkərdələrin – əmirlərin arasında bölüşdürülmüşdü. Şəmsəddin Eldəniz də belə əmirlərdən biri idi. Arran (Bərdə) 1136-cı ildə Sultan Məsud tərəfindən iqta kimi ona verilmişdi. Bərdədə özünə ilkin iqamətgah yaratmış Şəmsəddin Eldəniz Arranın böyük bir hissəsini, o cümlədən Naxçıvanı öz idarəsində saxlayan Qara Sunqurun, sonra isə onu əvəz edən Əmir Çavlının 1146-cı ildə vəfatından istifadə edərək Şirvanı və Naxçıvanı ələ keçirdi və iqamətgahını Naxçıvana köçürdü **(Qacar Ç., 1997, s. 61; Naxçıvan ensiklopediyası, 2005-2, s. 302)**.

Dövlətin ərazisini genişləndirmək, qüdrətini artırmaq üçün fəal daxili və ehtiyatlı xarici siyasət yeridərək Şəmsəddin Eldəniz ölkəni inkişaf etdirmiş, nəticədə Azərbaycanda şəhər həyatı yeni çiçəklənmə dövrünə qədəm qoymuşdu. Yüksək inkişaf səviyyəsində olan Naxçıvan şəhəri bir müddət dövlətin paytaxtı olmuşdu. Onun dövründə, 1162-ci ildə paytaxt Naxçıvanda şəhər rəisi və şeyxlərin başçısı Yusif Küseyir oğlunun xatirəsinə türbə inşa edilmişdi. Arvadı Möminə xatının 1175-ci ildə vəfatından sonra Şəmsəddin Eldənizin əmri ilə onun qəbri üzərində möhtəşəm məqbərə inşa edilməsinə başlandı. Ancaq qısa müddət, bir ay sonra Şəmsəddin Eldəniz özü də dünyasını dəyişdiyi üçün (rəbiəs-səni 571/19.10.16.-11.1175-ci il) məqbərənin tikintisini oğlu Atabəy Məhəmməd Cahan Pəhləvan həyata keçirdi. Türbənin inşası görkəmli Azərbaycan memarı Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən 1186-cı ildə başa çatdırıldı **(Vəlixanlı N., 2015, s. 95).** Bəzi tədqiqatçıların fikrincə, Şəmsəddin Eldənizin özü də arvadının yanında, Möminə xatın türbəsinin sərdabəsində dəfn olunmuşdur.

Kitabədə adı qeyd olunan ikinci hökmdar Atabəy Məhəmməd Cahan Pəhləvandır. O Atabəy Şəmsəddin Eldənizin böyük oğlu, Azərbaycan Atabəyləri (Eldənizlər) dövlətinin ikinci hökmdarıdır. Onun adı XII yüzilliyin II yarısında Naxçıvan şəhərində yaradılmış Atabəylər memarlıq kompleksinə daxil olan Möminə xatın türbəsinin və kompleksə giriş rolunu oynayan qoşa minarəli baştağın (şəkil 2, 3) kitabələrində əks olunmuşdur **(Алескерзаде А.А., 1947, с. 373, 378)**. Məhəmməd Cahan Pəhləvanın adı kitabədə Cahan Pəhləvan Atabəy Əbu Cəfər Məhəmməd ibn Eldəniz, Qoşa minarəli baştağın kitabəsində isə Əbu Cəfər Məhəmməd ibn Atabəy Eldəniz kimi qeyd olunmuşdur.

Uşaqlıq və gənclik illərində mükəmməl təhsil alan, hərbi işi, dövlət idarəçiliyini, xarici siyasət məsələlərini dərindən mənimsəyən Məhəmməd Cahan Pəhləvan anası Möminə xatının Sultan Toğruldan olan oğlu, anabir qardaşı Arslanşahın 1161-ci ildə hakimiyyətə gəlişindən sonra sultanlıqda vəzirdən sonra

üçüncü vəzifə olan “hacib” vəzifəsinə təyin olunmuşdu. Buna görə də Həmədanda sultan sarayında yaşayaraq böyük nüfuz qazanmışdı. 1175-ci ildə atası Şəmsəddin Eldənizin vəfatı ilə əlaqədar təcili Naxçıvana gəlmiş, dövlət xəzinəsinin və taxt-tacın əmlakını, eləcə də bütün ordunu nəzarəti altına almışdı **(Naxçıvan ensiklopediyası, 2005-2, s. 16)**.

1175-1186-cı illərdə hakimiyyətdə olan Məhəmməd Cahan Pəhləvan dövləti gücləndirmək, qüdrətini artırmaq sahəsində çox mühüm tədbirlər həyata keçirir. Yeritdiyi ağıllı xarici siyasət nəticəsində qonşu ölkələrlə dostluq münasibətləri yaradılır, ölkəyə xarici müdaxilələrin qarşısı alınır. Ümumiyyətlə, onun dövründə Atabəylər dövləti özünün çiçəklənmə dövrünü keçirir, dövlət daha da möhkəmlənir, atabəylərin hakimiyyəti sabitləşir.

Atabəy Məhəmməd Cahan Pəhləvanın dövründə dövlətin ərazisi çox geniş idi. Bu əraziləri o hələ sağlığında ikən 4 oğlu arasında bölmüşdü. Azərbaycan və Arran türk qızı Qüteybə xatından olan oğlu və varisi Əbu Bəkrə, Rey, İsfahan və İraqın bir hissəsi İnanc xatından olan oğlanları Qutluğ İnanc Mahmud və Əmir Əmiran Ömərə, Həmədan vilayəti isə adı məlum olmayan kənizdən olan oğlu Müzəffərəddin Özbəyə verilmişdi. Qızı Cəlaliyə sonralar Naxçıvanı idarə etmişdi **(Vəlixanlı N., 2015, s. 99).**

Qaynaqlarda, o cümlədən adı çəkilən kitabələrdə xoş xasiyyətli, adil, ədalətli, alim, müdrik və səbrli hökmdar kimi səciyyələndirilən Atabəy Məhəmməd Cahan Pəhləvan həm də fövqəladə gücə malik olmuşdur. Bu günə qədər də xalq arasında atası Şəmsəddin Eldənizin Novruz bayramı şənliklərində keçirdiyi güləş yarışlarında onun həmişə qalib çıxması barədə fikirlər dolaşmaqdadır. Gənc Məhəmməd üst-üstə qoyulmuş dörd mis təbəqəsini dürmək kimi bükür, bir neçə nalı eyni zamanda əli ilə əyməyi, bir yumruğu ilə atı aşırmağı, öküzü götürüb hasardan atmağı belə bacarırdı. Bu qeyri-adi qüvvəsinə görə onu el arasında “Cahan Pəhləvan”, yəni “Dünyanın pəhləvanı”, bəlkə də çağdaş anlamda “Dünya çempionu” adlandırmışdılar **(Qacar Ç., 1997, s. 112)**.

Atabəy Məhəmməd Cahan Pəhləvan 1186-cı ildə Həmədanda vəfat etmiş və orada dəfn olunmuşdur. Ancaq onun da atası Şəmsəddin Eldəniz kimi Naxçıvan şəhərində, Mömünə xatın türbəsinin sərdabə hissəsində anasının yanında dəfn olunması haqqında fikirlər vardır.

Mömünə xatın türbəsinin portalının çərçivəsi üzərində belə bir kitabə gəlib çatmışdır: "Tarix: məhərrəm, beş yüz səksən ikinci il" **(Алескерзаде А.А., 1947, с. 376-377)**.

Məhərrəm 582 h.i. = 24.03 – 23.04. 1186-cı il.

Portalın digər çərçivəsində yazılan kitabədə isə memar öz adını təqdim etmişdir: "Bənna Əcəmi Əbubəkr oğlu Naxçıvaninin əməlidir" **(Алескерзаде А.А., 1947, с. 377)**.

On tağlı məqbərənin tağları boyunca Qurani-Kərimin 36-cı (Yasin) surəsi haşiyə şəklində iki dəfə – birinci dəfə 1-5-ci tağlarda, ikinci dəfə isə 6-10-cu tağlarda yazılmaqla iki dəfə (I və VI üzlərdə 1-17-ci, II və VII üzlərdə 18-34-cü, III və VIII üzlərdə 35-49-cu, IV və IX üzlərdə 50-67-ci, V və X üzlərdə isə 68-83-cü ayələr) təkrar olunmuşdur.

Məqbərənin tağlarının baş tərəfində Qurani-Kərimin 10 dəfə təkrar olunan bu ayəsi yazılmışdır: "Hakimiyyət vahid, qadir Allaha məxsusdur".

Son bərpayadək məqbərənin daxilində, bir neçə metr yüksəklikdə qurşaq şəklində yazılan kitabənin izləri qalmışdı. Kitabənin mətnindən qalan bəzi sözlərə əsasən tarix üzrə fəlsəfə doktoru S.Kərimzadə həmin kitabənin bəzi sözlərini oxumuş və onun Qurani-Kərimin "Bəqərə" surəsinin 255-ci ayəsi – "Ayət əl-Kürsi" olduğu fikrinə gəlmişdir.

Mömünə xatın türbəsinin interyerində, daxili günbəzin səthində diametri təxminən 1,5 metr olan dörd ədəd dairəvi qönçə (medalyon) vardır. Onlar günbəzin şimal, cənub, şərq və qərb tərəflərindədir. Günbəzin zirvəsindəki qalıqlara əsasən burada beşinci bir qönçənin (medalyonun) olduğunu da ehtimal etmək olar. Qeyd etmək lazımdır ki, bəzi tədqiqatçılar onları medalyon, bəziləri qönçə, bəziləri isə monoqramma adlandırmışdır.

Möminə xatın türbəsinin kitabələrini tədqiq edən alman alimlərindən E.Yakobstal və M.Hartman qönçələr və onların üzərində həkk edilən kitabələr haqqında heç bir fikir söyləməmiş, İ.Əzimbəyov isə onların ikisi haqqında bəhs etmiş və onların birində Qurani-Kərimin "Fatihə", digərində isə "İxlas" surələrinin yazıldığını qeyd etmişdir.

1939-40-cı illərdə türbə tədqiq edilərkən qönçələrin foto-şəklini çəkmək mümkün olmuşdur. Türbə haqqında danışan memar S.M.Vahidov və başqaları öz tədqiqatlarında yazırdılar ki, türbənin interyerini yeganə bəzəyən kitabələr və ornamentlə örtülmüş dörd böyük medalyondur. ...Bu medalyonların tədqiqi, ...şübhəsiz abidənin tarixini aydınlaşdıran əlavə məlumatlar verəcəkdir. Epiqraf Ə.Ələsgərzadə isə yazır ki, "bu medalyonların daxilində hər hansı bir kitabənin varlığını çəkilmiş fotolara əsasən müəyyənləşdirmək mümkün deyildir".

1956-cı ildə türbədə aparılan bərpa işləri zamanı bu qönçələrin foto-şəkilləri yenidən çəkilmişdir. Sənətşünas, akademik Ə.V.Salamzadə həmin şəkillərə əsasən onların üzərində islam peyğəmbərindən sonrakı dörd xəlifənin və memarın adının şifrələnməsi fikrini irəli sürmüşdür. Sonralar həmin foto-şəkillər əsasında və digər abidələrdəki qönçələrin (Soltaniyyə, Olçaytu) təhlilinə əsasən bu qönçələr üzərindəki kitabələri Ə.V.Salamzadə **(Salamzadə Ə., 1984)**, t.e.n. S.Kərimzadə **(Kərimzadə S., 1967)**, sonralar isə M.Nemət **(Неймат М., 2001, с. 52-57)** tədqiq etmişdir.

Məlum olmuşdur ki, birinci qönçədə Məhəmməd peyğəmbərin adı səkkiz dəfə təkrarlanmışdır. İkinci qönçənin mərkəzini beş guşəli ulduz yaradır. Ulduzun kənarları ardıcıl olaraq bu sözləri təkrar edir: "Məhəmməd, Əbu Bəkr, Ömər, Osman, Əli".

Üçüncü qönçədə isə səkkiz ad (Məhəmməd, Əbu Bəkr, Ömər, Osman, Əli, Həsən, Hüseyn). Səkkizinci adı müəyyənləşdirmək hələ mümkün olmamışdır. Bu ehtimal ki, peyğəmbərin qızı Həzrəti Fatimənin adıdır. Dördüncü qönçədə isə Məhəmməd

peyğəmbərin və dörd xəlifənin adı qeyd olunmuşdur: “Əbu Bəkr, Ömər, Osman, Əli”.

Qönçələrin hamısının mərkəzində yazılış formalarında kiçik fərqlər olan “Allah” sözü yerləşdirilmişdir.

Kitabədə adı qeyd olunan və xatirəsinə belə möhtəşəm bir abidə ucaldılan Mömünə xatının şəxsiyyəti haqqında müxtəlif fikirlər vardır. Bəzi tədqiqatçılar bu qadının Şəmsəddin Eldənizin arvadı, Atabəy Məhəmməd Cahan Pəhləvanın anası olması fikrini irəli sürmüşlər. Bir sıra tədqiqatçılar isə Mömünə xatının Şəmsəddin Eldənizin gəlini, Atabəy Məhəmməd Cahan Pəhləvanın arvadı olması fikrində israrlı olmuşlar. Ona görə də akademik Ziya Bünyadov hər iki fikrin tərəfdarlarının istinad etdikləri qaynaqları və yeni mənbələri müqayisəli təhlil edərək belə bir fikrə gəlmişdir ki, Mömünə xatın Şəmsəddin Eldənizin arvadı, Atabəy Məhəmməd Cahan Pəhləvanın və Qızıl Arslanın anası olmuşdur. Akademik Ziya Bünyadov yazır: “Atabəy Eldəniz ölümündən bir az əvvəl öz qadını Mömünə xatının (alim qeyd edir ki, Atabəy Eldənizin arvadının adı məhz belə idi. Cahan Pəhləvanın arvadları Zahidə xatın, İnanc xatın və Quteybə xatın idi) qəbri üzərində məqbərə tikdirməyə başladı, ancaq onun tikintisi yalnız Atabəy Cahan Pəhləvanın vaxtında, 582-ci ilin məhərrəmində (aprel, 1186-cı il) başa çatdı. ...Böyük Atabəy Şəmsəddin Eldəniz öz arvadından bir ay sonra – 571-ci ilin rəbi əs-səni ayında (19.10 – 16.11.1175) öldü. Bu onun rəsmi ölüm tarixidir və rəsmi saray dairələrinə daxil olan Ravəndinin məlumatlarına əsaslanır” **(Bünyadov Z.M., 1985, s. 64)**.

Zəmanəsinin görkəmli qadın şəxsiyyətlərindən olan Mömünə xatının adı Naxçıvan şəhərində, Atabəylər meydanında, indiki Əcəmi seyrəngahında əzəmətlə ucalan Mömünə xatın türbəsinin üzərindəki əsas kitabədə qalmışdır. Mömünə xatın İraq Səlcuq sultanı II Toğrulun arvadı olmuşdur. Sultan Toğrul 1135-ci ildə vəfat etdikdən sonra taxt-tacda onu əvəz edən Sultan Məsud onun dul arvadı Mömünə xatını vaxtilə vəzir əs-Sumayrami tərəfindən qul kimi satın alınan, II Toğrulun sarayında yüksək

qabiliyyəti, bacarığı sayəsində böyük nüfuz qazanan, bu səbəbdən də Sultanın şəxsi məmlükləri sırasına keçirilən və Sultan mətbəxinin başçısı vəzifəsinə, həmçinin sultanın azyaşlı oğlu Arslan şahın atabəyi təyin edilən, artıq bu zamanlardan sultanın arvadı Möminə xatının hörmət və ehtiramını qazanan, beləliklə sarayda böyük nüfuz sahibi olan, hətta əmir rütbəsinədək yüksələn Şəmsəddin Eldənizlə evləndirir.

Şəmsəddin Eldəniz hələ Arslan şahın atabəyi olduğu zamanlardan dövrünün görkəmli şəxsiyyətlərindən biri və İraq Səlcuq sultanlığının, sonralar isə Atabəylər sarayında böyük nüfuz və söz sahibi olan Möminə xatının hörmət və ehtiramını qazanmış və bu ağıllı qadın onun ən yaxın məsləhətçisinə çevrilmişdi. Şəmsəddin Eldəniz isə öz növbəsində bütün ömrü boyu Möminə xatının tövsiyə və tapşırıqlarını nəzərə almış, məhz buna görə də heç bir vaxt saray intriqalarına, fitnə-fəsadlara, çəkişmələrə uymamışdı. Şəmsəddin Eldəniz Atabəylər dövlətini yaratdıqdan sonra da bu vəziyyət beləcə davam etmiş, Möminə xatın dövlətin siyasi həyatında fəal rol oynamışdır. O ağlı və bacarığı sayəsində sarayda yaranan ziddiyyətləri aradan qaldıra bilmiş, hətta 1161-ci ildə İraq sultanlığında hakimiyyətə keçmiş oğlu Arslan şahla əri Şəmsəddin Eldəniz arasında yaranan ziddiyyətləri aradan qaldırmış və onlar arasında normal münasibətlərin yaranmasına nail olmuşdu. Möminə xatının oğlu Arslan şaha dediyi və qaynaqların bizə çatdırdığı aşağıdakı sözlər onun nə qədər ağıllı, diplomat bir qadın olduğunu açıq-aydın göstərir: "Sən sultan taxtındasan, o (Şəmsəddin Eldəniz) və onun hər iki oğlu da (Atabəy Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslan) sənin qulluğunda durub, düşmənlərinlə vuruşur, rəqiblərinə qalib gəlirlər, sənin canın isə bütün bunlardan azaddır. Atabəy nə eləyirsə eləsin, bağışlasın, ya tutub assın, bütün bunlar sənin məmləkətini möhkəmlətmək, hakimiyyətini bərkitmək üçündür..." **(Naxçıvan ensiklopediyası, 2005-2, s. 48)**. Bu cür ağıllı və cəsarətli manevrləri sayəsində Möminə xatın Şəmsəddin Eldənizin hakimiyyətinin möhkəmlənməsinə və bütün sultanlığın gerçək sahibinə çevrilməsinə nail

olmuş, Arslan şah isə dövlət başçısı rolunun formal icrası ilə məhdudlaşdırılmış şəxsə çevrilmişdi **(Naxçıvan ensiklopediyası, 2005-2, s. 48)**.

Məhz bu müsbət və nadir keyfiyyətlərinə görə bütün ömrü boyu Naxçıvanda yaşayan və orada da torpağa tapşırılan Möminə xatının qəbri üzərində dahi Azərbaycan memarı Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən inşa edilən türbənin əsas kitabəsində onun adı "dünyanın və dinin şöhrəti, islamın və müsəlmanların şərəfi" kimi titul və epitetlər ilə müşayiət olunmuşdur.

## Qoşa minarəli baştağın kitabəsi

XII əsrdə Möminə xatın türbəsinin qarşısında Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən Atabəylər memarlıq kompleksinə giriş rolunu oynayan qoşa minarəli baştağ da inşa olunmuşdur (şəkil 3). XIX əsrin sonlarınadək qalan (1882-ci ildə sökdürülmüşdür) abidənin üstündə çoxlu kitabələr olmuşdur. Bu kitabələri X.M.Fren və N.V.Xanıkov tədqiq etmişdir. Ancaq bu kitabələr bizədək gəlib çatmamışdır. Ona görə də X.Frenin və N.Xanıkovun həmin kitabələr haqqında tədqiqatı onlar haqqında məlumat verən yeganə mənbələr kimi çox qiymətlidirlər.

N.V.Xanıkovun məlumatından aydın olur ki, qoşa minarəli baştağın inşası 1187-ci ildə, Möminə xatın türbəsinin inşasından 1 il sonra başa çatmışdır. Abidənin portalının yuxarı hissəsində belə bir kitabə olmuşdur: "Böyük, adil, alim hökmdar Əbu Cəfər Məhəmməd ibn Atabəy Eldəniz – Allah onun qəbrini nurlandırsın" **(Алескерзаде А.А., 1947, с. 378)**.

Bu kitabədə Atabəy Məhəmməd Cahan Pəhləvanın ölümü haqqında konkret söz deyilməsə də, orada yazılan "Allah onun qəbrini nurlandırsın" fikrinə əsasən Atabəy Məhəmməd Cahan Pəhləvanın qoşa minarəli baştağın inşası başa çatarkən artıq dünyada olmadığı, yəni öldüyü bəlli olur. Məhz buna görə də Ə.Ələsgərzadə qoşa minarəli baştağın kitabələrini təhlil edərkən Atabəy Məhəmməd Cahan Pəhləvanın özünün də Möminə xatın

türbəsinin sərdabəsində, anasının yanında dəfn edilməsi fikrinə gəlmişdir **(Алескерзаде А.А., 1947, с. 376)**.

Möminə xatın türbəsinin qarşısında olan qoşa minarəli baştağ Atabəy Məhəmməd Cahan Pəhləvanın əmri ilə onun mütəvəllisi Nurəddin tərəfindən inşa etdirilmişdir. Bu haqda abidənin üzərində kitabə olmuşdur. Bu kitabəni də rus şərqşünası N.V.Xanıkov oxumuşdur. Şərqşünasın məlumatına görə kitabənin mətni belə imiş: "...əl-mütəvəlli, əmir əl-üməra, əmir Nurəddin, atlı qoşunların başçısı və Atabəy dövlətinin vergi yığanı..." **(Алескерзаде А.А., 1947, с. 378-379)**.

Göründüyü kimi, Əmir Nurəddin Azərbaycan Atabəyləri dövlətinin görkəmli məmurlarından olmuşdur. Bu görkəmli şəxsiyyətin adı haqqında bəhs olunan kitabə vasitəsi ilə elmi dövriyyəyə daxil olmuşdur **(Алескерзаде А.А., 1947, с. 378-379; Неймат М., 2001, с. 54)**. Kitabədə o "əl-mütəvəlli", "əmir" titulları, "atlı qoşunların başçısı və Atabəy dövlətinin vergi yığanı" vəzifələrini icra edən bir adam kimi təqdim olunmuşdur. Bütün orta əsrlər boyu olduğu kimi XII yüzillikdə, Azərbaycan Atabəylərinin hakimiyyəti zamanında da mütəvəllilər vəqf əmlakını idarə edir, vəqf gəlirlərindən aylıq əmək haqqı alırdılar. Həmin vaxt yetərincə nüfuzlu olan "mütəvəlli" vəzifəsini icra edən Nurəddin, kitabədən göründüyü kimi "əmir" titulu daşımaqla dövlətin süvari qoşunlarına və vergilərin toplanmasına da rəhbərlik etmişdir. Qoşa minarəli baştağın Möminə xatın türbəsindən az sonra tikdirilməsinə əsasən demək olar ki, onu inşa etdirən Nurəddin XII yüzillikdə yaşamışdır.

Baştağın üzərindəki başqa bir kitabədən məlum olur ki, bu abidəni də Əcəmi Əbubəkr oğlu Naxçıvani inşa etmişdir. Memar kitabədə özünü belə təqdim etmişdir: "Bənna Əcəmi Əbubəkr oğlu Naxçıvaninin əməlidir".

Əcəmi Əbubəkr oğlu Naxçıvani orta əsr Azərbaycan memarlığının ən görkəmli nümayəndələrindən biridir. O həm də Naxçıvan memarlıq məktəbinin banisidir. Zəmanəmizə qədər gəlib çatmış orta əsr qaynaqlarından demək olar ki, bu görkəmli

memar haqqında heç bir məlumat gəlib çatmamışdır. Başqa sözlə desək tarix onun yaradıcılıq məhsulları olan türbələrdən başqa bizə heç bir şey saxlamamışdır **(Каджар Ч., 2016, с. 101).** Ona görə də görkəmli memar Əcəmi Naxçıvani haqqında məlumatı biz ancaq onun yaratdığı möhtəşəm memarlıq abidələri və onların üzərində qalan kitabələrdən alırıq.

Məlumdur ki, bir sıra yerlərdə çoxlu memarlıq abidələri inşa etsə də Əcəmi Naxçıvaninin yaratdığı abidələrdən indiyədək ancaq Naxçıvan şəhərində iki abidə – Yusif Küseyr oğlu türbəsi və Möminə xatın türbəsi gəlib çatmışdır. Ancaq tarixi və memarlıq ədəbiyyatı materiallarından aydın olur ki, Naxçıvan şəhərində XIX yüzilliyə qədər qalıqları qalan başqa abidələr də, o cümlədən Atabəylər memarlıq kompleksinə daxil olan, ancaq indiyədək gəlib çatmayan Qoşa minarəli baştağ və Came məscidi də bu görkəmli memarın yaradıcılığının məhsuludur. XII əsrdə Naxçıvan şəhərində yaratdığı Atabəylər memarlıq kompleksinə daxil olan Eldənizlər sarayı (Dar ül-Mülk), Dövlətxana (Hökümət evi), Xanəgah və s. kimi inzibati və mülki binalar da Əcəmi Naxçıvani tərəfindən inşa edilmişdir. Hətta elmdə 1979-cu ildə Ordubad rayonundakı orta əsr Xaraba Gilan şəhər yaşayış yerində təsadüfən aşkar olunan türbənin də Əcəmi Naxçıvani tərəfindən XII yüzilliyin 80-ci illərində inşa edilməsi fikri vardır **(Ибрагимов Б., 1984, с. 90-91).**

Əcəmi Naxçıvaninin Naxçıvan şəhərində inşa etdiyi abidələrdən bir neçəsinin, o cümlədən Yusif Küseyr oğlu və Möminə xatın türbələrinin, Came məscidi və Qoşa minarəli baştağın kitabələri XIX yüzilliyin ortalarından etibarən tədqiq edilmişdir. Bu tədqiqatların nəticəsi olaraq həmin abidələrin təyinatı, sifarişçisi, inşa tarixi və memarı haqqında məlumatlar elmi dövriyyəyə daxil edilmişdir. Beləliklə, bu kitabələrin təqdim etdiyi məlumatlar əsasında görkəmli Azərbaycan memarı, hətta Azərbaycan memarlığında xüsusi məktəb yaratmış Əcəmi Əbubəkr oğlu Naxçıvaninin adı elmi ictimaiyyətə məlum olmuşdur. Qeyd olunduğu kimi Əcəmi Naxçıvani yaratdığı dünya şöhrətli abidələr

üzərində imzasını belə qoymuşdur: "Bənna Əcəmi Əbubəkr oğlu Naxçıvaninin əməlidir".

Məlumdur ki, hər hansı bir tarix-mədəniyyət abidəsi, o cümlədən türbə, məscid, xanəgah, körpü, karvansara, hamam, qala, istehkam, qəbirüstü xatirə abidəsi və s. hər bir xalqın torpağa vurduğu möhürdür. Dünyaya gələn hər bir insan ömrünü başa vurduqdan sonra dünyasını dəyişir. Ancaq onun yaratdığı hər hansı bir əsər, memarlıq abidəsi uzun müddət yaşayır, gələcək nəsillərə öz mənsubiyyəti, onu yaradan sənətkar, tikildiyi tarix və s. haqqında dəyərli məlumatlar çatdırır. Beləliklə, öz yaradıcısının tarixdə yaşamasına səbəb olur. Görkəmli memar Əcəmi Naxçıvani də sanki bütün bunları nəzərə alaraq özünün şah əsəri olan Möminə xatın türbəsinin üzərində belə bir beyt yazmışdır:

"Biz gedirik, ancaq qalır ruzigar,
Biz ölürük, əsər qalır yadigar" **(Алескерзаде А., 1947, с. 373)**.

Həqiqətən dünya memarlıq xəzinəsinə Möminə xatın türbəsi kimi möhtəşəm bir nümunə bəxş edən Əcəmi Naxçıvani öz ömrünü çoxdan başa vursa da, hətta qəbrinin yeri belə unudulsa da yaratdığı bu nadir memarlıq abidəsi 1186-cı ildən bəri, 832 ildir ki, Naxçıvan şəhərinin mərkəzində əzəmətlə ucalır, seyr edənləri öz gözəlliyi ilə heyran edir, müəllifinə rəhmət oxutdurur. Azərbaycan qadınının xatirəsinə ucaldılan və Haçadağla birlikdə Naxçıvanın simvoluna çevrilən bu abidə 1648-ci ildə Hindistanda Mümtaz Mahalın şərəfinə inşa edilmiş Tac Mahal məqbərəsi ilə birlikdə dünyada qadına, anaya qoyulan ən möhtəşəm abidə kimi diqqəti cəlb edir və əzəməti ilə heyrət doğurur.

Çox maraqlıdır ki, Əcəmi Naxçıvani yaratdığı abidənin gözəlliyini qiymətləndirmiş, hətta onun üzərində fars dilində kufi xətti ilə "İlahi, bəd nəzərdən uzaq elə!" sözlərini də yazmışdır.

Daşıdığı "Naxçıvani" nisbəsindən də göründüyü kimi görkəmli Azərbaycan memarı Əcəmi Əbubəkr oğlu Naxçıvani əslən Naxçıvan şəhərindəndir. O Naxçıvan şəhərində doğulmuş, orada yaşamış, fəaliyyət göstərmiş, orada da dünyasını dəyişmişdir. Ancaq bu görkəmli memarın anadan olduğu tarix dəqiq məlum

deyildir. Orta əsr qaynaqlarında da bu haqda heç bir məlumat yoxdur. Bu səbəbdən də memarın doğum tarixini onun yaratdığı əsərlərə əsasən təxmini də olsa müəyyən etmək olar. Məlumdur ki, onun yaratdığı abidələrdən zəmanəmizədək gəlib çatan Yusif Küseyr oğlu türbəsinin inşası 1162-ci ildə, Möminə xatın türbəsinin inşası isə 1186-cı ildə başa çatmışdır. Əzəməti, möhtəşəmliyi, naxışlarının və kitabələrinin mükəmməlliyi ilə Möminə xatın türbəsi Yusif Küseyr oğlu türbəsini geridə qoyur. Bu da təbii bir haldır. Çünki inşa tarixlərindən də göründüyü kimi Yusif Küseyr oğlu türbəsini memar nisbətən gənc və ya cavan yaşlarında inşa etmişdir. Möminə xatın türbəsini isə ondan 24 il sonra, yaşının və sənətinin kamillik çağında ucaltmışdır. Fikrimizcə, Yusif Küseyr oğlu türbəsini inşa edərkən memar 30-35 yaşlarında, Möminə xatın türbəsini inşa edərkən isə 50-60 yaşlarında olmuşdur. Bu iki türbənin inşa tarixlərini əsas götürərək Əcəmi Naxçıvaninin doğum tarixini təxminən XII yüzilliyin 20-ci illərinə aid etmək olar. Qeyd etmək yerinə düşər ki, 1976-cı ildə böyük memarın anadan olmasının 850 illiyi təntənəli surətdə qeyd olunarkən bu cəhət nəzərə alınmışdır. Bu səbəbdən də "Naxçıvan ensiklopediyası"nda onun doğum tarixi XII əsrin 20-ci illəri kimi qeyd olunmuşdur **(Naxçıvan ensiklopediyası, 2005,-1, s. 150)**.

Əcəmi Naxçıvani dövrünün çox böyük memarı, kamil sənətkarı olmuş, sənətinin incəliklərinə yiyələnmiş, zirvəsinə yüksəlmişdir. Əcəmi Naxçıvani yaradıcılığını təhlil edərkən belə bir qəti qənaətə gəlmək olur ki, o dövrünün görkəmli memarı olmaqla bərabər, həm də zəmanəsinin bir sıra elmi biliklərinə, xüsusilə həndəsə və riyaziyyat elmlərinə dərindən yiyələnmiş, hərtərəfli inkişaf etmiş şəxsiyyət, böyük bir filosof olmuşdur. Təsadüfi deyildir ki, başqa həmkarlarından daha çox üstünlüklərə və elmi biliklərə malik olduğu üçün Əcəmi Naxçıvani müasirləri tərəfindən "Şeyxül-Mühəndisin" ("Mühəndislərin başçısı", "Mühəndislərin şeyxi") kimi dəyərləndirilmişdir. Əcəmi Naxçıvani yaradıcılığında ahəngdarlığı tədqiq etmiş tədqiqatçıların da fikrincə, Əcəmi sənətində Şərqin bəlkə də heç bir filosofuna nəsib olmayan bir

fikir nizamı var. Bu nizam, başqa bir ifadə ilə desək bu sistem incəliklərinə varılsa ahəngdar bir ideologiya, bir dünyagörüş sistemindən ibarətdir. Elə bir sistem ki, səkkiz yüz il əvvəl düşünülmüş olmasına baxmayaraq yaşadığımız bu günlərdə belə aktual deyiləcək qədər təzə və yenidir **(Əliyev Q., 2007, s. 70)**.

Əcəmi Əbubəkr oğlu Naxçıvaninin təvəllüd tarixi kimi vəfat tarixi də dəqiq müəyyən edilməmişdir. Bununla belə əgər Möminə xatın türbəsinin inşasının başa çatdığı 1186-cı ildə Əcəmi Naxçıvaninin 55-60 yaşlarında olduğunu, insanın, xüsusi ilə kişilərin orta ömrünün 70-75 il olduğunu nəzərə alaraq böyük memarın XII yüzilliyin sonlarında vəfat etdiyini ehtimal etmək olar.

Dünyasını dəyişdikdən sonrakı dövrlərdə Əcəmi Naxçıvani yaradıcılığının və onun yaratdığı məktəbin təsiri ilə çox geniş bir ərazidə möhtəşəm memarlıq abidələri yaradılmışdır. Bu memarlıq məktəbinin təsiri elə Naxçıvan bölgəsində, Culfa şəhəri yaxınlığında indiyədək qalan, bəlkə də Əcəmi Naxçıvaninin özü tərəfindən inşa edilmiş Gülüstan türbəsində (XII əsr), Qarabağlar memarlıq kompleksində (XII-XIV yüzillik), Bərdə türbəsində (1322), Cənubi Azərbaycanın Marağa şəhərindəki Göy günbəzdə (1196-cı il) və Səlmas türbəsində (XIV əsr), xüsusilə XVI yüzillikdə yaşamış məşhur türk memarı Sinanın İstanbulda inşa etdiyi abidələrdə aydın şəkildə görünür. Görkəmli sənətşünas E.Ditsin yazdığına görə memar Sinan Sultan Süleyman Qanuninin 1535-ci ildə Azərbaycana yürüşü zamanı ordu mühəndisi kimi qoşunla birlikdə Naxçıvana gəlmişdir. Naxçıvan şəhərində olarkən o Əcəmi Naxçıvani yadigarlarını görmüş, bu abidələr onun yaddaşında böyük iz buraxmış və bu təsir bütün yaradıcılığı boyu onu izləmişdir.

Qeyd etmək lazımdır ki, gökəmli memar Əcəmi Əbubəkr oğlu Naxçıvani inşa etdiyi abidələr üzərində yazdığı kitabələrdə özünü "bənna" kimi təqdim etmişdir. Nizami dövründə Azərbaycan memarlıq abidələrinin kitabələrində göstərilən əsas sənət titulları "bənna", "ustad" və "memar" olub, müəllif adının

önündə yazılmışdır. "Bənna" titulu Naxçıvan-Marağa çevrəsi abidələrində daha geniş yayılmışdır. "Bənna" sözünün o çağdakı anlamı indikindən fərqli və çox tutumlu idi. Nizami Simnarı "bənna", "o bənna kişi" kimi tanıdır və bildirir ki, "bu söz (bənna) məşhurdur və (bənna) min nəqqaşa dərs deyə bilər". Bu deyimdən göründüyü kimi Nizami çağında bənna binanın ucaldılmasına və bəzədilməsinə bir başa başçılıq edən yaradıcı şəxsiyyət – müəllif olmuşdur **(Qiyasi C., 1991, s. 220)**. Göründüyü kimi XI-XIII əsrlərdə Azərbaycan memarlığında, xüsusilə Naxçıvan memarlıq məktəbində bənna titulu daha üstün və məna tutumuna görə daha geniş miqyaslı olduğu üçün Əcəmi Naxçıvani "bənna" titulu daşımış, bu səbəbdən də yaratdığı abidələr üzərində imzasını "bənna" kimi qoymuşdur.

Burada bir cəhəti də vurğulamaq yerinə düşər ki, orta əsrlər zamanı Əcəmi Əbubəkr oğlu Naxçıvani də daxil olmaqla bütün sənətkarlar xalq kütlələri içərisindən çıxmış adamlar idi. Ona görə də onlar hakim sinfin tələblərinə uyğun olaraq çox vaxt yaratdıqları abidələrin üzərində öz imzalarını qoya bilmirdilər. Yaratdığı möhtəşəm memarlıq nümunələrinin, hətta Naxçıvan şəhərinin rəisi Yusif Küseyr oğlunun türbəsi, yaxud da Atabəylər dövlətinin ən qüdrətli hökmdarlarından olan Atabəy Məhəmməd Cahan Pəhləvanın anası Möminə xatının qəbirüstü xatirə abidəsi üzərində öz imzasını qeyd etməsi onun yaşadığı dövrdə çox yüksək elm, hörmət və nüfuz sahibi olmasından irəli gəlmişdir.

Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən yaradılmış Azərbaycan memarlığının şah əsərlərindən olan Yusif Küseyr oğlu və Möminə xatın türbələri əsrləri aşaraq zəmanəmizədək gəlib çatmış, insanlara yüksək estetik zövq verməklə memarın yaradıcı dühasının cazibə qüvvəsini və solmaz təravətini bu gün də bizə nümayiş etdirməkdədir. Bu əsərlər Əcəmi irsinin, haqlı olaraq memarlıq sənətinin ölməz əsərləri sırasına daxil olduğuna şəhadət verir. Zəmanəmizdə yenidən dirçəldilmiş bu memarlıq irsi Əcəmi Naxçıvaninin öz dövrünün – XII əsrin misli-bərabəri olmayan memarı olduğunu inamla söyləməyə əsas verir. Qərbdə

memarlıq yaradıcılığı imzasız olduğu bir vaxtda Əcəmi memarlığın bir sıra şah əsərlərinin müəllifi kimi bizim gözlərimiz önündə parlaq fərdi, təkraredilməz yaradıcılıq siması olan bir sənətkar, bədii və mühəndis düşüncəsinin nəhəng siması kimi dayanır. XII əsrin memarlıq tarixi onunla yanaşı dayana biləcək digər bir layiqli memarı tanımır **(Salamzadə Ə., Məmmədzadə K., 1985, s. 60-61)**.

Şübhəsiz ki, Naxçıvan Muxtar Respublikası ərazisində qeyd olunanlardan əlavə XII əsrə qədərki dövrdə də epiqrafik abidələr, müsəlman kitabələri olmuşdur. Ancaq onlar müəyyən səbəblərdən əsrlər keçdikcə məhv olmuş və zəmanəmizədək gəlib çatmamışdır.

## Naxçıvan şəhər imamzadəsinin kitabələri

Naxçıvan Muxtar Respublikası ərazisində islam dini ilə əlaqədar yaranmış ziyarətgahların içərisində "imamzadə"lər xüsusi yer tutur. Hazırda Naxçıvan bölgəsində "imamzadə" adı ilə tanınan üç ziyarətgah vardır: Babək rayonunun Nehrəm kəndindəki İmamzadə, Şərur rayonunun Xanlıqlar kəndindəki İmamzadə və Naxçıvan şəhərindəki İmamzadə. Yerli əhali tərəfindən birbaşa şiə imamlarının övladları ilə əlaqələndirilən bu qəbil ziyarətgahlar üzərində digər müqəddəs yerlərdən fərqli olaraq orta əsr sənətkarlarının əli ilə möhtəşəm tarixi-memarlıq abidələri – türbələr ucaldılmışdır. Əsasən oxşar memarlıq-konstruktiv quruluşa malik olan bu abidələr ərazidəki digər ziyarətgah-pirlərdən fərqli olaraq "imamzadə" adlandırılırlar. Ərəbcə "imam", farsca "zadə" sözlərinin birləşməsindən əmələ gələn bu söz "imam övladı", "imam nəslindən olan" mənasını verir. El arasında yayılan fikirlərdən də göründüyü kimi, bu komplekslərdə olan qəbirlərdə uyuyan şəxslər şiə imamlarının övladları olmuşlar.

Tarixdən məlumdur ki, şiə imamları Abbasi xəlifələri tərəfindən daim təqib olunmuşlar. Bu səbəbdən də onların övladları təqiblərdən yaxa qurtarmaq üçün qaçıb müxtəlif ölkələrə, o

cümlədən Azərbaycana və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsinə pənah gətirmişlər. Məsələn, VII imam Museyi-Kazım hicri-qəməri təqvimilə 183-cü ildə (miladi təqvimilə 799-800-cü ildə) xəlifə Harun ər-Rəşid zamanında zəhərlənib öldürüldükdən sonra onun övladları təqib olunmuş və onlar canlarını qurtarmaq üçün didərgin düşüb müxtəlif yerlərə, o cümlədən Azərbaycana qaçmışlar. Onlar pənah gətirdikləri yerlərdə, o cümlədən Naxçıvanda yaşamış, vəfat etdikdən sonra orada da dəfn olunmuşlar. Sonradan onların qəbri ziyarətgaha çevrilmişdir. Məhz bu səbəbdən də Azərbaycan ərazisində və ona yaxın yerlərdə, vaxtilə Azərbaycan torpaqları olan digər yaşayış məskənlərində və qonşu ölkələrdə olan bir sıra ziyarətgahlar xalq tərəfindən imam Museyi-Kazımın övladları ilə əlaqələndirilir. Məsələn, Babək rayonunun Nehrəm kəndindəki imamzadə onun övladlarından Seyid Əqillə, Şərur rayonunun Xanlıqlar (Parçı) kəndindəki imamzadə Seyid İbrahimlə, Ordubad rayonunun Düylün kəndindəki pir Seyid Səffanla (Səfi ilə), Azərbaycanın ən böyük ziyarətgahlarından olan Bibiheybət ziyarətgahı Hökümə xanımla, Bakı yaxınlığındakı Nardaran kəndindəki imamzadə Rəhimə xanımla, taleyi daim Naxçıvanla bağlı olan Mehri rayonundakı (indi Ermənistan Respublikasının tərkibindədir) Buğakar piri Seyid Əhmədlə, İran İslam Respublikasının Məşhəd şəhərindəki ziyarətgah İmam Rza ilə, Sofiyan qəsəbəsindəki ziyarətgah Seyid Qasımla əlaqələndirilir. Naxçıvan ərazisindəki imamzadələrdən bəhs edən rus alim-şərqşünası K.Smirnov Nehrəm və Xanlıqlar kəndlərini Naxçıvan ərazisinin şiə mərkəzləri kimi xarakterizə etmişdir **(Смирнов К., 1999, с. 102)**.

Azərbaycan Səfəvi dövlətini yaradan Qızılbaş şeyxləri öz məqsədlərini həyata keçirmək üçün islamın şiəlik məzhəbindən istifadə etdiklərindən idarə etdikləri ərazilərdə şiə imamları ilə bağlı olan ziyarətgahlara diqqətlə yanaşmış, onların üzərində gözəl memarlıq abidələri ucaltmışlar. Təsadüfi deyildir ki, Naxçıvan şəhərində, Babək bölgəsinin Nehrəm kəndində və Şərur bölgəsinin Xanlıqlar (Parçı) kəndindəki imamzadə binaları məhz

Səfəvilər dövründə inşa edilmişlər.

Tədqiqatçılar təsdiq edirlər ki, orta əsrlər zamanı imamzadələrin funksiyası təkcə ziyarətgah-pir olmaqla məhdudlaşmamış, onlar həm də ərazidə fəaliyyət göstərən sufi təriqətləri üzvlərinin yığıncaq və ibadət yeri olmuşlar. Belə komplekslərin səciyyəvi xüsusiyyəti əvvəllər mövcud olmuş dəfn tikililərinin təmir, bərpa və yenidənqurma yolu ilə abadlaşdırılmasından və bərpa olunmuş məqbərəyə bitişik məscid, təkyə və digər xidmət otaqları tikilməsi yolu ilə dini kompleksin yaranmasından ibarətdir **(Salamzadə Ə., Məmmədzadə K., 1985, s.191)**.

Bu fikri təsdiq edən ən sanballı qaynaqlardan biri Nehrəm imamzadəsinin günbəzinin daxilində, kaşı üzərində sufilərə – Bektaşi dərvişlərinə məxsus "Nad Əliyyən" ("Əlini çağır") duasının yazılmasıdır. Bu duanın imamzadənin daxili divarında qeyd olunmasının orada yaşayan dərvişlərlə bağlı olmasına heç bir şübhə yoxdur.

İmamzadələrdə sufi təriqəti üzvlərinin yaşaması və fəaliyyət göstərməsini belə bir fakt da təsdiq edir ki, ərazimizdə XVII-XVIII yüzilliklərdə inşa olunmuş xanəgahlar yoxdur. Görünür yaşamaq və ideyalarını yaymaq üçün içərisində şiə imamları ilə bağlı qəbirlər olan imamzadələrdən istifadə edən dərvişlər xanəgahlar tikməyə ehtiyac duymamış, bu səbəbdən də XVII-XVIII yüzilliklərdə ərazimizdə xanəgahlar inşa edilməmişdir. Bunun əvəzində isə imamzadələr yanında dərvişlərin yaşaması üçün təkyələr inşa edilmişdir. Zikr və ibadətlərini ziyarət obyekti olan qəbir yerləşmiş türbədə həyata keçirən təriqət mənsubları həmin təkyələrdə gecələmişlər.

Naxçıvan Muxtar Respublikası ərazisində "imamzadə" adı ilə tanınan məşhur ziyarətgahlardan biri Naxçıvan şəhərində, yerli əhali tərəfindən "imamzadə" adlandırılan memarlıq kompleksidir (şəkil 4). Şəhərin cənub tərəfində yerləşən və əhalinin böyük ehtiram bəsləyərək ziyarətə gəldiyi bu kompleks üç binadan ibarətdir. Kompleksin özəyini cənub tərəfdə yerləşən türbə təşkil edir. Aşağıdan kvadrat şəklində inşa edilən abidənin yuxarı

hissəsində, silindr şəkilli gövdəsində memar çox ustalıqla qırmızı rəngli bişmiş kərpicləri üfüqi, tünd bənövşəyi rəngli kaşılı kərpicləri isə şaquli şəkildə simmetrik düzərək Bərdə türbəsində olduğu kimi xalını xatırladan bəzək ünsürü və kufi xətlə dəfələrlə təkrarlanan epiqrafik motiv – "Allah" sözünü yaratmışdır (Şəkil 4 a).

Türbənin içərisində bir qəbir vardır. Qəbrin üstü sənduqə formasında (uzunluğu 150 sm, hündürlüyü 88 sm, eni 115 sm) düzəldilmiş, sementlə suvanmış, üstünə qara parçadan örtük salınmışdır. Şəhərin yaşlı əhalisinin söylədiyinə görə bu qəbirdə şiələrin VIII imamı Rzanın oğlu dəfn edilmişdir.

1926-cı ildə Naxçıvanda olan rus alimi V.M.Sısoyev muxtar respublikaya səfərinin yekunlarına həsr olunmuş elmi hesabatında bu imamzadədən danışarkən həmin qəbir haqqında da bəhs edir. Alim qeyd edir ki, deyilənə görə burada VIII imam Rzanın oğlu dəfn edilmişdir **(Сысоев В., 1929, с. 107; Səfərli F., 2003, s. 205)**. Həmçinin alim yazır ki, qəbrin yanında müqəddəs sayılan və dindarların öpdüyü iki ədəd iri, qara rəngli daş vardır. Yerli əhali bu daşları "hərəkət edən daşlar" adlandırırlar. Qeyd etmək yerinə düşər ki, belə daşlara ərazidəki bəzi ziyarətgahlarda da rast gəlinir. Yerli əhali arasında olan inama görə bu daşlar hərəkət edir, gecələr qəbrin başına dolanırlar. Həmin daşların doğub çoxalması fikrini söyləyənlər də vardır.

Qəbrin üzərində məzar kitabəsi olmadığı üçün onun mənsubiyyəti, kimə aid olması haqqında dəqiq fikir söyləmək mümkün deyildir. Ancaq abidənin xalq tərəfindən "imamzadə" adlandırılmasından da göründüyü kimi qəbirdə dəfn edilən şəxs şiə imamları ilə əlaqəlidir. Görünür ki, Abbasilər xilafəti hakimlərinin təqibləri üzündən didərgin düşmüş imam övladlarından hansı isə biri Naxçıvana gələrək orada yaşamış, əhali arasında yüksək nüfuza malik olmuşdur. Vəfatından sonra orada da dəfn edilmişdir. Yerli əhali tərəfindən ziyarətgaha çevrilən həmin qəbrin üstündə sonralar türbə inşa edilmişdir.

Keçən yüzilliyin 20-ci illərində "Azərbaycanı Tədqiq və

Tətəbbö Cəmiyyəti"nin göndərişi ilə Naxçıvanda olmuş epiqraf İ.Əzimbəyovun yazdığına görə türbənin şimal-qərb tərəfində nəsx xətti ilə ərəb dilində yazılmış kitabə olmuşdur. O, kitabənin mətnini və bəzi səhvlərlə rus dilində tərcüməsini nəşr etdirmişdir **(Азимбеков И., 1929, с. 310-311)**. Kitabənin sonrakı taleyi məlum deyildir. İ.Əzimbəyovun təqdim etdiyi məlumata görə kitabənin mətninin tərcüməsi belə olmuşdur. "Bu imarətin bina edilməsini böyük sultan, xaqan, hörmətli əmir, ərəb və əcəmlərin hakimi, sultan Əbu Müzəffər şah Təhmasib Bahadur xanın hakimiyyəti zamanında mərhum, günahları bağışlanmış Hacı Fulad bəyin oğlu, zəmanənin xeyirxahı Həzrət Rufai bəy əmr etmişdir" **(Азимбеков И., 1929, с. 310-311; Səfərli H., 2003, s. 206)**.

Kitabədə tarix qeyd olunmamışdır. Ancaq orada qeyd olunan "Əbu Müzəffər şah Təhmasib Bahadur xanın hakimiyyəti zamanında" sözlərinə əsasən inşa ili dəqiq olmasa da abidənin tarixini təxmini müəyyənləşdirmək mümkündür. Kitabədə adı qeyd edilən Əbu Müzəffər şah Təhmasib Bahadur xan Səfəvi şahı Sultan Hüseynin oğludur. Tarixdə II şah Təhmasib adı ilə tanınan bu adam 1722-1732-ci illərdə hakimiyyətdə olmuşdur. Kitabədə abidənin onun zamanında tikilməsini qeyd edən xəttat bu vasitə ilə abidənin inşa tarixini çatdırmışdır. Deməli türbə XVIII əsrin 20-ci illərində inşa edilmişdir.

XIX əsrin ortalarında Naxçıvanda olmuş rus şərqşünası və diplomatı N.V.Xanıkov da türbəni Səfəvi şahı II Təhmasibin dövrünə aid edir **(Выдержки из «Записок...», 1862, с. 15)**. Yəqin ki, N.V.Xanıkov haqqında bəhs edilən kitabəni görmüş və bu fikri də ona əsasən söyləmişdir. İmamzadə kompleksi müstəqillik illərində bərpa olunarkən həmin kitabənin mətni İ.Əzimbəyovun məqaləsindən götürülərək daş lövhəyə həkk edilmiş və itib-batmış kitabənin yerinə qoyulmuşdur.

Bu türbəyə bitişik, nisbətən böyük həcmə malik və qərbdən giriş qapısı olan bina kompleksin mərkəz hissəsini təşkil edir. V.M.Sısoyevin yazdığına görə kompleksin bu hissəsi Naxçıvan xanlarının məqbərəsi hesab edilirmiş. Alimin şəhadətinə

görə burada Abbasqulu xanın hicri 1337-ci il tarixdə (1918-ci il) vəfat etmiş oğlu Mustafaqulu xan Naxçıvanskinin qəbri var imiş. Ancaq bu və orada olan digər qəbirlər zaman keçdikcə dağılmış və məhv olmuşlar.

Kompleksdən azca aralı, şimal tərəfdə başqa bir türbə vardır. Bişmiş kərpiclə inşa edilən bu türbə aşağıdan kvadrat şəkilli götürülərək üstü günbəzlə örtülmüşdür. Haqqında bəhs edilən abidələr ilə müqayisədə bu türbə nisbətən yaxşı vəziyyətdə qalmışdır. Türbənin üzərində kitabə olmadığı kimi onun içərisində də qəbir və ya xatirə kitabəsi yoxdur. Ona görə də abidənin inşa tarixi, təyinatı, sifarişçisi və s. haqqında konkret fikir söyləmək mümkün deyildir. Bu türbəni də təxmini olaraq kompleksə daxil olan digər binalarla eyni dövrə, XVIII əsrə aid etmək olar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dəstəyi ilə 2008-ci və 2017-ci illərdə İmamzadə kompleksində yüksək səviyyədə bərpa və təmir işləri aparılmışdır.

Qeyd etmək lazımdır ki, İmamzadə kompleksində ziyarət olunan qəbirdə dəfn olunan şəxsin hörməti xatirinə orada dəfn mərasimləri aparılmışdır və zaman keçdikcə burada böyük bir qəbiristanlıq yaranmışdır. Ancaq sovet hakimiyyəti illərində bu qəbiristanlıq dağıdılmış, orada olan məzar kitabələri də məhv edilmiş və ya torpağın altında itib-batmışdır. İmamzadə kompleksində müstəqilliyə qədərki dövrdə aparılan bərpa-abadlıq işləri zamanı torpağın altından bir ədəd sənduqə tipli qəbirüstü xatirə abidəsi aşkar olunmuşdur.

Boz daşdan hazırlanmış sənduqə tipli həmin qəbirüstü xatirə abidəsi (ölçüsü: 131x25x22 sm) ortadan iki yerə bölünmüşdür. Bu abidənin səthi təbii qüvvələrin təsiri nəticəsində güclü aşınmaya məruz qaldığından orada heç bir kitabə və ornament izi qalmamışdır. Sənduqənin sağ və sol yanında lentvari haşiyə şəklində kitabə həkk edilmişdir (şəkil 5). Orada yazılan mətnin bəzi yerləri aşındığından bir neçə sözün oxunmasında çətinlik yaradır. Kitabənin qalan hissəsinin mətninin tərcüməsi belədir: "Onun (qəbrin) sahibi mərhum Kəlkutaşahın qızı, mərhumə, günahları

bağışlanmış, xoşbəxt şəhid, yüksək Allahın (rəhmətinə) getmiş Ba(nu) Şahbikə fani dünyadan əbədi dünyaya köçdü. Doqquz yüz altıncı il”.

Hicri-qəməri təqvimilə 906-cı il miladi ilə 1500-cü ilə müvafiqdir.

Xatirəsinə belə bir qəbirüstü abidə düzəldilmiş Banu Şahbikənin adına əlavə olunmuş “xoşbəxt şəhid” epiteti diqqəti cəlb edir. Ehtimal ki, bu söz birləşməsinin adına əlavə olunması onun öz əqidəsi və ya din uğrunda şəhid olmasından irəli gəlmişdir.

2004-cü ildə imamzadə ətrafında bərpa və abadlıq işləri aparılarkən torpağın altından boz rəngli daşdan hazırlanmış başqa bir sənduqə tipli qəbirüstü xatirə abidəsi də aşkar edilmişdir. Ölçüsü 139x29x23 sm olan və ortadan iki yerə bölünmüş sənduqənin səthi təbii qüvvələrin təsirindən güclü aşındığı üçün orada heç bir kitabə və ya təsvir izi qalmamışdır. Ancaq abidənin sağ yanındakı kitabə (şəkil 6) müəyyən dərəcə aşınsa da orada həkk olunan mətni qismən oxumaq mümkün olmuşdur. Kitabənin mətni belədir: “Onun (qəbrin) sahibi salehə (qadın) ...Bəyazid qızı fani dünyadan əbədi dünyaya köçdü”.

Kitabənin tarix yazılan hissəsi güclü aşındığından dövrünü dəqiq müəyyən etmək mümkün deyildir. Ancaq onu mətnin oxşarlığı, xətt xüsusiyyətləri, xatirə abidəsinin ölçüsü, forması, hazırlandığı material, və digər oxşar cəhətlərinə əsasən Ba[nu] Şahbikəyə aid xatirə abidəsi ilə eyni dövrə – XV yüzilliyin sonları-XVI yüzilliyin əvvəllərinə aid etmək olar.

Hər iki abidənin oxşar cəhətlərini müqayisə edərək onların eyni usta tərəfindən bir mərkəzdə hazırlandığını söyləmək mümkündür.

Bu abidələr də təsdiq edir ki, qeyd olunduğu kimi hələ memarlıq kompleksi yaradılmamışdan qabaq türbədəki qəbrin ətrafında onun xatirinə dəfn mərasimləri keçirilmiş, tədricən böyük qəbiristanlıq yaranmışdır. Orada son vaxtlara kimi dəfn mərasimləri keçirilmişdir. Təəssüf ki, görkəmli rəssam, 1922-ci ildə vaxtsız vəfat etmiş Bəhruz Kəngərlinin və görkəmli maarifpərvər

M.T.Sidqinin qəbirləri istisna olmaqla həmin qəbiristanlıqdan heç bir iz qalmamışdır.

## Naxçıvan şəhər Came (Cəfəriyyə) məscidinin kitabəsi

Orta əsr qaynaqlarına əsaslanaraq deyə bilərik ki, islamın qəbulundan sonra Naxçıvan şəhərində çoxlu möhtəşəm məscidlər inşa edilmişdir. Ancaq təəssüf ki, bu məscidlərdən heç biri zəmanəmizədək gəlib çatmamışdır. Tarixin ayrı-ayrı dövrlərində müxtəlif səbəblərdən məhv olaraq sıradan çıxmış həmin məscidlər haqqında biz ancaq qaynaqlardan məlumat alırıq.

Naxçıvan şəhərində məscid tikintisi ənənəsi orta əsrlərdə olduğu kimi sonralar da davam etdirilmiş, şəhərdə ibadət yerləri inşa olunmuşdur. Həmin məscidlərdən biri Naxçıvan şəhərində bu gün də fəaliyyət göstərən Came (Cəfəriyyə) məscididir. Şəhərin mərkəzində yerləşən bu məscid əhalinin həyatında mühüm rol oynayan sosial-siyasi və ideoloji mərkəzlərdən biri olmuşdur. Sovet hakimiyyəti illərində, ateizm təbliğatına geniş rəvac verildiyi bir dövrdə bu məscid Naxçıvan bölgəsində fəaliyyət göstərən yeganə məscid idi. Həmin vaxtlar məscidin ətrafı uca divarlarla hasarlanmış, ətraf aləmdən təcrid olunmuşdu. Orada keçirilən mərasimlər məscidin daxilindən və qapalı vəziyyətdə olan həyətindən kənara çıxmırdı.

Ancaq məscid sovet hakimiyyətindən əvvəlki dövrlərdə şəhərin həyatında mühüm rol oynamışdır. İnşa edildiyi zaman onun qərbdən giriş qapısının baş tərəfində bir kitabə qoyulmuşdur (şəkil 7). Sarımtıl rəngli mərmər lövhə (87x57x12 sm) üzərində nəfis şəkildə düzəldilmiş çərçivələr içərisində gözəl nəstəliq xətti ilə qarışıq ərəb-fars dillərində həkk edilmiş kitabənin mətninin əvvəlində Qurani-Kərimin IX surəsindən 18-ci ayənin bir hissəsi yazılmışdır: “Allahın məscidlərini yalnız Allaha və qiyamət gününə iman gətirən, namaz qılıb zəkat verən və Allahdan başqa heç kəsdən qorxmayanlar təmir edə (abadlaşdıra, tikə) bilərlər (yalnız bu qəbildən olan şəxslərin əməlləri Allah

dərgahında qəbul olunar)” **(Qurani-Kərim, 2015, s. 188)**.

Kitabənin mətninin qalan hissəsinin tərcüməsi belədir: “Yaranışın əvvəlindən sonunadək bəxşişkar olan Allaha sitayiş. Sitayişdən sonra Rəfrəfə minən axırıncı peyğəmbərə salavat və salam. Məhəmməd və ardınca gələni (vəsisi) Heydər ləqəbli Əlini çağır. Əlini axtar. Həqiqətən o, zövci (xanımı) və 11 övladı yaranmışların ən yaxşılarıdır (seçilmişidir). Həmin Cəfəriyyə məscidi min üç yüz on birinci ildə bina edildi. Çay yuxarısında iki dükan qoydum. Birini mücavirlərdən, o birini (məscidin) məsrəflərindən ötrü. Allahım, Məhəmmədin – ona salam olsun – haqqına bu kiçik töhfəni qəbul et. Məndən sonra məscidin memarını axtarsalar səkkizinci imamdan sonrakı adla adlanaram”.

Mərmər lövhənin sağ və sol kənarlarında düzəldilmiş çərçivələrin içərisində isə belə bir kitabə həkk olunmuşdur: “Allahın bağışlamasına (mərhəmətinə) sığınan Hacı Novruz Naxçıvaninin oğlu, xeyrül-Hac cənab Hacı Məhəmməd Cəfər ağanın himayəsi ilə 1311-ci ilin rəcəb ayında tamamlandı. (Kitabəni) yazdı Məhəmməd Təqi, həkk etdi Məhəmməd Saleh – hər ikisi Hüseyni ət-Təbrizidirlər”.

Kitabədən aydın olur ki, məscid naxçıvanlı Hacı Novruzun oğlu Hacı Məhəmməd Cəfər ağa tərəfindən inşa etdirilmişdir. Həmçinin kitabədə Hacı Məhəmməd Cəfər ağanın məscidin məsrəflərini ödəməkdən və mücavirlərdən ötrü çay yuxarısında vəqf (vəqf feodal torpaq sahibliyinin çox yayılmış bir forması olmaqla bütün feodalizm dövrü davam edərək Azərbaycanda sovet hakimiyyətinin qurulmasınadək mövcud olmuşdur) olaraq iki dükan ayırdığı da qeyd olunmuşdur. “Çay yuxarısında” deyərkən vaxtilə şimal şərqdən axaraq, cənub qərbdə Araza tökülən və Naxçıvan şəhərinin ortasından keçən Bazar çayı nəzərdə tutulur. Bu çay XX yüzilliyin 70-ci illərinədək Naxçıvan şəhərinin içərisindən axır və şəhərə xüsusi gözəllik verirdi. Ancaq 70-ci illərdə çayın üstü beton plitələrlə örtüldü və görünməz oldu. Sonradan oraya axan suların da istiqaməti dəyişdirilib kəsildi.

Məscidin kitabəsində adı başqa mənbələrdən məlum

olmayan görkəmli sənətkarların da adı qeyd olunmuşdur. Bunlar məscidin memarı Məhəmməd Təqi (o, həmçinin kitabənin mətnini mərmər lövhə üzərində yazmışdır) və kitabəni həkk edən Məhəmməd Salehdir. Onların hər ikisi Təbriz memarlıq məktəbinə mənsub sənətkarlar olmuşdur (**Nemətova M.S., 1967, s. 268**).

Məscid Naxçıvan şəhərində keçmiş bazar meydanının qərb tərəfində, əhalinin ən çox toplaşdığı, cəm olduğu bir yerdə inşa olunmuşdur. O, XIX yüzillikdə Naxçıvanda mövcud olan məscidlərin içərisində ən böyüyü idi. Ona görə də şəhərdə mərkəzi məscid funksiyasını yerinə yetirir, camaat və cümə namazları əsasən bu məsciddə qılınırdı. Bu baxımdan əhali buraya daha çox cəmləşirdi. Sovet hakimiyyəti illərində də bu məscid dindarların toplanış və ibadət yeri olmuşdu. Hətta burada gizli şəkildə olsa da dini nigahların qeydiyyatı aparılır, kəbin kəsilirdi.

Ümumiyyətlə, Naxçıvan şəhər Came (Cəfəriyyə) məscidi dövrünün mühüm sosial-siyasi və ideoloji mərkəzlərindən biri olmuş, bölgənin həyatında özünəməxsus yeri olmuşdur.

Məscid Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə 2007-ci ildə yüksək səviyyədə bərpa olunmuşdur. Bərpa zamanı yas mərasimlərinin keçirilməsi üçün məscidin yanında yardımçı bina inşa olunmuşdur.

# NAXÇIVAN ŞƏHƏRİNDƏ FƏALİYYƏT GÖSTƏRƏN MUZEYLƏRDƏ NÜMAYİŞ ETDİRİLƏN EPİQRAFİK ABİDƏLƏR

Naxçıvan şəhərinin epiqrafik abidələri sırasında şəhərdə fəaliyyət göstərən muzeylərdə, o cümlədən Naxçıvan Dövlət Tarix Muzeyində, Əcəmi Seyrəngahında təşkil olunan Açıq Səma altındakı muzeydə, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində nümayiş etdirilən kitabələr də xüsusi yer tutur. Az bir qismi Naxçıvan şəhərinə aid olan bu kitabələrin çoxu muxtar respublikanın müxtəlif yaşayış məskənlərindən, hətta orta əsrlər zamanı Naxçıvan inzibati ərazi bölgüsünə daxil olan, ancaq sovet hakimiyyəti illərində Azərbaycandan qoparılaraq ermənilərə hədiyyə edilən qədim Azərbaycan torpağı Zəngəzur mahalının Urud kəndindən ermənilər tərəfindən məhv edilməsinin qarşısının alınması məqsədi ilə gətirilən epiqrafik abidələr də mühafizə olunur.

## Naxçıvan Dövlət Tarix Muzeyində nümayiş etdirilən epiqrafik abidələr

Naxçıvan Dövlət Tarix Muzeyi 1924-cü ildə Tarix-Etnoqrafiya muzeyi kimi fəaliyyətə başlamışdır. İlk vaxtlar çox da zəngin olmayan muzey tədricən zənginləşmiş, eksponantların sayı artmışdır. Hazırda elmi-tədqiqat və mədəniyyət müəssisəsi kimi fəaliyyət göstərən muzeyin 10 şöbədən ibarət 900 kvadratmetrlik ekspozisiyasında 50 minə yaxın eksponat mühafizə olunur və nümayiş etdirilir. Eksponatlar içərisində bölgədə aparılan arxeoloji tədqiqatlar zamanı əldə olunan maddi-mədəniyyət, tətbiqi sənət nümunələri, numizmatik və epiqrafik materiallar, milli geyimlər, tikmələr, xalçalar, rəsm əsərləri, ümummilli lider Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti, Naxçıvan Muxtar Respublikası ilə əlaqədar materiallar və s. xüsusi yer tutur.

Naxçıvan Dövlət Tarix Muzeyində müsəlman epiqrafikasına aid beş ədəd abidə – sənduqə və başdaşı tipli məzar kitabəsi nümayiş etdirilir. Bu kitabələrdən xronoloji cəhətdən ən qədimi iri həcmli başdaşı üzərində həkk edilmiş məzar kitabəsidir. Bu kitabə Naxçıvanqala ətrafında təsadüfən torpağın altından tapılmış və Naxçıvan Dövlət Tarix Muzeyinə təhvil verilmişdir. Müsəlman epiqrafikasının nadir nümunələrindən sayıla biləcək qədər gözəl hazırlanan bu məzar kitabəsi kiçik istisnalar nəzərə alınmazsa zəmanəmizədək demək olar ki, tamamilə salamat vəziyyətdə gəlib çatmışdır.

1. Bozumtul rəngli qum daşından dördbucaqlı şəkildə hazırlanmış iri həcmli başdaşının (107x55x7 sm) səthinin kənar haşiyələrində iri və aydın hərflərlə Qurani-Kərimin "Bəqərə" surəsinin 255-ci ayəsi – "Ayət əl-Kürsi" yazılmışdır: "Allahdan başqa heç bir tanrı yoxdur. (Diri, Zatı ilə qaim olan, kainatı yaradıb idarə edən) əbədi, əzəli varlıq Odur. O nə mürgü, nə də yuxu bilər. Göylərdə və yerdə nə varsa (hamısı) Onundur. Allahın izni olmadan (qiyamətdə) Onun yanında kim şəfaət (bu və ya digər şəxsin günahlarının bağışlanmasını xahiş) edə bilər? O, bütün yaranmışların keçmişini və gələcəyini (bütün olmuş və olacaq şeyləri) bilir. Onlar Allahın elmindən Onun Özünün istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun kürsüsü (elmi, qüdrət və səltənəti) göyləri və yeri əhatə etmişdir. Bunları mühafizə etmək Onun üçün heç də çətin deyildir. O, ucadır, böyükdür!" **(Qurani-Kərim, 2015, s. 41)**. Başdaşının baş tərəfində iri planda ərəb dilində "Lə iləhə illəllah, Muhəmmədən rəsul Allah" ("Allahdan başqa Allah yoxdur, Məhəmməd Allahın elçisidir!" sözləri həkk edilmişdir (şəkil 8).

Lövhənin mərkəzində yuxarıdan çatma tağla tamamlanan şəkildə hazırlanmış çərçivənin içərisində ərəb dilində altı sətirdə həkk olunan kitabənin mətninin tərcüməsi belədir: "Allahın rəhmətinə və behiştinə qovuşmuş, kiçik günahları bağışlanmış, mərhum, məqbul, qətlə yetirilmiş, böyüklərin qəlblərinin sevimlisi, gözəl əməllər, cəmiyyətdə fəzilət sahibi, aləmlərin Rəbbinin

kəlamının (Qurani-Kərimin-H.S.) hafizi, dövlətin və dinin günəşi, mərhum Məhəmməd Əhməd oğlu – sınanmış, yüksək ağıl sahibi, böyük sədr, əsil-nəcabətli, öncül (qabaqda gedən), ibadətə layiq bilinən, bəyənilmiş uca məqam. Zilqədə ayı, yeddi yüz qırx yeddinci il".

Zilqədə ayı, 747 h.i. = 13.02 – 14.03. 1347-ci il.

Kitabədə mərhumun adına əlavə edilmiş çox yüksək titul və epitetlər onun dövrünün məşhur alimi, zəmanəsinin görkəmli adamlarından biri olduğunu təsdiq edir. Onun daşıdığı "böyük sədr" titulu diqqəti xüsusilə cəlb edir. Dini titul və vəzifə olan, qaynaqlarda "sədr", "sədr əl-əzəm", "sədr al-müəzzəm", "sədr əl-kəbir" və s. şəkildə təqdim olunan sədrlər orta əsrlər zamanı görkəmli ruhani alimlərdən təyin edilir və dövlət aparatında əsas şəxslərdən biri hesab olunurdular. Orta əsr müəlliflərinin "yüksək vəzifə" kimi dəyərləndirdiyi **(Fərzəliyev Ş., 1983, s. 47)** sədr vəzifəsi Məhəmməd Əhməd oğlunun yaşadığı dövrdə və xidmət etdiyi Hülakü dövlət aparatında da mühüm dövlət vəzifələrindən biri olmuşdur.

Kitabənin tarixindən aydın olur ki, böyük sədr Məhəmməd Əhməd oğlunun xatirəsinə hazırlanan kitabə 1347-ci ildə hazırlanmışdır. Bü dövr (XIV əsrin 30-40-cı illəri) Azərbaycanda Hülakülərin hakimiyyətinin zəifləməsi, tənəzzülü, Çobani feodallarının faktiki olaraq hakimiyyətə yiyələnmələri ilə səciyyələnir **(Piriyev V., 2004, s. 13)**. Məlum olduğu kimi Naxçıvan bölgəsi Hülakülər dövlətinin yarandığı andan onun tərkibinə daxil olmuş, yeni yaradılan inzibati ərazi vahidlərindən biri "Naxçıvan tüməni" adlandırılmışdı **(Piriyev V., 2004, s. 23-24)**. Çobani hökmdarlarının Azərbaycanda, o cümlədən Naxçıvanda yeritdiyi siyasət, xüsusilə ağır vergi siyasəti və s. xalq kütlələrinin narazılığını artırırdı. Təkcə bir faktı qeyd etmək yerinə düşər ki, Naxçıvan nahiyəsindən yığılan vergilərin ümumi məbləği Küştəsbi və Şirvan müstəsna olmaqla Azərbaycanın digər nahiyələrinə nisbətən daha çox idi və Elxanilərin qoyduqları ağır vergi sistemi kütlələrin gəlirinin dörddə üç hissəsini təşkil edirdi **(Çələbi E., 1997,**

**s. 89-90)**. Bütün bunlar əhalinin səbir kasasını daşdırmış, nəticədə 1344, 1346, 1352, 1357-ci illərdə hakimiyyətə qarşı üsyanlar baş vermişdi. Ancaq bu üsyanlar hakimiyyət orqanları tərəfindən amansızcasına yatırılmış, əhaliyə qanlı divan tutulmuşdu.

Fikrimizcə, kitabədə adı çox yüksək titul və epitetlərlə qeyd olunan, Hülakülərin dövlət aparatında mühüm vəzifə tutan, "böyük sədr" vəzifəsinə qədər yüksələn, Məhəmməd Əhməd oğlu məhz bu üsyanların, ehtimal ki, 1346-cı il üsyanının yatırılması zamanı öldürülmüş, bu səbəbdən də kitabədə "məqtul" (qətlə yetirilmiş) kimi təqdim olunmuşdur. Qətlə yetirildikdən sonra mərhum Məhəmməd Əhməd oğlu Naxçıvan şəhərində, Naxçıvanqala ərazisində dəfn olunmuşdur. Haqqında bəhs olunan kitabənin həkk olunduğu başdaşı isə 1347-ci ildə onun qəbrinin üzərinə qoyulmuşdur.

Kitabədə onun adına əlavə edilən "öncül" ("qabaqda gedən") sözlərinə əsasən ehtimal etmək olar ki, mərhum Məhəmməd Əhməd oğlu Naxçıvan şəhərinin sosial-siyasi həyatında fəal iştirak edən bir adam kimi bu üsyanların təşkilatçılarından olmuşdur. Həmçinin, kitabədə onun adının "cəmiyyətdə fəzilət sahibi", "dövlətin və dinin günəşi", "bəyənilmiş uca məqam" və s. bu kimi sözlərlə müşayiət olunması Məhəmməd Əhməd oğlunun zəmanəsinin nüfuzlu və mötəbər şəxsiyyətlərindən biri, yüksək vəzifə – məqam sahibi olmasından xəbər verir.

Muzeyin ekspozisiyasında qədim Azərbaycan torpağı, həyatı daim Naxçıvanla sıx surətdə bağlı olan, hazırda indiki Ermənistan Respublikasının tərkibində olan Zəngəzur mahalının Urud kənd qəbiristanlığından gətirilmiş 3 ədəd sənduqə tipli qəbirüstü xatirə abidəsi nümayiş etdirilir. Bu abidələr üzərində həkk edilən kitabələri AMEA-nın müxbir üzvü M.Nemət 1961-ci ildə Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutunun və Ermənistan SSR Elmlər Akademiyası Arxeologiya İnstitutunun birgə ekspedisiyasının tərkibində tədqiqat apararkən tədqiq etmişdir. Həmin vaxt alim Urud kənd qəbiristanlığında mövcud olan xatirə abidələrindən – sənduqə və daş qoç heykəli tipli

abidələr üzərində həkk edilən kitabələrdən yalnız bir qismini, cəmi 18 ədədini tədqiq etmiş və tədqiqatının nəticələrini nəşr etdirmişdir. Ancaq alimin tədqiqatından xüsusilə onların elmi dövriyyəyə daxil edilməsindən sonra ermənilər həmin abidələri kütləvi surətdə məhv etməyə başlamışlar. 1984-cü ildə Urud kəndində etnoqrafik material toplayarkən tarix üzrə fəlsəfə doktoru (hazırda AMEA-nın müxbir üzvü) Hacı Qadir Qədirzadə bu vəziyyəti görmüş və Naxçıvana qayıtdıqdan sonra müşahidə etdiyi vəziyyət haqqında həmin vaxt Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin katibi vəzifəsində çalışan, çox vətənpərvər insan olan Həmid Cəfərova məlumat vermişdi. Həmid Cəfərov isə bu məsələ ilə şəxsən məşğul olmuş, Urud kəndinə getmiş, qəbiristanda qalan 3 ədəd sənduqə tipli qəbirüstü xatirə abidəsini gətirərək Naxçıvan Dövlət Tarix Muzeyinə təhvil vermişdi. Hazırda həmin abidələr muzeyin ən qiymətli eksponatlarından biri kimi ekspozisiyada nümayiş etdirilir.

2. Boz rəngli daşdan hazırlanmış sənduqə tipli xatirə abidələrindən birinin (88x42x21 sm) yan tərəfində iki sətirdə ərəb dilində həkk edilmiş kitabənin (şəkil 9) mətni belədir: “Allah, Məhəmməd, Əli! Kəndxuda Şeyx Rizanın oğlu Əmrusəl. 883-cü ilin ramazan ayında. Ağvan övladlarından”.

Ramazan, 883 h.i=26.11 – 25.12.1478-ci il.

3. Boz rəngli daşdan hazırlanmış ikinci sənduqə tipli xatirə abidəsinin (92x34x28 sm) üst tərəfində həkk edilmiş kitabənin (Şəkil 10) mətni isə belədir: “Allah, Ya Məhəmməd, Ya Əli! Mülahidin oğlu Xanməhəmməd. Tarix: 983-cü il”.

983 h.i.= 12.04.1575 – 30.03.1576-cı il.

4. Muzeydə nümayiş etdirilən üçüncü sənduqə tipli xatirə abidəsi (şəkil 11) də boz rəngli daşdan hazırlanmışdır (97x32x22 sm). Abidənin yan tərəfində həkk edilmiş kitabənin mətni belədir: “İmamqulunun oğlu Bəhmən. 986-cı il”.

986 h.i= 10.03.1578 – 27.02.1579-cu il.

Kitabənin sonunda üzü kitabəyə tərəf, quyruğunu belinə qaldırmış bəbir təsviri həkk olunmuşdur.

Keçən yüzilliyin 70-ci illərinin əvvəllərində Culfa rayonu ərazisində, məşhur Əlincəqalanın ətəklərindən axan Əlincəçayın sol sahilində, Xanəgah kəndindən təxminən 1 km şərq tərəfdə yerləşən xanəgahda bərpa işləri aparılarkən kompleksin şərq divarının yanından, torpağın altından dörd ədəd sənduqə tipli qəbirüstü xatirə abidəsi aşkar edilmişdir. Mərmərin xüsusi növü olan oniksdən hazırlanmış, biri istisna olmaqla üçü bədii tərtibat cəhətdən çox nəfis şəkildə bəzədilmiş bu abidələrin üzərində kitabələr həkk edilmişdir. Bu kitabələrin təqdim etdiyi və bizə çatdırdığı məlumatlar sayəsində xanəgahda yaşamış və fəaliyyət göstərmiş bir neçə sufi şeyxinin, onların ailə üzvlərinin adları aşkar edilərək elmi dövriyyəyə daxil edilmişdir. Həmçinin kitabələrdə qeyd olunan ölüm tarixləri əsasında mərhumların yaşadıqları dövr və xanəgahın fəaliyyət çərçivəsi müəyyənləşdirilmişdir.

Bu abidələr aşkar olunduqdan sonra onlardan üç ədədi Naxçıvan Dövlət Tarix Muzeyinə təhvil verilmişdir. Son dövrlərə qədər muzeydə saxlanılan həmin abidələrdən iki ədədi 2014-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun Sərəncamı ilə yaradılan “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksinə təhvil verilmişdir. Bir sənduqə tipli qəbirüstü xatirə abidəsi isə muzeyin ekspozisiyasında nümayiş etdirilməkdədir.

5. Bədii tərtibat cəhətdən digər abidələrə nisbətən daha gözəl hazırlanmış bu sənduqə tipli xatirə abidəsi (139x31x26 sm) tamamilə salamat vəziyyətdədir, heç bir aşınmaya məruz qalmamışdır. Səthi çox incə nəbati və həndəsi ornamentlərlə nəfis şəkildə bəzədilmişdir (şəkil 12). Baş tərəfdə düzəldilmiş düzbucaqlı çərçivənin içərisində iki sətirdə ərəb dilində mərhum haqqında məlumat verən kitabə həkk edilmişdir. Kitabənin mətninin tərcüməsi belədir: “Bu bağça Kamil Şeyx Hacı Hilalullahın qızı, mərhumə Mikeysə xanımındır **(Сафаров Ф., 1979, с. 57; Неймат М., 2001, с. 68)**.

Sənduqənin səthinin kənarları boyunca lentvari haşiyə

şəklində yazılan kitabənin əsas hissəsi “Qurani-Kərim”in “Bəqərə” surəsindən götürülmüşdür: II-255. Kitabənin sonunda isə mərhumun vəfat tarixini əks etdirən belə bir mətn həkk edilmişdir: “Səkkiz yüz doxsan yeddinci il”.

897 h.i. = 14.11.1491 – 22.10.1492-ci il.

Göründüyü kimi, kitabədə mərhumə Mikeysə xanımın atası Hacı Hilalullah “kamil şeyx” (şeyx əl-kamil) titulu ilə təqdim olunmuşdur. Mərhumənin atasının adına əlavə edilən bu titul göstərir ki, Hacı Hilalullah yaşadığı dövrdə sufiliyin dörd idrak mərhələsini uğurla başa vurmuş, şeyxlik mərtəbəsinə yüksəlmişdir. Həmçinin kitabədə “Şeyx” titulunun əvvəlinə “kamil” sözünün əlavə olunması isə onun nəinki mənəvi kamilləşmə sahəsində ən yüksək məqama çatdığını, hətta kamil insan kimi yetişdiyini də təsdiq edir. Belə bir titula orta əsrlər zamanı müsəlman Şərqinin ən görkəmli şəxsiyyətləri yüksələ bilmişlər. Həmçinin bu titul onun xanəgahda fəaliyyət göstərməsini və yüksək nüfuz sahibi olmasını təsdiq edir. Şeyxlikdə “Şeyx” titulu alması, hətta bu sahədə kamilləşmə səviyyəsinə çatması Şeyx Hacı Hilalullahın XV yüzillikdə bir müddət xanəgahın rəhbər şeyxi olduğunu göstərir **(Səfərov H., 1996, s. 100-101)**. Qaynaqlar da təsdiq edirlər ki, orta əsrlər zamanı “şeyx” titulu ilə xanəgah rəhbərlərinə, təriqət başçılarına, dini rəhbərlərə müraciət edilirmiş.

Kamil şeyx Hacı Hilalullah yaşadığı dövrdə bir müddət Əlincəçay sahilindəki xanəgahın rəhbər şeyxi, yaxud da rəhbərlərindən biri olmuşdur. Bir sıra sufi təriqətlərində olduğu kimi adətə uyğun olaraq o, ailəsi ilə xanəgahda yaşamışdır. Xanəgahın divarı yanında dəfn olunmasına əsasən demək olar ki, Mikeysə xanım da atası ilə, yaxud ailə qurmuşdursa əri və övladları ilə (ehtimal ki, onun əri xanəgahın üzvü olan dərvişlərdən biri olmuşdur) birlikdə orada yaşamışdır. Çünki xanəgah divarları yanında, adətən orada yaşayan sufi şeyxləri, onların ailə üzvləri, xanəgahda ibadət və zikrlə məşğul olan dərvişlər dəfn edilirdi.

Qeyd etmək yerinə düşər ki, xanəgahın şərq divarı yanında aşkar edilən bu sənduqə tipli qəbirüstü dörd xatirə abidəsi

ornamentlərinin zənginliyi baxımından və bədii tərtibat cəhətdən gözəl sənət nümunəsi kimi diqqəti cəlb edir. Orta əsrlər zamanı mərhumlarının xatirəsinə bu cür qəbirüstü abidələr düzəltmək bütün ailələrə müyəssər olan iş deyildi. Bunu ancaq imkanlı ailələr edə bilərdi. Bu cəhət onun atasının, ərinin və özünün nüfuzlu, həm də imkanlı şəxsiyyət olmasından irəli gəlmişdir. Həmçinin, orta əsrlərdə, elə müasir dövrdə də gənc və ya cavan yaşlarında vəfat etmiş mərhumların xatirəsinə daha gözəl və möhtəşəm xatirə abidələri düzəldilməsi fikrini əsas götürərək demək olar ki, Mikeysə xanım cavan yaşlarında vəfat etmiş və xanəgahda yaşadığı üçün orada da dəfn edilmişdir.

Orta əsrlərdə bəzi qadınların sufi təriqətlərinin üzvü olduqlarını, elə bu hala Əlincəçay sahilindəki xanəgahın kitabələrində də rast gəlinməsi faktına əsasən demək olar ki, Mikeysə xanım həm də xanəgahda fəaliyyət göstərən sufi təriqətinin üzvü və ya təəssübkeşi olmuşdur.

## “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində nümayiş etdirilən epiqrafik abidələr

Qədim və orta əsrlər zamanı düşmən hücumlarından qorunmaq məqsədi ilə strateji əhəmiyyətə malik yaşayış məskənlərinin, xüsusilə şəhərlərin ətrafında qala divarları çəkilirdi. Yaxın Şərqin mühüm ticarət, sənətkarlıq, elm, təhsil və mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan şəhəri də belə yaşayış məskənlərindən biri olmuşdur. Qədim zamanlarda indiki Naxçıvan şəhərinin cənub-şərq tərəfindəki ərazidə yerləşən Naxçıvan şəhəri də möhtəşəm qala divarları ilə əhatə olunmuşdur. Yerli əhali arasında “Naxçıvanqala”, “Köhnəqala”, “Torpaqqala” adı ilə tanınan qala ərazisindən əldə olunan arxeoloji materiallar, xüsusilə daş gürzlər Tunc dövründə (e.ə. III-II minilliklər) qədim duz mədənlərində duz çıxarılmasında istifadə olunan alətlərlə eyni olduğu üçün bu qalanın da həmin vaxtlardan inşa olunduğunu təxmin etmək olar. İnşa tarixi dəqiq məlum olmayan qalanın ilk orta

əsrlər zamanı tikildiyi haqqında da fikirlər vardır.

XVII əsrin ortalarınadək müdafiə istehkamı kimi mövcud olmuş Naxçıvanqala müharibələr nəticəsində dağıdılmış və əvvəlki möhtəşəmliyini itirmişdir. Mühüm tarixi hadisələrin şahidi olan, həm də müxtəlif təbii fəlakətlərlə üzləşən qala zəmanəmizədək yarımdağılmış vəziyyətdə gəlib çatmışdır. Orta əsrlər zamanı Naxçıvan şəhərinin sosial-siyasi həyatında tutduğu yüksək yer və mövqe nəzərə alınaraq Naxçıvanqala Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun tapşırığı ilə orijinallıq saxlanmaqla yüksək səviyyədə bərpa olunmuşdur. 2010-cu ildə başlanan bərpa işləri zamanı bu tarixi ərazidə yenidənqurma işləri aparılmış, Naxçıvanqalanın əvvəlki görkəmi özünə qaytarılmışdır. Bərpa işləri başa çatdıqdan sonra Ali Məclisin Sədri 5 iyun 2013-cü ildə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında Sərəncam imzalamışdır **(Şərq qapısı, 6 iyun 2013-cü il).** Beləliklə, Naxçıvanın qədim tarixi-mədəni irsinin mühafizəsini təmin etmək məqsədi ilə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi yaradılmışdır. Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi şənliklərində iştirak etmək üçün Naxçıvana gələn Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 7 aprel 2014-cü ildə bu Kompleksi açmış, onun Muzeyi ilə tanış olmuş, tapşırıq və tövsiyələrini vermişdir **(Naxçıvan Muxtar Respublikası – 90, 2014, s. 23-24)**.

Qalanın mərkəzində dairəvi planda yaradılmış iri həcmli muzeydə Naxçıvan ərazisindəki bir sıra arxeoloji abidələrdən aşkar olunmuş və bölgə tarixinin müxtəlif dövrlərini əks etdirən keramika məmulatları, xalçalar, geyimlər, silahlar və s. eksponatlarla yanaşı ərəb əlifbasının müxtəlif xətləri ilə həkk edilmiş bir neçə epiqrafik sənəd – kitabə də nümayiş etdirilir. Muzeyə gələn yerli və əcnəbi vətəndaşlara, turistlərə, ümumiyyətlə muzeyə baxanlara dəqiq məlumat verilməsi məqsədi ilə burada onlar haqqında, həmin kitabələr haqqında xronoloji ardıcıllıqla məlumat veriləcəkdir.

XX yüzilliyin 70-ci illərində Culfa rayonunun Xanəgah

kəndinin şərq tərəfində yerləşən Xanəgah kompleksində torpağın altından aşkar edilmiş və Naxçıvan Dövlət Tarix Muzeyinə təhvil verilmiş sənduqə tipli qəbirüstü xatirə abidələrindən iki ədədi "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi yaradılarkən buraya gətirilmiş və nümayiş etdirilmək üçün ekspozisiyaya qoyulmuşdur.

1. Mərmərin xüsusi növü oniksdən hazırlanmış, səthi gözəl nəbati və həndəsi ornamentlərlə bəzədilmiş sənduqə tipli qəbirüstü xatirə abidələrindən biri (110x29x19 sm) ortadan sınaraq iki yerə bölünmüşdür. Bu abidənin (şəkil 13) səthinin kənarlarında lentvari haşiyə şəklində Qurani-Kərimdən bir ayə (Ayət əl-Kürsü) həkk edilmişdir: Qurani-Kərim II-255.

Abidənin səthinin baş tərəfində düzəldilmiş çərçivə içərisində isə belə bir kitabə həkk edilmişdir: "Bu bağça əmir Ərəbşahın qızı, mərhumə Qureyş Şahba[nu]nundur. 848-də" **(Сафаров Ф.Я., 1979, с. 58)**.

848 h.i. = 20.04.1444 – 08.04.1445-ci il.

Mərhumə Qureyş Şahbanunun şəxsiyyəti haqqında hələlik sanballı elmi fikir söyləmək mümkün olmasa da, daşıdığı titul göstərir ki, onun atası Ərəbşah orta əsrlərdə heç də hamıya nəsib olmayan "Əmir" tituluna layiq görülən görkəmli dövlət xadimi, hərbçi olmuşdur.

2. Əlincəçay sahilindəki xanəgahda aşkar olunmuş, hazırda bu muzeydə nümayiş etdirilən, əvvəlki sənduqə ilə müqayisədə nisbətən kiçik ölçüdə (73x23x23 sm) hazırlanmış, ancaq bədii tərtibat cəhətdən ondan heç də geri qalmayan xatirə abidəsi (şəkil 14) üzərində müxtəlif məzmunlu kitabələr yazılmışdır. Abidənin baş tərəfindəki düzbucaqlıda iki sətirdə, ərəb dilində belə bir kitabə həkk olunmuşdur: "Bu bağça əmir Xəlifənin oğlu, mərhum əmir Şahmənsurundur" **(Сафаров Ф.Я., 1979, с. 57-58)**.

Göründüyü kimi, kitabə XV yüzillikdə yaşamış, orta əsrlər zamanı yüksək titul sayılan "Əmir" rütbəsinədək yüksəlmiş iki nəfər görkəmli şəxsiyyətin, ata və oğulun adını bizə qədər gətirib çatdırmışdır.

Sənduqənin səthinin kənarları boyunca lentvari haşiyə şəklində dini xarakterli epiqrafik motiv həkk edilmişdir. Dua xarakterli bu dini mətnin ardınca isə mərhum əmir Şahmənsurun vəfat tarixi qeyd edilmişdir: "Səkkiz yüz doxsan səkkizinci ilin mübarək ramazan ayında fani dünyadan əbədi dünyaya köçdü" **(Сафаров Ф.Я., 1979, с. 57-58)**.

Hicri-qəməri təqvimi ilə 898-ci ilin ramazan ayı 16.06 – 15.07.1493-cü ilə müvafiqdir.

Əmir Şahmənsura məxsus bu xatirə abidəsini onunla birlikdə aşkar olunan və bədii tərtibatı ilə diqqəti cəlb edən digər xatirə abidələrindən fərqləndirən cəhət ondan ibarətdir ki, bu abidənin hər iki yanında gözəl ornamentlər fonunda iki ədəd çərçivə açılmış və onların içərisində kitabələr yazılmışdır. Belə ki, sənduqənin sağ yanında açılmış çərçivələrdə Qurani-Kərimin 55-ci (ər-Rəhman) surəsindən 26-27-ci ayələr, sol yanında isə çərçivələr içərisində Qurani-Kərimin 29-cu (əl-Ənkəbut) surəsindən 57-ci ayə (Bütün canlılar ölümü dadacaqdır!) və "Ey bütün təklərin dostu!" sözləri həkk edilmişdir.

3. Muzeydə yaşılımtıl rəngli daşdan hazırlanmış bir ədəd başdaşı tipli qəbirüstü xatirə abidəsi (54x46x7 sm) üzərində həkk edilmiş məzar kitabəsi də mühafizə edilir. Başdaşı vaxtilə Əlincəçay xanəgahından gətirilərək Naxçıvan Dövlət Tarix Muzeyinə təhvil verilmişdir. Həmin kitabə 2014-cü ildən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən açılış anından "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində nümayiş etdirilir. Başdaşı üzərində həkk edilmiş məzar kitabəsi "Şeyx ül-əzəm" titulu daşımış adamın xatirəsinə həsr olunmuşdur (şəkil 15). Ərəb dilində süls xətti ilə həkk edilmiş və dövrümüzədək dörd sətri qalmış kitabənin mətninin tərcüməsi belədir: "Peyğəmbər dedi: ...Şeyx ül-Əzəm, İmam əl-Mükərrəm, zahid… fani dünyadan əbədi dünyaya köçdü" **(Сафаров Ф., 1987-1, с. 66-67).**

Təəssüf ki, kitabənin axırıncı sətirləri ovulub töküldüyü, məzar kitabələrində isə mərhumların adı mətnin axırında həkk edildiyi üçün vəfat edən adamın adını müəyyən etmək mümkün

olmamışdır. Kitabədə bu şəxsiyyətin adı "hörmətli imam" (imam əl-Mükərrəm), "zahid" epitet və titulları ilə müşayiət olunur. Orta əsrlər zamanı nadir insanların daşıdığı bu titul və epitetlər onun görkəmli şəxsiyyət, dövrünün sayılıb-seçilən insanlardan biri olduğunu təsdiq edir.

Məlumdur ki, ərəb sözü olan "imam" irəlidə durmaq, başçılıq etmək mənasındadır. İslamın sünni və şiə məzhəblərinin hər ikisində məsciddə namaz qılınarkən qabaqda dayanan, namaza rəhbərlik edən adam imam adlanır. Həmçinin, bütün müsəlman icmasının, vahid icmanın başçısı da imam adlanır. Şiələr üçün Həzrəti Əli və Məhəmməd peyğəmbərin qızı Fatimənin övladlarından, nəvə və nəticələrindən olan on bir nəfər də imam sayılırlar (Həzrəti Əli ilə birlikdə 12 imam). Qeyd etmək lazımdır ki, sünnilərdə və şiələrdə imam termini, həm də dini başçılara, cərəyan və məslək rəhbərlərinə və s. verilən ad olmuşdur. Deməli, bu termin bəzi hallarda sufi təriqəti rəhbərlərinə də verilirmiş. Bu fikri naməlum mərhumun adına əlavə edilən "Şeyxül-əzəm" (ən böyük şeyx) titulu da təsdiq edir. "Şeyx" titulunu orta əsrlər zamanı müxtəlif sufi təriqətlərinə mənsub olan xanəgah rəhbərləri daşıyırdılar.

Müsəlman Şərqində dünya nemətlərindən əl çəkərək tərkidünya həyat keçirən, ömrünü ancaq ibadətlə, az yeməklə keçirən, tək-təhna yaşamağa üstünlük verən adamlar "zahid" adlanırdılar. Dini ədəbiyyatda zahidlər belə vəsf olunur: evi yoxdur ki, xaraba qalanda dərd çəksin; övladı yoxdur ki, öləndə onun üçün qəmgin olsun; heç bir şeyi yoxdur ki, əlindən gedəndə dərdlənib kədərlənsin. Onu heç bir insan tanımır ki, Allahın zikrindən bir an ayırıb məşğul etsin; onun xoşladığı heç bir təam yoxdur ki, onu sual edib istəsin və onun heç bir yumşaq libası da yoxdur. ... gecələrin ibadət zəhmətindən və gündüzləri oruc olmaqdan zahidlərin rəngi sarı olur. Allah-təalanı zikr etməkdən dilləri quruyub lal olur. Onlara öz nəfslərindən qüvvət verilir ki, ibadət etsinlər. Bu ibadət nə Cəhənnəm qorxusundan, nə də Cənnət şövqündəndir; onlar asimanların və yerin mələklərinə baxıb başa düşürlər

ki, pak olan Allah ibadətə layiqdir **(Əhmədov Ə., 2001, s. 46)**. Zahid titulunu əsasən hər hansı bir sufi təriqətinə mənsub olan dərvişlər daşıyırdılar. Nəfsi hər şeydən saxlamağa çağıran zahidlər zikrə, Allahı tez-tez xatırlamağa və Allaha pənah gətirməyə xüsusi əhəmiyyət verirdilər. İslamda onlar sufilərin sələfləri olmuş və sufilər üçün dindarı Allaha yaxınlaşdıran pillələrdən birinə çevrilmişlər.

Ona görə də tam qətiyyətlə demək olar ki, bu titulu daşıyan, ancaq adı zəmanəmizədək gəlib çatmayan şeyx Əlincəçay sahilində fəaliyyət göstərən sufi təriqətinə mənsub dərviş olmuşdur. Daşıdığı titul və epitetlər, xüsusilə "Şeyx ül-əzəm" titulu onun məşhur ilahiyyatçı alim, görkəmli din xadimi, Əlincəçay sahilindəki xanəgahın rəhbərlərindən biri olması fikrini söyləməyə əsas verir.

Məzar kitabələrində mərhumların vəfat tarixi əksər hallarda mətnin sonunda yazıldığı üçün kitabənin axır hissəsində yazılan sözlər kimi onun tarixi də məhv olmuşdur. Ona görə də onun tarixini dəqiq müəyyənləşdirmək mümkün olmamışdır. Ancaq oxşar abidələrlə müqayisəli təhlilinə əsasən kitabənin tarixini XV-XVI əsrlərə aid etmək olar.

4. Baş tərəfi sınıb itmiş başdaşı parçası vaxtilə Ordubad şəhərinin qərb tərəfində yerləşən "Qoç" qəbiristanlığından gətirilərək Ordubad rayon Tarix-diyarşünaslıq muzeyində nümayiş etdirilmiş, sonralar Naxçıvan Dövlət Tarix Muzeyinə təhvil verilmişdir. Hazırda "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində nümayiş etdirilir. Üzərindəki kitabə qalıqlarından məlum olur ki, başdaşının səthinin yanlarında sol tərəfdə aşağıdan başlayaraq lentvari haşiyə şəklində Qurani-Kərimdən II surənin 255-ci ayəsi (Ayət əl-Kürsü) həkk edilmişdir (şəkil 16). Başdaşının səthinin mərkəz hissəsində qalan 3 sətirlik kitabənin mətninin tərcüməsi belədir: "Mərhum Şəmsəddin Məhəmmədin oğlu Nəsrullah – torpağı yumşaq olsun. İyirmi rəbiəl-əvvəl, doqquz yüz otuz ikinci il tarixdə".

20 rəbiəl-əvvəl 932 h.i. = 06.01.1526-cı il.

5. Ağ rəngli mərmərdən hazırlanmış başdaşı tipli qəbirüstü xatirə abidəsinin bir parçası. Başdaşının ancaq axırıncı sətri yazılan aşağı hissəsi qalmışdır. İki parçadan ibarətdir (şəkil 17). Mərmər lövhənin sol tərəfi də sındığı və bizədək qalmadığı üçün kitabənin mətni tam deyildir. Tarixdən ibarət olan mətnin qalan hissəsi də tam deyildir. Tarixdən ancaq bu sözlər qalmışdır: “... altmış dördüncü ildə”.

Xətt xüsusiyyətlərinə əsasən kitabəni XVI əsrə aid etmək olar.

6. Mərmərdən hazırlanmış sənduqə tipli qəbirüstü xatirə abidəsinin bir parçası üzərində kitabə vardır. Abidə (81x27x11 sm) keçən yüzilliyin 70-ci illərində Əlincəçay xanəgahından Naxçıvan Dövlət Tarix Muzeyinə gətirilmişdir. Abidə üzərindəki kitabə keçən əsrin 80-ci illərində tam halda tərəfimizdən tədqiq olunmuşdur. Həmin vaxt sənduqə iki yerə bölünsə də hər iki parçası qaldığından bütöv olan kitabənin (şəkil 18) mətni tam oxunmuşdu. Sənduqənin yan tərəflərində qalan kitabə motivlərindən aydın olur ki, mətn Qurani-Kərimin “İxlas” (CXII) surəsinin mətnindən ibarət olmuşdur: “1. (Ya Peyğəmbər! Allahın zatı və sifətləri haqqında səndən soruşan müşriklərə) de: “(Mənim Rəbbim olan) O Allah birdir (Heç bir şəriki yoxdur); 2. Allah (heç kəsə, heç nəyə) möhtac deyildir! (Hamı Ona möhtacdır; O əzəlidir, əbədidir!) 3. O, nə doğmuş, nə də doğulmuşdur! (Allah Özünə heç bir övlad götürməmişdir!) 4. Onun heç bir tayı-bərabəri (bənzəri) yoxdur!”” **(Qurani-Kərim, 2015, s. 604)**

Bu surədən sonra həkk edilən kitabənin mətni isə mərhuma aid olmuşdur: “Əmirzadə Qəzənfər 10 cəmadi əs-səni 1000-ci il”. **(Сафаров Ф.Я., 1987-1, с. 48-49).**

10 cəmadi əs-səni 1000 h.i. = 24.03.1592-ci il.

Sənduqənin baş tərəfində həndəsi ornament, mərkəzində isə səkkiz ləçəkli çiçək təsviri həkk olunmuşdur.

7. Kiçik kitabə parçası (şəkil 19) üzərində kitabə fraqmenti. Kitabədə qalan sözlərə əsasən mətnin Qurani-Kərimdən götürülmüş ayədən ibarət olduğu aydın olur: II-255.

XVI əsr.

8. XX yüzilliyin 60-cı illərində Ordubad şəhər Came məscidinin ətrafında bərpa işləri aparılarkən torpağın altından tapılmış və Naxçıvan şəhərindəki Dövlət Tarix Muzeyinə təhvil verilmiş başdaşı tipli xatirə abidəsi üzərində kitabə. Sarımtıl rəngli mərmərdən hazırlanmış, yuxarıdan yarımdairə şəklində tamamlanan başdaşı (72x38x8 sm) üzərində ərəb dilində süls xətti ilə altı sətirdə həkk edilmiş kitabənin (şəkil 20) mətni belədir: "Quran LV-26. Mərhum, bağışlanmış Mirzə İnayət ən-Nəsiri ət-Tusinin qızı, mərhumə, günahları bağışlanmış İzz Şərəf xanımın vəfat tarixi: rəcəbəl-mürəccəb ayının əvvəli, çərşənbə günündə. 1169" **(Сафаров Ф.Я., 198-1, с. 65-66)**.

Rəcəb ayının əvvəli, çərşənbə günü, 1169 h.i. = 07.04.1756-cı il.

Görkəmli ensiklopedist alim Nəsirəddin Tusi nəslinə aid iki şəxsiyyətin adını (Mirzə İnayət və qızı İzz Şərəf xanım) təqdim edən kitabə Nəsirəddin Tusi nəslinin qədim zamanlardan Ordubad şəhərində və ətraf kəndlərdə yaşamasını təsdiq edən çox mühüm epiqrafik sənəddir.

9. Ağ rəngli mərmərdən hazırlanmış başdaşı tipli qəbirüstü xatirə abidəsi üzərində həkk edilmiş kitabə (şəkil 21). Mətnin tərcüməsi belədir: "Quran LV-26. Kərbəlayi Hüseynin arvadı Sona xanım. İyirmi səfər 1238-ci ildə" **(Сафаров Ф.Я., 198-1, с. 79)**.

20 səfər 1238 h.i. = 06.11.1822-ci il.

10. Boz rəngli daşdan hazırlanmış başdaşı (96x19x16 sm). Başdaşının baş tərəfində həkk edilən kitabənin (şəkil 22) mətni belədir: "Fəthullah. 1238".

1238 h.i. = 18.09.1822 – 06.09.1823-cü il.

11. Bir müddət Naxçıvan Dövlət Tarix Muzeyində mühafizə olunan, hazırda Naxçıvanqala Tarix-Memarlıq Muzey Kompleksinin ekspozisiyasında nümayiş etdirilən başdaşı üzərində kitabə (şəkil 23). Sarımtıl rəngli mərmərdən hazırlanmış başdaşı tipli xatirə abidəsinin üzərində nəstəliq xətti ilə həkk edilmiş kitabənin mətninin tərcüməsi belədir: "O əbədidir! Hər bir kəs

(hər bir canlı) ölümü dadacaqdır (Qurani-Kərim, XXIX-57) **(Quran-i Kərimin..., 2015, s. 402)**. Həqiqətən dünya fanidir. Dünya əbədi ev deyil. Həqiqətən dünya hörümçək toru dəyərində deyil. Cəfərqulu bəy Kəngərlinin oğlu Vəliqulu bəyin vəfat tarixi: 1260-cı il, aylardan şəban əl-müəzzəm ayının yeddisində" **(Сафаров Ф.Я., 1987-1, с. 80-81)**.

7 şəban 1260 h.i. = 22.08.1844-cü il.

Göründüyü kimi məzar kitabəsi Naxçıvanın qədim sakinlərindən olan Kəngərli tayfasına mənsub Cəfərqulu bəyin oğlu Vəliqulu bəyin xatirəsinə hazırlanmışdır.

Rus alimi, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin elmi katibi V.M.Sısoyev 1926-cı ildə muxtar respublikada elmi ezamiyyətdə olarkən Naxçıvan şəhərinin cənub tərəfindəki İmamzadə kompleksində tədqiqatlar aparmış və kompleksin özəyini təşkil edən əsas türbənin şimal tərəfindəki ikinci məqbərə haqqında yazmışdır ki, kompleksin bu hissəsi Naxçıvan xanlarının məqbərəsi hesab edilirmiş. Alimin yazdığına görə o imamzadədə olarkən orada Abbasqulu xanın hicri 1337-ci ildə (miladi, 1918-ci ildə) vəfat etmiş oğlu Mustafaqulu xan Naxçıvanskinin qəbrini görmüşdür **(Сысоев В.М.. 1929, с. 87-121)**. Müsəlman dünyasında İslam müqəddəslərinin qəbirlərinin yanında və ətrafında dəfn olunmaq adəti geniş yayıldığından, bu müqəddəs yerdə isə səkkizinci imam Rzanın oğlunun dəfn olunması ehtimal edildiyindən Kəngərli tayfa başçılarının və Naxçıvan xanlarının vəfat edən ailə üzvləri burada – İmamzadə kompleksində sonralar inşa edilən ikinci türbədə dəfn olunmuşlar. Həmçinin burada keçirilən dəfnlər hesabına kompleksin ətrafı da böyük bir qəbiristanlığa çevrilmişdir. Ancaq çox təəssüflər olsun ki, sovet hakimiyyəti illərində bu qəbiristanlıq, həmçinin İmamzadə kompleksinin içərisində olan Kəngərli tayfa başçılarına və Naxçıvan xanlarına məxsus qəbirlər dağıdılmış və onlardan heç bir əsər-əlamət qalmamışdır.

Ehtimal ki, haqqında bəhs etdiyimiz Vəliqulu bəy Kəngərlinin də qəbri İmamzadə kompleksinə daxil olan ikinci türbədə və

yaxud kompleksin ətrafındakı məzarlıqda olmuş, XX yüzilliyin 20-30-cu illərində, repressiya dövründə dağıntıya məruz qalmışdır. Fikrimizcə, həmin vaxt qəbrin üstündə qoyulan mərmər başdaşı bədii daşyonma sənəti nümunəsi kimi diqqəti cəlb etdiyindən onu muzeyə gətirmiş və eksponat kimi mühafizə etmişlər.

Hazırda "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində mühafizə edilən sarımtıl rəngli mərmərdən nəfis şəkildə hazırlanmış, gözəl sənət nümunəsi olan bu başdaşı tipli qəbirüstü xatirə abidəsi təsdiq edir ki, XIX əsrdə bütün Azərbaycanda, o cümlədən Naxçıvanda bədii daşyonma, xəttatlıq və həkkaklıq sənəti müəyyən qədər tənəzzülə uğrasa da, hələ də bu sahədə çalışan, öz sənətinin kamil ustası olan sənətkarlar fəaliyyət göstərmişdir.

Kitabə bizə Kəngərli tayfasına mənsub iki nəfərin adını təqdim edir. Bunlardan biri Cəfərqulu bəy Kəngərli, ikincisi isə onun oğlu, hicri-qəməri təqvimi ilə 1260-cı il, şəban ayının 7-də (miladi, 22.08.1844-cü il) vəfat etmiş oğlu Vəliqulu bəydir. XIX əsrə aid rus dilli qaynaqlarda, xüsusilə arxiv sənədlərində və tədqiqat əsərlərində Vəliqulu bəy haqqında məlumatlar qalmasa da, Cəfərqulu bəy Kəngərli haqqında müəyyən məlumatlar vardır.

"Naxçıvan ensiklopediyası"nın ikinci cildinə daxil edilmiş "Naxçıvan xanlığının Vəkil (Sultan) qolunun şəcərəsi"ndən aydın olur ki, hərbi rəis, II Kərim Sultanın oğlu Fətəli Sultanın Mustafa Sultan, Cəfərqulu bəy, Əliqulu bəy, Nəcəfqulu bəy, İmanqulu bəy, Səfiqulu bəy adlı altı oğlu olmuşdur. Göründüyü kimi Cəfərqulu bəy Fətəli Sultanın oğlanlarından, başqa sözlə desək hərbi rəis II Kərim Sultanın nəvələrindən biri olmuşdur **(Naxçıvan ensiklopediyası, 2005-2, s. 86-87)**.

Cəfərqulu bəy təxminən 1801-ci ildə Naxçıvanda anadan olmuşdur. O Naxçıvan xanlığının son dövrlərində xanlığın vergi məmuru işləmişdir. Təxminən 1831-ci ilədək bu vəzifədə çalışan Cəfərqulu bəy sonralar öz mülklərini idarə etmişdir. Krım müharibəsində (1853-1856-cı illər) İrəvan dəstəsinin Naxçıvan süvari

yüzlüyünə komandirlik edən Cəfərqulu bəy Rusiya imperiyasının yüksək mükafatları ilə təltif olunmuşdur. 1855-ci ildə 4-cü dərəcəli "Müqəddəs Anna" ordeni ilə təltif olunan Cəfərqulu bəy Naxçıvana qayıtdıqdan sonra Kəngərli tayfasının başçısı kimi fəaliyyət göstərmiş, çar hökumətinin 1865-67-ci illərdə təşkil etdiyi İrəvan bəy komissiyasının Naxçıvan üzrə üzvlərindən biri olmuşdur **(Quliyev M., 2013-1)**. Cəfərqulu bəyin Qafqaz Canişinliyinə yazdığı və öz möhürü ilə təsdiqlədiyi məktubunu Gürcüstan Milli Arxivində aşkar edən tədqiqatçı – alim onu sayılıb seçilən hərbçi və övladlarının təhsilinə ciddi fikir verən bir adam kimi xarakterizə edir.

Göründüyü kimi, 1844-cü ildə vəfat etmiş oğlu Vəliqulu bəyin qəbirüstü xatirə abidəsi üzərində həkk edilmiş kitabədə adı qeyd olunan Cəfərqulu bəy Azərbaycanın ictimai-siyasi həyatında tanınan, nüfuzlu şəxsiyyətlərindən biri olmuşdur. Kameral siyahılarda və Rusiya arxiv sənədlərində Cəfərqulu bəyin övladlarının adı aşağıdakı kimi qeyd edilmişdir: Gülməhəmməd bəy, Abbas bəy, Nuru bəy, Murtuza ağa, Fətəli Sultan **(Quliyev M., 2013-1)**. Cəfərqulu bəyin övladlarının arxiv sənədlərində qeyd olunan siyahısında Vəliqulu bəyin adına rast gəlinmir. Bunun isə bir sıra səbəbləri vardır. Ümumiyyətlə Cəfərqulu bəyin oğlu Vəliqulu bəyin şəxsiyyəti, yaşadığı dövrdə tutduğu mövqe, ümumiyyətlə onun kimliyi və sair haqqında əlimizdə vəfat tarixindən və "bəy" titulu daşımasından başqa heç bir məlumat yoxdur. Məzar kitabəsindən göründüyü kimi Vəliqulu bəy 1844-cü ildə vəfat etmişdir. Əgər Cəfərqulu bəyin doğum tarixini 1801-ci il kimi, onun 24-25 yaşlarında ailə qurduğunu və ilk övladının da Vəliqulu bəy olduğunu qəbul etsək aydın olur ki, Vəliqulu bəy gənclik dövründə, təxminən 18-19 yaşlarında vəfat etmişdir. Əgər Vəliqulu bəyin Cəfərqulu bəyin birinci deyil, sonrakı uşaqlarından olmasını fərz etsək, deməli Vəliqulu bəy uşaq vaxtlarında dünyasını dəyişmişdir. Fikrimizcə, bu məhz belə olmuşdur. Məhz uşaq yaşlarında vəfat etməsi səbəbindəndir ki, onun adı dövrün müxtəlif məqsədlərlə tərtib olunan sənədlərində öz əksini tapmamışdır.

Həmçinin Cəfərqulu bəyin oğlu Vəliqulu bəyin vəfatından sonra uzun müddət yaşaması, hətta Şərq (Krım) müharibəsində iştirak etməsi, 1865-67-ci illərdə yaradılan bəy komissiyalarının tərkibinə üzv kimi düşməsi, başqa sözlə desək oğlunun vəfatından (1844-cü il) sonra ən azı 25 il yaşaması da Vəliqulu bəyin uşaq və ya gənc yaşlarında vəfat etməsini göstərir.

Kitabədə "bəy" titulu ilə təqdim olunması isə mərhum Vəliqulu bəyin bəy ailəsinə mənsub olmasından irəli gəlmiş, həmin titul hörmət əlaməti olaraq kitabədə onun adına əlavə olunmuşdur. Türk dilli xalqlarda əvvəllər tayfa başçılarına, sonralar isə feodal əyanlara verilən bu titul Azərbaycanda hakimiyyətdə olan müxtəlif feodal dövlətlərin zamanında da mövcud olmuşdur. Şəxsi addan sonra yazılan, irsi (atadan oğula irsən keçən) və şəxsi (ancaq şəxsin özünə aid olan və atadan sonra oğula keçməyən) olmaqla iki yerə ayrılan **(Эсадзе С., 1907, с. 612)** bu titul xanlıqlar dövründə də irsi xarakter daşımaqla yanaşı, həm də xan tərəfindən imzalanmış fərmanla da verilmişdir. Bu dövrdə irsi bəylərin imtiyazı daha yüksək olmuşdur **(ASE, II cild, 1977, s. 139)**. Azərbaycanda sovet hakimiyyəti qurulanadək mövcud olan bəy titulu ilə bəzən qeyri-rəsmi olsa da ailənin kişi cinsindən olan bütün üzvlərinə müraciət edilirdi.

12. Qırmızımtıl rəngli daş üzərində həkk edilmiş kitabə (şəkil 24). 7 sətirdə cızma üsulu ilə qismən ərəb, fars, əsasən Azərbaycan dilində həkk edilmiş kitabənin mətni belədir: "Bu məzar Kərbəlayi Əli Qoçəlizadə Naxçıvaninin oğlu mərhum, şəhid Məşədi Hüseynindir. 21-ci il. Ey Hüseyn, ey millətin və şüarın hamisi. Səbəbsiz qətlə yetişdin, olmadın bir kamkar (arzusuna yetişmiş, xoşbəxt). Daima oldun vətən fikrində, qıldın səylər. Mənaye əfkarını bir görmədin ey namdar".

Kitabənin ikinci sətrinin sonunda "21-ci il" tarixi həkk edilmişdir. Fikrimizcə, bu tarixi mərhum Məşədi Hüseynin vəfat tarixi kimi qəbul etmək olar. Ancaq kitabənin yazıldığı xəttin paleoqrafiya xüsusiyyətləri və digər tarixi faktlar, xüsusi ilə həmin vaxt Azərbaycanın islamlaşmaması faktı kitabəni hicrətin

21-ci (miladi 643-cü il) ilinə aid etməyə imkan vermir. Ona görə də müsəlman epiqrafikası abidələrində tarixləri yazarkən az da olsa təsadüf edilən minliyi ifadə edən rəqəmin yazılmaması faktına istinad edərək, bu kitabədə də tarix həkk edilərkən minliyin ifadə olunmamasını düşünür və tarixi hicri-qəməri təqvimi ilə 1021-ci il kimi qəbul edirik.

1021 h.i. = 04.03.1612 – 20.02.1613-cü il.

Kitabənin yazıldığı 1612-ci il Səfəvilər dövlətində fars etnik qrupunun təsirinin və nüfuzunun artması dövrünə təsadüf etsə də həmin vaxt yenə də Azərbaycan dili dövlət aparatında və sarayda, xüsusilə dövlətin tərkib hissəsi olan Azərbaycanda əhalinin əsas danışıq vasitəsi kimi işlənirdi. Ona görə də kitabənin az bir hissəsi ərəb, fars, çox hissəsi Azərbaycan dilində həkk edilmişdir.

13. Qala divarlarının içərisində müxtəlif yerlərdə çoxlu maddi-mədəniyyət nümunələri, o cümlədən daşdan hazırlanmış qoç və qoyun fiquru tipli qəbirüstü xatirə abidələri nümayiş etdirilir. Bu fiqurlardan bəzilərinin üstündə xalqımıza, onun məşğuliyyətinə, etnoqrafiyasına aid müxtəlif təsvirlər həkk edilmişdir. Bu fiqurlar içərisində qalanın şərqdən – əsas giriş qapısından girərkən sol tərəfdə qoyulan və zəmanəmizədək əsasən salamat vəziyyətdə gəlib çatan fiqur xüsusilə diqqəti cəlb edir. Boz daşdan hazırlanmış bu fiqurun (150x60x45 sm) üzbəüz dayandıqda sol yanında xatirəsinə hazırlandığı mərhum haqqında məlumat verən kitabə həkk edilmişdir (şəkil 25). Dörd sətirdə, ərəb dilində oyma üsulu ilə həkk edilmiş kitabənin mətni belədir: "1101-ci il. Məhəmmədqulunun Muradxan adlı oğlu. Əslən Badamlı sakini. Allahım, əgər bu şəxs günahkarlardandırsa onu bağışla".

1101 h.i = 15.10.1689 – 04.10.1690-cı il.

Kitabənin məzmunundan aydın olur ki, mərhum Muradxan Məhəmmədqulu oğlu əslən indiki Şahbuz bölgəsinin Badamlı kəndindən olmuşdur. Belə məzmunlu mətnə Naxçıvan bölgəsinin epiqrafik abidələrində demək olar ki, indiyədək rast gəlinməmişdir.

Kitabənin sonunda qeyd olunan "Allahım, əgər bu şəxs günahkarlardandırsa onu bağışla" fikri mərhumlar üçün qılınan cənazə namazının duasından bir parçadır.

Fiqurun o biri yanında isə qılınc təsviri həkk olunmuşdur.

14. Muzey binasının şimal-qərb tərəfində, həyətdə qoyulan sarımtıl rəngli başqa bir qoç heykəli tipli qəbirüstü xatirə abidəsi (106x45x28 sm) üzərində də kitabə vardır (şəkil 26). Üzbəüz dayandıqda fiqurun sağ yanında "Mərhəmətli və bağışlayan Allahın adı ilə!", arxa ayağı üzərində "Subhan Allah", qabaq ayağı üzərində isə "və əl-Həmdu Lillah" kimi dini kəlamlar həkk edilmişdir.

Qoç heykəlininn digər yanında yazılan kitabə müəyyən qədər aşındığı üçün mətnini tam oxumaq mümkün olmamışdır. Kitabədən bu sözlər oxunmuşdur: "Qurani-Kərim, LV-26. 970-ci il. ...".

970 h.i.=31.08. 1562 – 20.08.1563-cü il.

15. Muzey binasının qərb tərəfində nümayiş etdirilən qoç heykəli tipli qəbirüstü xatirə abidəsi qırmızımtıl rəngli daşdan hazırlanmışdır (105x20x60 sm). Heykəlin ayaqları zaman keçdikcə sınıb məhv olmuşdur. Qoç heykəlinin sol yanında oyma üsulu ilə ərəb dilində dörd sətirdə kitabə həkk edilmişdir (şəkil 27). Kitabənin mətninin tərcüməsi belədir:

"Onun sahibi Zeynal Bəkiridir. 1078-ci il".

1078 h.i.= 23.06.1667 – 10.06.1668-ci il.

Kitabədən aydın olur ki, qoç heykəli hicri-qəməri təqvimi ilə 1078-ci ildə (1667-1668-ci il) vəfat etmiş Zeynal Bəkiri adlı adamın xatirəsinə hazırlanmışdır. Kitabədə mərhumun vəfat tarixi "sənə" (il) sözünün üstündə və altında yazılmaqla iki dəfə həkk edilmişdir.

Qoç heykəli muzeyə Ordubad rayonunun Biləv kənd qəbiristanlığından gətirilmişdir. Keçən yüzilliyin 80-ci illərinin əvvəllərində Biləv kənd qəbiristanlığında bu və digər qoç heykəlləri tərəfimizdən qeydə alınmış, tədqiq olunmuş və 1984-cü ildə nəşr etdirilən məqalədə onlar haqqında məlumat verilmişdir **(Səfərov F.,**

**1984, s. 49-55)**. Sonradan Zeynal Bəkiriyə məxsus qoç heykəlinin üzərində həkk edilən kitabə də daxil olmaqla həmin kitabələr haqqında fəlsəfə doktoru dissertasiyasında bəhs olunmuşdur **(Сафаров Ф., 1987, s. 85-86; Сафарли Г., 2017, c. 64)**.

16. Muzeyin arxa tərəfində qırmızımtıl rəngli daşdan hazırlanmış başqa bir qoç heykəli (şəkil 28) də qoyulmuşdur. Heykəlin (107x48x28 sm) sol yanında iki sətirdə ərəb dilində kitabə həkk edilmişdir. Kitabənin mətninin tərcüməsi belədir: “Onun sahibi Cəbrailin oğlu Əlidir. 1086-cı il”.

1086 h.i.=28.03.1675 – 15.03.1676-cı il.

17. Muzey binasının qərb tərəfində boz rəngli daşdan yonulmuş başqa bir qoç heykəli (şəkil 29) də nümayiş etdirilir. Heykəlin (97x48x38 sm) belindən başlayaraq sağ yanında oyma üsulu ilə kitabə yazılmışdır. Ancaq zaman keçdikcə daşın üstünü basan mamır kitabənin oxunuşunu çətinləşdirmişdir. Ona görə də kitabədən hələlik “Sahib ... Məhəmməd ... ibn ...” sözləri oxunmuşdur.

Qoç heykəlinin sol yanında isə islamın doktrinası – “Lə iləhə illəllah, Muhəmmədən rəsul Allah” (“Allahdan başqa Allah yoxdur, Məhəmməd onun elçisidir”) sözləri həkk edilmişdir.

Qoç heykəlinin üzərində tarix olmasa da, onu XVII əsrə aid etmək olar.

18. Naxçıvanqalada bərpa işləri zamanı torpağın altından müsəlman epiqrafikasına aid başqa bir abidə də aşkar olunmuşdur. Zəmanəmizədək əsasən salamat vəziyyətdə gəlib çatan bu başdaşı (56x25x5 sm) qaramtıl-boz rəngli mərmərdən hazırlanmışdır. Yuxarıdan iti bucaqla tamamlanan başdaşının səthinin kənarları boyunca, lentvari haşiyə şəklində nəstəliq xətti ilə dini xarakterli kitabə (şəkil 30) həkk edilmişdir: “Allahın salamı olsun peyğəmbərə və vəsisinə (Məhəmməd peyğəmbərin əmisi oğlu, kürəkəni, şiələrin I imamı, 656-661-ci illərdə xilafətə rəhbərlik etmiş IV xəlifə Həzrəti Əli nəzərdə tutulur-H.S.), Bətula (Məhəmməd peyğəmbərin qızı Həzrəti Fatimə nəzərdə tutulur-H.S.), nəvələrinə (Həsən və Hüseynə-H.S.) və əs-Səccada və

əl-Baqirə və əs-Sadiqə və əl-Kazimə və ər-Rzaya və ət-Təqiyə və ən-Nəqiyə və əl-Əsgəriyə və əl-Mehdi əs-Sahib əz-Zamana – salavat".

Göründüyü kimi, kitabənin mətni şiə aləmində "On dörd məsum" adı ilə tanınan müqəddəs şəxsiyyətlərin (Məhəmməd peyğəmbər, qızı Həzrəti Fatimə və 12 imam) adlarından ibarətdir.

Başdaşının səthinin mərkəzi hissəsində on sətirdə nəstəliq xətti ilə qarışıq ərəb-fars dillərində həkk edilən kitabənin mətninin tərcüməsi belədir: "Bu qəbir Rüfətin qızı, əməlisaleh, səcdə edən, bakirə, rüku edən, örtülülərin (hicablıların-H.S.) zinəti Şərəf xanımındır – ali məqam sahibi və düz yol göstərənlərin istinadgahı. Məhərrəm ayı, min qırx doqquzuncu il. İmarətin binası qoyuldu, 1049".

Kitabədə tarix iki dəfə – birinci dəfə fars dilində sözlə, ikinci dəfə rəqəmlə yazılmışdır.

Məhərrəm ayı, 1049 h.i.= 04.05 – 02.06. 1639-cu il.

Kitabədə Şərəf xanımın adına əlavə olunan epitetlər, xüsusilə "ali məqam sahibi və düz yol göstərənlərin istinadgahı" sözləri göstərir ki, o zəmanəsinin çox hörmətli, dindar və nüfuzlu şəxsiyyətlərindən biri olmuşdur. "Ali məqam sahibi" sözlərinə əsasən onun yaşadığı dövrdə yüksək vəzifə sahibi, "düz yol göstərənlərin istinadgahı" fikri isə XVII əsrin birinci yarısında şəhərdə fəaliyyət göstərən sufi təriqəti mənsublarının – dərvişlərin arxalandığı, güvəndiyi bir adam olmasını ehtimal etməyə imkan verir.

Həmçinin, kitabədən aydın olur ki, Şərəf xanımın vəfatından sonra onun qəbri üzərində hansı isə tikilinin binası qoyulmuşdur. Kitabənin mətnindən aydın olur ki, həmin tikilinin binası da Şərəf xanımın vəfat etdiyi ildə, yəni hicri təqvimi ilə 1049 (miladi 1639)-cu ildə qoyulmuşdur. Kitabədə "imarət" kimi təqdim olunan bu tikili heç şübhəsiz ki, mərhumə Şərəf xanımın qəbrinin üzərində ucaldılan türbə olmuşdur. Qəbrinin üstündə türbə inşa etdirilməsi də mərhumə Şərəf xanımın yaşadığı dövrün sayılıb-seçilən şəxsiyyətlərindən, yüksək nüfuz və mövqe sahibi kimi Naxçıvan şəhərinin sosial-siyasi və mədəni həyatında fəal

iştirak edən, həmçinin imkanlı ailəyə mənsub bir xanım olmasından xəbər verən maddi dəlillərdəndir. Ancaq çox təəssüflər ki, zaman keçdikcə bu türbə məhv olaraq sıradan çıxmış, indiyədək ondan heç bir iz qalmamışdır.

Naxçıvan Muxtar Respublikasının müxtəlif yaşayış məskənlərindən gətirilərək "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin ekspozisiyasında və onun ətrafında nümayiş etdirilən orta əsr Azərbaycan sənətkarlarının əməyinin məhsulu olan bədii daşyonma sənəti nümunələri, o cümlədən daş qoç heykəlləri, onların üzərində həkk edilən müsəlman epiqrafikasına aid kitabələr və digər maddi-mədəniyyət abidələri Azərbaycanın orta əsrlər dövrü tarix və mədəniyyətinin müxtəlif problemlərinin öyrənilməsinə işıq salmaqla yanaşı Naxçıvan bölgəsində daş üzərində işləmə sənətinin yüksək səviyyədə inkişaf etməsini təsdiq edən ən gözəl örnəklərdir.

19. Naxçıvanqalanın cənub tərəfində yerləşən Nuh peyğəmbərin türbəsi yanında abadlıq-bərpa işləri zamanı aşkar olunmuş kitabə fraqmenti. Məlumdur ki, Naxçıvan əhalisinin qədim zamanlardan ziyarət etdikləri müqəddəs yerlərdən biri də Naxçıvan şəhərinin cənub tərəfində yerləşən Nuh peyğəmbərin məzarı olmuşdur. Bu məzarın üstündə orta əsrlərin intibah dövründə inşa edilmiş türbənin 1,5-2 metr hündürlükdə qalıqları XX yüzilliyin əvvəllərinədək qalırdı. Bunu XIX yüzilliyin sonlarına aid bir fotoşəkil və görkəmli rəssam Bəhruz Kəngərlinin naturadan çəkdiyi bir neçə rəsm əsəri də təsdiq edir. Ancaq çox təəssüflər olsun ki, Sovet hakimiyyətinin ilk illərində bu türbə dağıdılmış, onu ziyarət etmək qadağan olunmuş, hətta yeri də xalqa unutdurulmuşdu. Ona görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə 2005-ci ildə türbənin yeri tapılıb müəyyənləşdirilmişdir. Bundan sonra AMEA Naxçıvan Bölməsinin əməkdaşları bu ərazidə arxeoloji tədqiqat işləri aparmış, türbənin ətrafı təmizlənmiş, bünövrəsi tamamilə aşkara çıxarılmışdır. Xoşbəxtlikdən türbə dağıdılarkən onun özülündən – səkkizguşəli bünövrəsindən təxminən 20 sm hündürlükdə salamat qalmışdır.

Arxeoloji qazıntılar zamanı türbənin ətrafından bir neçə ədəd epiqrafik materialın qalıqları – kitabə fraqmentləri tapılmışdır. Tapıntılar içərisində nisbətən salamat və yaxşı vəziyyətdə qalmış, üzərinə basma üsulu ilə "Allah" kəlməsi həkk edilmiş əhəng materialı da aşkar olunmuşdur **(Baxşəliyev V., 2005)**. Naxçıvan şəhərində Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən inşa olunmuş Yusif Küseyir oğlu türbəsində belə bir fraqmentə rast gəlinməsə də, memarın şah əsəri Möminə xatın türbəsinin ornament bəzəyinə əsasən demək olar ki, bu epiqrafik motiv ümumislam mədəniyyəti tərkibində özünəməxsus yer tutan Naxçıvan memarlıq abidələri üçün xarakterik haldır. Möminə xatın türbəsinin üzərində bu üsulla çoxlu sayda kitabə – "Allah" kəlməsi həkk edilmiş və abidənin həndəsi bəzəyi ilə üzvi surətdə əlaqələndirilmiş, onun tərkib hissəsinə, əsas ünsürünə çevrilmişdir.

Türbənin ətrafında aşkar olunan digər kitabə qalıqları gəc məhlulu və bişmiş kərpiclə kufi xətti ilə hazırlanmış fraqmentlərdən ibarətdir. Əldə edilən bu materiallar təsdiq edir ki, Nuh türbəsinin kitabələri də Naxçıvan memarlıq məktəbinə məxsus XII əsr abidələrində olduğu kimi bişmiş kərpic və gəc məhlulu ilə yerinə yetirilmişdir. Bu kitabə fraqmentləri çox kiçik, əsasən bir və ya iki hərfdən ibarət olduqları üçün onların oxunması mümkün deyildir. Yalnız bir ədəd nisbətən böyük kitabə qalığında gəlib çatan hərflərə əsasən orada "əl-bənna" (bənna) sözünün yazıldığı müəyyən edilmişdir (şəkil 31). Kitabəni xətt xüsusiyyətlərinə əsasən təhlil edərkən aydın olur ki, bu söz Möminə xatın türbəsində Əcəmi Naxçıvaninin adının qarşısında yazılan "bənna" sözü ilə çox oxşar şəkildə yazılmışdır.

Vaxtilə türbənin üstündə olan bu kitabə fraqmentləri şübhəsiz ki, bütöv halda ilk növbədə abidənin təyinatı, sifarişçisi, inşa tarixi, memarı və sair haqqında müfəssəl məlumat vermək məqsədi ilə yazılmaqla bərabər, həm də ornamental bəzək funksiyasını yerinə yetirmişdir. Belə ki, abidənin memarı ərəb əlifbasının kufi xəttinin imkanlarından məharətlə istifadə edərək onları

həndəsi ornamentlərlə bacarıqla uyğunlaşdırmış, hərflər arası boşluqları ornamentlərlə, ornamentlər arası boşluqları isə hərflərlə dolduraraq gözəl bəzək ünsürləri yaratmışdır. Ona görə də Azərbaycan memarlığının ilk inkişaf dövründə kufi xəttindən istifadə edilməsi binaların dekorunda üstün yer tutan həndəsi ornamentin inkişafı ilə sıx əlaqədar olmuşdur **(Məmmədzadə K., 1978, s. 108)**. Çünki bu xətt növü memarlıqda tətbiq olunarkən düz cizgilərdən geniş istifadə olunur, hərflər həndəsi düzgünlüklə yazılırdı və həndəsi ornamentlərlə uyğunlaşdırılırdı.

Nuh peyğəmbərin məzarüstü türbəsinə aid kitabə fraqmentləri ilə Yusif Küseyr oğlu və Möminə xatın türbəsinin kitabələrinin ətraflı müqayisəsinə əsasən deyə bilərik ki, Əcəmi barmaqlarının məhsulu olan abidələr, xüsusilə Möminə xatın türbəsinin üzərindəki kitabələr daha mükəmməldir və kufi xəttinin inkişaf etmiş mərhələsinə aiddir. Ancaq Nuh peyğəmbərin türbəsindən əldə olunan kitabə fraqmentləri onlara nisbətən sadədir və kufi xəttin epiqrafikada tətbiqinin bir az əvvəlki dövrlərinə aiddir. Digər abidələrlə paleoqrafik xüsusiyyətlərinə əsasən müqayisə edərək bu kitabələri də təxminən XII yüzilliyin ortalarına aid etmək olar.

Bütün bunlara, o cümlədən abidənin inşasında istifadə olunan inşaat materiallarına, yan üzlərinin bəzədilməsində tətbiq edilən ornament – naxışlara, burada işlədilən kaşı nümunələrinə və tapılan kitabə fraqmentlərinin təhlilinə əsasən belə bir qənaətə gəlmək mümkündür ki, türbə Naxçıvan memarlıq məktəbinə məxsusdur və bu məktəbin çiçəklənmə prosesi keçirdiyi, Azərbaycanın aparıcı memarlıq məktəbinə çevrildiyi XII yüzilliyin ortalarında inşa edilmişdir. Bütün bu sadalanan faktları nəzərə alaraq tam əminliklə demək olmasa da ehtimal etmək olar ki, Nuh peyğəmbərin məzarı üstündəki türbə də görkəmli memar Əcəmi Əbubəkr oğlu Naxçıvaninin əməyinin məhsuludur.

## Açıq Səma Altında Muzeydə nümayiş etdirilən epiqrafik abidələr

Naxçıvan şəhərindəki Əcəmi Seyrəngahında, Möminə xatın türbəsinin ətrafında yerləşən Açıq Səma Altında Muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 11 iyun 2002-ci ildə imzaladığı Sərəncama əsasən yaradılmışdır. Üç hektara yaxın sahəni əhatə edən muzeydə muxtar respublikanın müxtəlif yaşayış məskənlərindən gətirilmiş daş qoç və qoyun heykəlləri, başdaşı və sənduqə tipli qəbirüstü xatirə abidələri, daşdan yonulmuş müxtəlif fiqurlar, sütun altlıqları, Ordubad rayonu ərazisindəki Gəmiqayadan gətirilmiş e.ə. IV-I minilliyə aid təsvirlər və s. nümayiş etdirilir.

Muzeydə nümayiş etdirilən bu abidələrin bir hissəsini epiqrafik abidələr təşkil edir. Belə abidələrdən biri muzeyə son illərdə Şahbuz rayonundan gətirilmişdir. Naxçıvan Muxtar Respublikası tərkibində ayrıca inzibati rayon olan Şahbuz rayonu ərazisi digər bölgələrlə müqayisədə epiqrafik abidələrlə çox da zəngin deyidir. Müşahidələrimizə və tədqiqatlarımıza əsasən deyə bilərik ki, burada orta əsrlər zamanı müəyyən qədər epiqrafik abidələr yaradılsa da, zaman keçdikcə onların çoxu təbii və s. qüvvələrin təsirindən məhv olaraq sıradan çıxmış, it-bat olmuşdur. Bilik dairəmizi yeni faktlarla zənginləşdirən, orta əsr mənbələrinin məlumatlarını tamamlayan bu orijinal mənbələrin bir hissəsi zəmanəmizədək müəyyən qədər aşınmış, az bir qismi salamat vəziyyətdə gəlib çatmışdır. Bu abidələrin çox hissəsi isə yazıldığı andan sonra təbii qüvvələrin (isti, soyuq, yağış, qar, külək və s.) təsirindən məhv olaraq sıradan çıxmış, bəziləri torpağın altında qalaraq görünməz olmuş, diqqətdən yayınmışdır. Haqqında bəhs etdiyimiz abidə də bu yaxınlarda Şahbuz rayonunundakı Şahbuzkənddə təsərrüfat işləri aparılarkən təsadüfən torpağın altından aşkar olunmuşdur.

1. Qaramtıl rəngli dağ daşından hazırlanmış sənduqə tipli bu qəbirüstü xatirə abidəsi (uzunluğu 132 sm, hündürlüyü 75 sm,

eni aşağıda 35 sm, yuxarıda 27 sm) orta əsr Azərbaycan bədii daşyonma sənətinin gözəl bir nümunəsidir (şəkil 32). Abidənin yan tərəfində ərəb dilində, iki sətirdə dəfn olunan mərhumun xatirəsinə həsr edilmiş kitabə vardır. Əsasən salamat vəziyyətdə olan kitabənin mətninin tərcüməsi belədir: "Allah, Məhəmməd, Əli. Onun [qəbrin] sahibi Bəlrixanın (?) oğlu Məlik Vəlxandır. Rəbiəl-əvvəl ayı, 965-ci il".

Hicri-qəməri təqvimi ilə 965-ci ilin rəbiəl-əvvəl ayı, miladi təqvimi ilə 22.12.1557 – 20.01.1558-ci ilə müvafiqdir.

Göründüyü kimi, xatirə abidəsi 1558-ci ildə vəfat etmiş Məlik Vəlxanın xatirəsinə hazırlanmışdır. Kitabədə mərhum Vəlxan "Məlik" titulu ilə təqdim olunmuşdur. İslamın müqəddəs kitabı Qurani-Kərimdə "Məlik" hökmdar mənasında, eyni zamanda Allahın adlarından biri kimi işlənmişdir **(Советская историческая..., 1965, с. 974)**. Xarəzmşah Anuştəkin dövlətində isə bu titul bölmə komandirlərinə verilirdi **(Буниятов З., 1986, с. 90).** XIII əsrdən etibarən Azərbaycanda işlənməyə başlayan, orta əsrlər zamanı müxtəlif məna tutumuna malik olan "Məlik" titulu Səfəvilər və xanlıqlar dövründə əsasən iki mənada işlənirdi. Bu titulla ilk növbədə şah hakimiyyətinə tabe olan yerli hakimlərin xələflərinə – kiçik feodallara müraciət edilirdi. İkinci mənada isə bu titul kənd və ya kənd qruplarının başçılarına verilirdi. Bu mənada işlənən "Məlik" titulu kəndxuda termini ilə təxminən eynilik təşkil edirdi **(Петрушевский И., 1949-1, с. 112)**.

"Məlik" titulu haqqında bəhs edərkən professor İ.Petruşevski qeyd edir ki, inqilaba qədərki tarixşünaslığın nümayəndələri məliklərə erməni feodallarının nümayəndələri kimi baxırdılar. Bu baxış yalnışdır. Sahibkar məliklər müsəlmanlarda, Xəzər sahili ölkələrdə XIII-XV əsrlərdən, Səfəvilər və Xanlıqlar dövründən məlumdur **(Петрушевский И., 1949-1, с. 111)**. Buradan aydın olur ki, "Məlik" titulu azərbaycanlılara məxsus olmuşdur. "Məlik" titulu daşıması göstərir ki, xatirəsinə belə gözəl qəbirüstü xatirə abidəsi düzəldilmiş Vəlxan yaşadığı dövrdə müəyyən mövqe və nüfuz sahibi olmuşdur.

Qəbirüstü xatirə abidəsinin digər yanında isə maraqlı bir təsvir həkk olunmuşdur. Təsvirin sol tərəfində quyruğunu belinə dayananadək qaldırmış bəbirin öküzün üzərinə hücum səhnəsi təsvir edilmişdir. Təsvirdə öküz özünü müdafiə etmək üçün başını aşağı əyərək buynuzlarını qabağa verib bəbirə müqavimət göstərir. Təsvirin sağ tərəfində at üzərində oturmuş və sol əlində Şahin quşu olan ovçu əlindəki nizə ilə öküzü bəbirdən müdafiə edir. Bəbirin öküzə hücum vəziyyətində təsvirinə Şahbuzkəndlə qonşu olan kəndlərdə də rast gəlinir. Şahbuzkənddən 3-4 km cənub-qərb tərəfdə yerləşən Külüs kənd qəbiristanlığında tədqiq olunan qırmızımtıl rəngli daşdan hazırlanmış trapesiya formalı sənduqə tipli qəbirüstü xatirə abidəsi (136x36x60 sm) üzərində də belə bir səhnəyə – bəbirin hücumundan müdafiə olunan öküz təsvirinə rast gəlinir **(Сафаров Ф.Я., 1987-1, с. 147)**. Şahbuzkənddən 4-5 km şimal-şərqdə yerləşən Keçili kəndində də vaxtı ilə tərəfimizdən belə bir təsvir tədqiq olunmuşdur. Ancaq bu təsvirdə bəbirin boynunda oturmuş Şahin quşu da həkk edilmişdir **(Сафаров Ф.Я., 1987-1, с. 147)**.

Bu cür təsvirlərə Şahbuz bölgəsinin digər kəndlərində, xüsusilə Şahbuzkəndlə qonşu ərazidə, cənub tərəfdə yerləşən hazırda yaşayış olmayan Məzrə kənd qəbiristanlığında da rast gəlinir. Belə təsvirlərə, həmçinin Naxçıvan Muxtar Respublikasının müxtəlif yerlərində, o cümlədən Gəmiqayada, tarixi daim Naxçıvan bölgəsi ilə sıx bağlı olan, hazırda indiki Ermənistan Respublikasına daxil olan Sisyan rayonunun Urud kəndində **(Нейматова М., 1981, рис. 35 б)** və digər Azərbaycan torpaqlarında rast gəlinir.

Şahbuz rayonu ərazisində çoxlu sayda rast gəlinən bu tip qəbirüstü xatirə abidələrinin təhlili göstərir ki, onlar hamısı ətrafdakı dağların daşlarından yerli ustalar tərəfindən hazırlanmışdır. Həmçinin gözəl sənət nümunələri olan bu abidələr təsdiq edirlər ki, orta əsrlər zamanı Şahbuz bölgəsində daş üzərində işləmə – bədii daşyonma sənəti üzrə inkişaf etmiş mərkəzlər fəaliyyət göstərmişdir. Bu mərkəzlərdə hazırlanan daş məmulatı bölgənin

əhalisinin tələbatını ödəməklə bərabər, ətraf, qonşu yaşayış məskənlərinin əhalisinin də daş məmulatlarına olan tələbatını ödəmişdir.

Qəbir daşı üzərində həkk olunan mifoloji məzmunlu təsvir xalqımızın mənəvi mədəniyyətinin öyrənilməsi üçün çox sanballı mənbədir.

2. Muzeydə nümayiş etdirilən epiqrafik sənədlərdən biri də Culfa rayonunun Camaldın kənd qəbiristanlığından gətirilən sənduqə tipli qəbirüstü xatirə abidəsi üzərində həkk edilmiş kitabədir. Qırmızımtıl rəngli dağ daşından hazırlanmış sənduqənin (170x30x10 sm) baş tərəfində mərhum haqqında məlumatları əks etdirən kitabə (şəkil 33) həkk edilmişdir. Kitabənin mətninin tərcüməsi belədir: "Allahın mərhəmətinə, himayəsinə, köməyinə möhtac Bəkirin vəfatı – daima Allahın rəhməti (olsun). 1114-cü ilin zilhiccə ayında" **(Сафаров Ф., 1987-1, с. 59-60)**.

Zilhiccə 1114 h.i. = 18.04 – 16.05.1703-cü il.

Qəbirüstü abidənin səthinin mərkəz hissəsində lampa, qılınc və qalxan, aşağı hissəsində isə Günəş və digər təsvirlər vardır.

3. Muzeydə nümayiş etdirilən yaşılımtıl rəngli daşdan hazırlanmış sənduqə tipli qəbirüstü xatirə abidəsinin parçası (132x35x25 sm) üzərində də kitabə həkk edilmişdir. Abidə muzeyə Ordubad rayonunun Üstüpü kəndindən 7-8 km şimal-şərq tərəfdə, yüksək dağlıq ərazidə yerləşən "Köçəri" qəbiristanlığından gətirilmişdir. Təxminən 1,5 hektar sahəni əhatə edən "Köçəri" qəbiristanlığında zəmanəmizədək çoxlu başdaşı, sənduqə, qoç və qoyun heykəli tipli qəbirüstü xatirə abidələri qalmışdır. Biz keçən yüzilliyin 70-ci illərinin sonu – 80-ci illərin əvvəllərində iki dəfə qəbiristanlıqda tədqiqatlar aparmış, çoxlu məzar kitabəsi qeydə almışdıq. Haqqında bəhs olunan sənduqə tipli qəbirüstü xatirə abidəsi də həmin vaxt tədqiq olunmuş və tədqiqatın nəticələri 1987-ci ildə müdafiə edilən fəlsəfə doktoru dissertasiyasına daxil edilmişdi **(Сафаров Ф., 1987-1, с. 49-50)**. Sonralar həmin abidə də daxil olmaqla bir neçə xatirə abidəsi

Naxçıvan şəhərində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə yaradılan bu muzeyə gətirilmişdir.

Sənduqənin baş tərəfində düzəldilən düzbucaqlıda üç sətirdə, ərəb dilində, süls elementli nəsx xətti ilə kitabə (şəkil 34) həkk edilmişdir. Kitabənin mətninin tərcüməsi belədir: "Bu mərhum Xanməhəmmədin oğlu İmandır. 1003-cü il".

1003 h.i.=16.09.1594 – 05.09.1595-ci il.

Xatirə abidəsinin yanlarında lentvari haşiyə şəklində həkk edilən kitabənin mətni Qurani-Kərimdən götürülmüşdür: II-255.

Təxminən 35 il bundan əvvəl biz "Köçəri" qəbiristanlığında bu abidəni tədqiq edərkən o tamamilə salamat vəziyyətdə idi. Görünür sonralar dağıntıya məruz qaldığı üçün indi ancaq sənduqənin baş tərəfi qalmışdır.

4. "Köçəri" qəbiristanlığından gətirilərək muzeydə nümayiş etdirilən başqa bir yaşılımtıl rəngli daşdan hazırlanmış sənduqə formalı qəbirüstü xatirə abidəsi (83x20x22 sm) üzərində də üç sətirdə ərəb dilində həkk edilmiş məzar kitabəsi (şəkil 35) vardır. Kitabənin mətninin tərcüməsi belədir: "Bu Muhib Köçərinin oğlu, mərhum Məhəmmədir".

Abidənin üzərində tarix qeyd olunmamışdır. Ona görə də biz onu qəbiristanlıqda qalan digər oxşar abidələrlə bir sıra xüsusiyyətlərinə (hazırlandığı material, üzərində həkk edilən kitabənin paleoqrafiya xüsusiyyətləri, onunla yanaşı dayanan və tarixi olan xatirə abidələri və s. ilə) əsasən müqayisə edərək XVI-XVII əsrlərə aid etmişik **(Сафаров Ф., 1987-1, с. 50)**.

5. "Köçəri" qəbiristanlığından muzeyə gətirilmiş sənduqə tipli qəbirüstü xatirə abidələrindən (125x29x18 sm) birinin səthi tamamilə aşınaraq məhv olsa da yanlarında həkk edilən kitabə demək olar ki, tamamilə salamat vəziyyətdədir (şəkil 36). Bu kitabənin mətni Qurani-Kərimdən götürülmüşdür: II-255.

Sənduqə tipli bu xatirə abidəsini də ətrafdakı abidələrlə oxşar xüsusiyyətlərinə əsasən müqayisə edərək XVI-XVII əsrlərə aid etmək olar.

6. “Köçəri” qəbiristanlığından gətirilmiş, yaşılımtıl rəngli daşdan hazırlanmış başdaşı tipli qəbirüstü xatirə abidəsi üzərində olan kitabə vardır. Dördbucaqlı şəkildə hazırlanmış başdaşının səthinin kənarlarında enli haşiyə açılmış və yaradılan çərçivə paralel düz xətlərlə dörd yerə ayrılmışdır. Beləliklə, yaradılan dörd kiçik çərçivənin içərisində, hər birində iki sətir olmaqla səkkiz sətirdə, ərəb dilində kitabə həkk edilmişdir (şəkil 37). Kitabənin mətninin tərcüməsi belədir: “Qurani-Kərim LV-26,27. Xudaverdinin oğlu, mərhum, günahları bağışlanmış, Allahın rəhmətinə çatmış Hacı Məhəmməd. 1006-cı ilin rəbiəl-əvvəl ayında”.

Rəbiəl-əvvəl, 1006 h.i.=12.10 – 10.11.1597-ci il.

Qeyd etmək lazımdır ki, Açıq Səma Altında Muzeydə “Köçəri” qəbiristanlığından gətirilmiş başqa abidələr də nümayiş etdirilir. Ancaq bu abidələr həddindən çox aşınmaya və dağıntıya məruz qaldıqlarından səthlərində həkk olunan kitabələr məhv olmuşdur. Abidələrin yanlarında nisbətən salamat qalan kitabələr isə Qurani-Kərimdən götürülmüş ayələrdən ibarətdir.

Açıq Səma Altında Muzeydə muxtar respublikanın bir sıra yaşayış məskənlərində indiyədək qalan orta əsr qəbiristanlıqlarından gətirilmiş, müxtəlif növ daşlardan hazırlanmış qoç heykəli tipli qəbirüstü xatirə abidələri də nümayiş etdirilir. Onların bir qismi sadə formada hazırlanmış, bir hissəsinin üzərində təsvirlər həkk olunmuş, bəzilərinin üstündə kitabələr həkk edilmiş, müəyyən bir qrupunun üstündə isə həm təsvir, həm də kitabə həkk edilmişdir.

7. Boz daşdan yüksək sənətkarlıqla hazırlanmış bir qoç heykəli (138x95x35 sm) hazırlanma texnikasına görə digər bu tipli abidələrdən fərqlənir və bədii daşyonma sənəti nümunəsi kimi diqqəti cəlb edir (şəkil 38). Heykəlin belində və yan tərəfində kitabə həkk edilmişdir. Kitabənin mətni belədir: “Ya Allah, Məhəmməd, Əli. Qasım”.

Qasım adlı mərhumun xatirəsinə hazırlanmış qoç heykəlinin üzərində tarix qalmadığı üçün onun nə vaxt hazırlandığı

haqqında konkret fikir söyləmək çətindir. Fikrimizcə, onu XVI yüzilliyə aid etmək olar.

8. Muzeydə nümayiş etdirilən qırmızımtıl rəngli daşdan hazırlanmış başqa bir qoç heykəli (127x70x40 sm) də sənətkarlıq baxımından diqqəti cəlb edir. Heykəlin belində və yan tərəflərində kitabə həkk edilmişdir (şəkil 39). Zaman keçdikcə təbii qüvvələrin təsirindən güclü aşınmaya məruz qalan kitabənin mətni Qurani-Kərimdən götürülmüşdür: II-255.

Bu qoç heykəli muzeyə Ordubad rayonunun Aşağı Aza (indiki Azadkənd) kəndindən gətirilmişdir. Heykəl XX yüzilliyin 80-ci illərində tərəfimizdən qeydə alınmışdır **(Сафаров Ф., 1987-1, с. 82-83)**.

9. 2015-ci ildə Ordubad rayonunun Biləv kəndindən muzeyə bir ədəd başdaşı tipli qəbirüstü xatirə abidəsi gətirilmişdir. Başdaşı bütöv deyildir. Ordubad rayonu üçün xarakterik olan yaşılımtıl rəngli daşdan hazırlanmış başdaşının aşağı hissəsi sınmış və itib yox olmuşdur. Ona görə də onun üzərində həkk edilən kitabənin də aşağıda yazılan hissəsi sıradan çıxmışdır (şəkil 40). Əsasən salamat qalan kitabənin qalan hissəsinin (37x41x5 sm) mətninin tərcüməsi belədir: "Quran LV – 26, 27. Allah, Məhəmməd, Əli. ... fani dünyadan əbədi dünyaya köçdü....".

Tarixi qalmadığı üçün kitabənin tarixini dəqiq müəyyənləşdirmək mümkün deyildir. Ancaq oxşar abidələrlə hazırlandığı materialına, formasına, xətt xüsusiyyətlərinə və s. əlamətlərinə əsasən müqayisə edərək onu XVI yüzilliyə aid etmək olar.

Naxçıvan Muxtar Respublikasının müxtəlif yaşayış məskənlərindən gətirilərək Açıq Səma Altında Muzeydə mühafizə və nümayiş etdirilən bu abidələr orta əsrlər zamanı bölgədə daş üzərində işləmə sənətinin yüksək səviyyədə inkişaf etdiyini və bu sahədə mərkəzlərin fəaliyyət göstərdiyini təsdiq edən örnəklərdir.

# ƏDƏBİYYAT

1. **Qurani-Kərim., 2015.**

Qurani-Kərimin Azərbaycan dilinə tərcüməsi. Yenidən işlənmiş XVII nəşr. Ərəb dilindən tərcümə edənlər Z.M.Bünyadov, V.M.Məmmədəliyev. Bakı: Nurlar, 2015, 632 s.

2. **Azərbaycan Sovet Ensiklopediyası., 1977.**

Azərbaycan Sovet Ensiklopediyası. 2-ci cild. Bakı: Azərbaycan Sovet Ensiklopediyasının Baş Redaksiyası, 1977, 592 s.

3. **Azərbaycan tarixi., 1958.**

Azərbaycan tarixi. I cild, Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1958, 448 s.

4. **Azərbaycan tarixi., 1994.**

Azərbaycan tarixi. Z.M.Bünyadovun və Y.B.Yusifovun redaktəsilə. Bakı: Azərnəşr, 1994, 688 s.

5. **Babayev S., 1996.**
Babayev S. Səyyahlar Naxçıvan haqqında. Azərbaycan tarixində Naxçıvan (Tarixi oçerklər). Bakı: ADPU, 1996, s. 42-55.

6. **Baxşəliyev V., 2005.**
Baxşəliyev V. Naxçıvanda Nuhla bağlı əfsanələr. "Şərq qapısı" qəzeti, 08 dekabr 2005-ci il.

7. **Baxşəliyeva G., 2010.**
Baxşəliyeva G. Orta əsrlər ərəb mənbələrində Naxçıvan haqqında məlumatlar. Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan (24-25 aprel 2009-cu ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Naxçıvan: Əcəmi, 2010, s. 214-219.

8. **Baxşıyev Ə., 1990.**

Baxşıyev Ə. Ordubad Səfəvilər dövründə. "Elm və həyat" jurnalı. 1990, № 11-12, s. 46.

9. **Bakuvi Ə., 1992.**
Bakuvi Ə. “Abidələrin” xülasəsi və qüdrətli hökmdarın möcüzələri. Ərəbcədən tərcüməsi, müqəddimə və şərhləri Ziya Bünyadovundur. Bakı: Şur nəşriyyatı, 1992, 176 s.
10. **Bünyadov Z.M., 1985.**
Bünyadov Z.M. Azərbaycan Atabəyləri dövləti. Bakı: Elm, 1985, 268 s.
11. **Cəfərov Ə., 2010.**
Cəfərov Ə. Naxçıvanın daş dövrü düşərgələri. Azərbaycan Arxeologiyası, 2010, cild 13, №1, s. 9-14
12. **Çələbi E., 1989.**
Çələbi E. Səyahətnamə. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı: Azərbaycan Universitetinin nəşriyyatı, 1989, s. 230-238.
13. **Çələbi E., 1997.**
Çələbi E. Səyahətnamə (Azərbaycan tarixinə dair seçmələr). Bakı: Azərnəşr, 1997, 92 s.
14. **Əfəndiyev O., 1993.**
Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı: Azərnəşr, 1993, 301 s.
15. **Əhmədov Ə., 2001.**
Əhmədov Ə. İslam təlimi. İkinci nəşri. Bakı: Mədyən, 2001, 255 s.
16. **Əlincəqala., 2016.**
Əlincəqala. Naxçıvan: “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi, 2016, 304 s.
17. **Əliyev F., Əliyev M., 1996.**
Əliyev F., Əliyev M. Naxçıvan xanlığı. Bakı: Azərnəşr, 1996, 106 s.
18. **Əliyev Q., 2007.**
Əliyev Q. Memar Əcəmi Naxçıvani yaradıcılığında ahəngdarlıq. Bakı: Şərq-Qərb, 2007, 160 s.

19. **Əliyev V., Sultanov Ə., 1968.**
Əliyev V., Sultanov Ə. Naxçıvanın 3500 yaşı var. "Şərq qapısı" qəzeti, 18 dekabr 1968-ci il.
20. **Əliyev V., 1996.**
Əliyev V. Naxçıvan şəhərinin yaranması tarixi və onun tədqiqi problemləri ("Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumunun materialları). Bakı: Elm, 1996, s. 51-54.
21. **Fərzəliyev Ş., 1983.**
Fərzəliyev Ş. Azərbaycan XV-XVI əsrlərdə. Bakı: Elm, 1983, 152 s.
22. **Fərzəliyev Ş., 2006.**
Fərzəliyev Ş. Naxçıvan XV əsrdə. Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri (9-10 iyun 2006-cı ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Bakı: Təhsil, 2006, s. 87-97.
23. **Fərzəliyev Ş., 2008.**
Fərzəliyev Ş. Tarixçi İsgəndər bəy Münşi Türkman Səfəvilər dövlətinin baş vəziri Hatəm bəy Ordubadi haqqında. Naxçıvan bu gün: islahatlar, perspektivlər (5-6 oktyabr 2007-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Bakı: Nurlan, 2008, s. 97-104.
24. **Həbibbəyli İ., 2007.**
Həbibbəyli İ. Naxçıvan şəhərinin yaşı – beş min il. Naxçıvan Muxtar Respublikasının yaranması: tarix və müasirlik. Naxçıvan: Əcəmi, 2007, s. 20-27.
25. **İsgəndər bəy Münşi., 2009.**
İsgəndər bəy Münşi. Tarix-i aləmara-yi Abbasi (Abbasın dünyanı bəzəyən tarixi). I cild. Farscadan tərcümənin, ön sözün, şərhlərin və göstəricilərin müəllifləri. AMEA-nın müxbir üzvü Oqtay Əfəndiyev, tarix elmləri namizədi Namiq Musalı. Bakı: Təhsil, 2009, 792 s.

26. **Kərimzadə S., 1967.**
Kərimzadə S. Möminə xatın türbəsinin öyrənilməmiş kitabələri. Azərbaycan SSR EA Məruzələri, 1967, XXIII cild, № 8, s. 83-88.
27. **Qacar Ç., 1997.**
Qacar Ç. Qədim və orta əsrlər Azərbaycanının görkəmli şəxsiyyətləri. Bakı: Nicat, 1997, 304 s.
28. **Qiyasi C., 1991.**
Qiyasi C. Nizami dövrü memarlıq abidələri. Bakı: İşıq, 1991, 264 s.
29. **Qızılbaşlar tarixi., 1993.**
Qızılbaşlar tarixi. Tərcümə və şərhlər. M.Ə.Məhəmmədinindir. Bakı: Azərbaycan nəşriyyatı, 1993, 48 s.
30. **Quliyev M., 2013-1.**
Quliyev M. Tərcüməçi Gülməhəmməd bəy Kəngərli kimdir? "Şərq qapısı" qəzeti, 18 yanvar 2013-cü il.
31. **Quliyev M., 2013.**
Quliyev M. Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi və əlaqələri. Naxçıvan: "Əcəmi" NPB, 2013, 184 s.
32. **Məmmədov R., 1962.**
Məmmədov R. Yaxın Şərq və Qərbi Avropa səyyahları Naxçıvan şəhərinin orta əsrlər tarixi haqqında. Azərbaycan SSR EA Xəbərləri. İctimai elmlər seriyası. 1962, № 4, s. 11-22.
33. **Məmmədov R., 1977.**
Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: Elm, 1977, 160 s.
34. **Məmmədzadə K., 1978.**
Məmmədzadə K. Azərbaycanda inşaat sənəti. Bakı: Elm, 1978, 211 s.
35. **Musəvi T.M., 1977.**
Musəvi T.M. Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər. Bakı: Elm, 1977, 240 s.

36. **Mustafazadə T., 2002.**
Mustafazadə T. XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı: Elm, 2002, 372 s.
37. **Mustafazadə T., 2014.**
Mustafazadə T. Naxçıvan xanlığının tarixindən. Naxçıvan qədimdən günümüzə qədər (Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş məqalələr toplusu). Bakı: "Victory" mətbəəsi, 2014, s. 162-172.
38. **Naxçıvan abidələri ensiklopediyası, 2008.**
Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan, 2008, 521 s.
39. **Naxçıvan ensiklopediyası, 2005-1.**
Naxçıvan ensiklopediyası. 2 cilddə. Cild 1. Naxçıvan, 2005, 361 s.
40. **Naxçıvan ensiklopediyası., 2005-2.**
Naxçıvan ensiklopediyası. 2 cilddə. Cild 2. Naxçıvan, 2005, 376 s.
41. **Naxçıvan: ilk yaşayış..., 2012.**
Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi (20-24 iyul 2011-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Naxçıvan: "Əcəmi" NPB, 2012, 398 s
42. **Naxçıvan ilkin: şəhər və Duzdağ, 2013.**
Naxçıvan ilkin şəhər və Duzdağ (27-28 iyul 2012-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Naxçıvan: "Əcəmi" NPB, 2013, 360 s.
43. **Naxçıvan Muxtar Respublikası – 90., 2014.**
Naxçıvan Muxtar Respublikası – 90. Naxçıvan: "Əcəmi" NPB, 2014, 104 s.
44. **Naxçıvan tarixi, 2014.**
Naxçıvan tarixi. Üç cilddə, II cild. Naxçıvan: "Əcəmi" NPB, 2014, 528 s.
45. **Naxçıvan tarixi atlası, 2010.**
Naxçıvan tarixi atlası. Bakı: Bakı Kartoqrafiya Fabriki, 2010, 56 s.

46. **Naxçıvan sancağının müfəssəl dəftəri., 1997.**

Naxçıvan sancağının müfəssəl dəftəri. Giriş və tərcümənin müəllifləri akademik Z.Bünyadov və t.e.n. H.Məmmədov. Bakı: Sabah, 1997, 336 s.

47. **Naxçıvan sancağının müfəssəl dəftəri., 2001.**

Naxçıvan sancağının müfəssəl dəftəri. Araşdırma, qeyd və şərhlərin müəllifi Hüsaməddin Məmmədov (Qaramanlı). Tərcümə edənlər: Ziya Bünyadov və Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı: Elm, 2001, 376 s.

48. **Naxçıvan tarixinin səhifələri., 1996.**
Naxçıvan tarixinin səhifələri ("Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumunun materialları). Bakı: Elm, 1996, 223 s.

49. **Nemət M., 1992.**
Nemət M. Azərbaycanda pirlər. Bakı: Azərnəşr, 1992, 104 s.

50. **Nemətova M.S., 1963.**
Nemətova M.S. Azərbaycanın epiqrafik abidələri. Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1963, 157 s.

51. **Nemətova M.S., 1967.**
Nemətova M.S. Epiqrafik abidələr və onların Azərbaycanın ictimai-iqtisadi tarixinin öyrənilməsində əhəmiyyəti (XIV-XIX əsrlər). Bakı, 1967. Tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. AMEA Tarix İnstitutunun elmi arxivi, inv. № 6639.

52. **Nemətova M.S., 1987.**
Nemətova M.S. Əsrlərin daş yaddaşı. Bakı: İşıq, 1987.

53. **Nəcəfli T., 2008.**
Nəcəfli T. Naxçıvan XVI-XVII əsrlərdə. Naxçıvan bu gün: islahatlar, perspektivlər (5-6 oktyabr 2007-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Bakı: Nurlan, 2008, s. 86-96.

54. **Nəcəfli T., 2014.**

Nəcəfli T. Naxçıvan diyarı XV-XVII əsrlərdə. Naxçıvan qədimdən günümüzə qədər (Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş məqalələr toplusu). Bakı: Victory" mətbəəsi, 2014, s. 138-161.

55. **"Nuh peyğəmbər: Dünya tufanı..., 2010.**

"Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan" mövzusunda keçirilən beynəlxalq simpoziumda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun çıxışı. Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan (24-25 aprel 2009-cu ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Naxçıvan: "Əcəmi" NPB, 2010, s. 10-16.

56. **Onullahi S.M., 1968.**

Onullahi S.M. Hatəm bəy Ordubadi. "Şərq qapısı" qəzeti. 22 fevral 1968-ci il.

57. **Ön və Orta Asiya..., 2003.**

Ön və Orta Asiya türklərinin tarixinə dair dörd anonim mənbə. Bakı: Nurlan, 2003, 192 s.

58. **Piriyev V., 2004.**

Piriyev V. Naxçıvan tarixindən səhifələr. Bakı: Müəllim, 2004, 126 s.

59. **Rəsmi sənədlər, 2012.**

Rəsmi sənədlər (1996-2011). Naxçıvan: "Əcəmi" NPB, 2012, 565 s.

60. **Salamzadə Ə., 1984.**

Salamzadə Ə. Azərbaycan memarlığı tarixinin öyrənilməsi haqqında. Mömünə xatın türbəsinin medalyonlarının tədqiqi. Azərbaycan abidələri. Bakı: Azərnəşr, 1984, № 1. s. 19-31.

61. **Salamzadə Ə.V., Məmmmədzadə K.M., 1985.**

Salamzadə Ə.V., Məmmmədzadə K.M. Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri. Bakı: Elm, 1985, 268 s.

62. **Səfərov F., 1984.**
Səfərov F. Ordubad rayonunun epiqrafik abidələrindən (XV-XX əsrin əvvəlləri). Azərbaycan SSR EA Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, 1984, № 1, s. 49-55.
63. **Səfərov F., 1989.**
Səfərov F. Kəngərli süvariləri. “Şərq qapısı” qəzeti, 31 oktyabr 1989-cu il.
64. **Səfərov F., 1997.**
Səfərov F. Şeyx Əbu Səidin məzar kitabəsi – “Türk dünyası”. Tarix dərgisi. İstanbul, 1997, № 129, s. 30-31.
65. **Səfərov H, 1996.**
Səfərov H. Orta əsrlər zamanı Naxçıvanda yaşamış bəzi sufi şeyxləri haqqında (müsəlman kitabələri əsasında) / Naxçıvan tarixinin səhifələri (“Uluslararası qaynaqlarda Naxçıvan” beynəlxalq simpoziumunun materialları). Bakı: ADPU-nun mətbəəsi, 1996, s. 99-101.
66. **Səfərli F., 2003.**
Səfərli F. Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər. Bakı: Elm, 2003, 392 s.
67. **Səfərli H, Cəfərov H., 1998-1.**
Səfərli H., Cəfərov H. Naxçıvan ziyarətgahları. Bakı: Qorqud, 1998, 84 s.
68. **Səfərli H., Cəfərov H., 1998-2.**
Səfərli H., Cəfərov H. Kəngərlilərin Naxçıvanın siyasi həyatında rolu haqqında. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafının müasir problemləri. Bakı, 1998, s. 37-40.
69. **Solakzadə M., 1992.**
Solakazadə M. Tarix. Türk dilindən tərcümə edəni akademik Z.M.Bünyadov. Bakı: Elm, 1992, 84 s.
70. **Şardən J., 1994.**
Şardən J. Səyahətnamə. Fransız dilindən tərcümə edəni Vaqif Aslanov. Bakı: Elm, 1994, 96 s.

71. **Şərifli M., 1996.**

Şərifli M. Naxçıvanşahlıq. Azərbaycan SSR EA Xəbərləri. Tarix, fəlsəfə, hüquq. 1966, № 4, s. 27-33.

72. **“Şərq qapısı” qəzeti., 2013.**
“Şərq qapısı” qəzeti, 6 iyun 2013-cü il.

73. **Vəlixanlı N., 2001.**

Vəlixanlı N. X əsrin ikinci yarısı – XI əsrdə Azərbaycan feodal dövlətlərinin qarşılıqlı münasibətləri və bir daha “Naxçıvanşahlıq” haqqında // Azərbaycan MEA Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası. 2001, № 3, s. 120-129.

74. **Vəlixanlı N., 2005.**

Vəlixanlı N. Naxçıvan – ərəblərdən monqollaradək (VII-XII əsrlər). Bakı: Elm, 2005, 152 s.

75. **Vəlixanlı N., 2015.**
Vəlixanlı N. Naxçıvanın VII-XII əsrlər dövrü tarixdə və tarixşünaslıqda. Naxçıvan: “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi, 2015, 180 s.

76. **Zeynaloğlu C., 1992.**

Zeynaloğlu C. Müxtəsər Azərbaycan tarixi. Bakı: Azərbaycan Dövlət Kitab Palatası, 1992, 144 s.

77. **Zeynəddin bin Həmdullah Qəzvini., 1990.**

Zeynəddin bin Həmdullah Qəzvini. Zeyl-e tarix-e qozide (seçilmiş tarixə əlavə). Fars dilindən tərcümə, müqəddimə, qeydlər və göstəricilər M.D.Kazımov və V.Z.Piriyevindir. Bakı: Elm, 1990, 212 s.

78. **Азимбеков И., 1929.**

Азимбеков И. Мусульманские надписи Тифлиса, Эривани и Нах.ССР Известия “Азкомстарис”а, вып. 4 (тетрадь 2). Баку, 1929, с. 295-311.

79. **Алескерзаде А.А., 1947.**
Алескерзаде А.А. Надписи архитектурных памятников Азербайджана эпохи Низами. Архитектура Азербайджана эпохи Низами. Москва-Баку, 1947, с. 369-390.

80. **Алиев И., 1999.**
Алиев И. К вопросу о возрасте города Нахчывана. Naxçıvan Muxtar Respublikası. Məqalələr toplusu. Bakı: Elm, 1999, s. 30-37.

81. **Буниятов З.М., 1985.**
Буниятов З.М. Полечительство мамлюкских Султанов Египта над суфийскими обителями. Духовенство и политическая жизнь на Ближнем и Среднем Востоке в период феодализма. Москва: Наука, 1985, с. 64-68.

82. **Буниятов З.М., 1986.**
Буниятов Э. Государство Хорезмшахов Ануштегинидов. Москва: Наука, 1986, 248 с.

83. **Выдержки из..., 1862.**
Выдержки из “Записок о мусульманских надписях на Кавказе”, М.Н.Ханыкова, опубликованных в “Азиатском журнале”, август, 1862, г. Пер. с франц. яз. Э.К.Спитницкой. Научный Архив Института Истории Национальная Академии Наук. Азербайджана. Инв. № 1076.

84. **Ибрагимов Б., 1984.**
Ибрагимов Б. Нововыявленный мавзолей XII в. в Хараба-Гилане. Доклады АН Азербайджанской ССР. Том XL, № 7,1984, с.87-91.

85. **Каджар Ч., 2016.**
Каджар Ч. Нахчыван: один из древнейших городов мира (мифы, легенды, факты). Нахчыван: Издателяское – Полиграфическое Объединение “Аджеми”, 2016, 284 с.

86. **Казвини Х., 1983.**

Казвини Х. Нузхат ал-Кулуб. Перевод с английского З.М. Буниятова, перевод с персидского И.П. Петрушевского. Баку: Элм, 1983, с. 37-65.

87. **Крачковская В.А., 1935**

Крачковская В.А. Задачи арабской эпиграфики в СССР. Тр. I сессии арабистов. Отдельный оттиск. М.Л:. 1935, с. 127-134.

88. **Неймат М.С., 2001.**

Неймат М.С. Корпус эпиграфических памятников Азербайджана. Том III, Баку: XXI – Yeni Nəşrlər Evi, 2001,216 с.

89. **Нейматова М.С., 1967.**

Нейматова М.С. Два указа шаха Аббаса I. “Эпиграфика Востока” jurnalı. XVIII, Ленинград: 1967, с. 105-110.

90. **Нейматова М., 1981.**

Нейматова М. Мемориальные памятники Азербайджана. Баку : Элм, 1981, 76 с.

91. **Никитин К.А., 1882.**

Никитин К.А.Народная предания в Нахичеванском уезде, Эриванской губернии / Сборник материалов для описания местностей и племен Кавказа. Тифлис, 1882, вып. II, отдель II, с. 107-120.

92. **Петрушевский И.П., 1941.**

Петрушевский И.П. Из героической борьбы Азербайджанского народа в XIII-XIV вв. Баку, 1941.

93. **Петрушевский И., 1949-1.**

Петрушевский И. Очерки по истории феодальных отношений в Аэербайжане и Армении в XVI – начале XIX вв. Ленинград: Издательство ЛГУ им. А.А.Жданова, 1949,384 с.

94. **Петрушевский И.П., 1949-2.**

Петрушевский И.П. Азербайджан в XVI-XVII веках. Сборник статей по истории Азербайджана. Выпуск I. Баку, 1949, с. 225-298.

95. **Рыбаков В.А., 1964.**

Рыбаков В.А.Русские датированные надписи XI-XIV вв. Москва: Наука, 1964, 48 с.

96. **Сафарли Г., 2017.**

Сафарли Г. Эпиграфичиские памятники Нахчывана. Нахчыван: ИПО «Аджеми», 2017, 200 с.

97. **Сафаров Ф.Я., 1979.**

Сафаров Ф.Я. Эпиграфические памятники из Ханикаха на Алинджачай Нахичеванской АССР. Археологические и этнографические изыскания в Азербайджане (1976). Баку: Элм, 1979, с. 57-59.

98. **Сафаров Ф.Я., 1987-1.**

Сафаров Ф.Я. Арабо-персоязычные надписи Нахичеванской АССР (XVI-XIX вв) как историко-культурные памятники. Диссертация на сосискание ученой степени канд. ист. наук. Баку, 1987, 179 с. НАИИ НАН Азербайджана. Инв.№ 8383.

99. **Сафаров Ф.Я., 1987-2.**

Сафаров Ф.Я. Арабо-персоязычные надписи Нахичеванской АССР (XVI-XIX вв) как историко-культурные памятники. Автореферат канд. ист. наук. Баку, 1987, с. 15-16.

100. **Советская историческая...., 1965.**

Советская историческая энциклопедия. Т.8. Москва, 1965, 992 с.

101. **Смирнов К., 1999.**

Смирнов К.Н. Материалы по истории и этнографии Нахичеванского края. Баку: Озан, 1999, 159 с.

102. **Сысоев В.М., 1929.**

Сысоев В.М.Нахичевань на Араксе и древности Нах. ССР (отчет о поездке летом 1926 г.) Известия "Азкомстарис"а, вып. 4 (тетрадь 2). Баку, 1929, с. 87-121.

103. **Эсадзе С., 1907.**

Эсадзе С. Историческая записка об управлении Кавказом. Т. I. Тифлис, 1907, 622 с.

# MƏTNƏ ƏLAVƏ OLUNMUŞ ŞƏKİLLƏRİN SİYAHISI

**Şəkil 1.** Yusif Küseyr oğlu türbəsi. Şəvval, 557/13.09-11.10.1162-ci il.

**Şəkil 2.** Möminə xatın türbəsi. Məhərrəm, 582/24.03-23.04.1186-cı il.

**Şəkil 3**. Qoşa minarəli baştağ, 1187-ci il.

**Şəkil 4.** İmamzadə kompleksi, 1722-1732-ci il.

**Şəkil 5.** Banu Şahbikənin qəbirüstü xatirə abidəsi, 906/1500-cü il.

**Şəkil 6.** Bəyazidin qızına məxsus qəbirüstü xatirə abidəsi, XV əsrin sonu-XVI əsrin əvvəli.

**Şəkil 7.** Cəfəriyyə məscidinin kitabəsi. Rəcəb, 1311/08.01-06.02.1894-cü il.

**Şəkil 8.** Məhəmməd Əhməd oğlunun qəbirüstü xatirə abidəsi. Zilqədə, 747/13.02-14.03.1347-ci il.

**Şəkil 9.** Əmrusəlin qəbirüstü xatirə abidəsi. Ramazan, 883/26.11-25.12.1478-ci il.

**Şəkil 10.** Xanməhəmmədin qəbirüstü xatirə abidəsi, 983/12.04.1575-30.03.1576-cı il.

**Şəkil 11.** İmamqulunun oğlu Bəhmənin qəbirüstü xatirə abidəsi, 986/10.03.1578-27.02.1579-cu il.

**Şəkil 12.** Mikeysə xanımın qəbirüstü xatirə abidəsi, 897/14.11.1491-22.10.1492-ci il.

**Şəkil 13.** Qureyş Şahbanunun qəbirüstü xatirə abidəsi, 897/14.11.1491-22.10.1492-ci il.

**Şəkil 14.** Əmir Şahmənsurun qəbirüstü xatirə abidəsi. Ramazan, 898/16.06-15.07.1493-cü il.

**Şəkil 15.** Naməlum şeyxin qəbirüstü xatirə abidəsi, XV-XVI əsr.

**Şəkil 16.** Nəsrullahın məzar kitabəsi. 20 rəbiəl-əvvəl 932/06.01.1526-cı il.

**Şəkil 17.** Kitabə parçası, XVI əsr.

**Şəkil 18.** Əmirzadə Qəzənfərin qəbirüstü xatirə abidəsi. 10 cəmadi əs-səni 1000/24.03.1592-ci il.

**Şəkil 19.** Kitabə parçası, XVI əsr

**Şəkil 20.** İzz Şərəf xanımın məzar kitabəsi. Rəcəbin əvvəli, çərşənbə günü, 1169/07.04.1756-cı il.

**Şəkil 21.** Sona xanımın məzar kitabəsi. 20 səfər 1238/06.11.1822-ci il.

**Şəkil 22.** Fəthullahın məzar kitabəsi, 1238/18.09.1822-06.09.1823-cü il.

**Şəkil 23.** Vəliqulu bəyin məzar kitabəsi. 7 şəban 1260/22.08.1844-cü il.

**Şəkil 24.** Məşədi Hüseynin məzar kitabəsi, 1021/04.03.1612-20.02.1613-cü il.

**Şəkil 25.** Muradxanın qəbirüstü xatirə abidəsi, 1021/04.03.1612-20.02.1613-cü il.

**Şəkil 26.** Qoç heykəli tipli qəbirüstü xatirə abidəsi, 970/31.08. 1562-20.08.1563-cü il.

**Şəkil 27.** Zeynal Bəkirinin qəbirüstü xatirə abidəsi, 1078/23.06.1667-10.06.1668-ci il.

**Şəkil 28.** Cəbrailin oğlu Əlinin qəbirüstü xatirə abidəsi, 1086/28.03.1675-15.03.1676-cı il.

**Şəkil 29.** Qoç heykəli tipli qəbirüstü xatirə abidəsi, XVII yüzillik.

**Şəkil 30.** Şərəf xanımın məzar kitabəsi. Məhərrəm, 1049/04.05-02.06. 1639-cu il.

**Şəkil 31.** Nuh peyğəmbərin türbəsinin yanından tapılmış kitabə fraqmenti.

**Şəkil 32.** Məlik Vəlxanın qəbirüstü xatirə abidəsi. Rəbiəl-əvvəl, 965/22.12.1557-20.01.1558-ci il.

**Şəkil 33.** Bəkirin qəbirüstü xatirə abidəsi. Zilhiccə, 1114/18.04-16.05.1703-cü il.

**Şəkil 34.** İmanın məzar kitabəsi, 1003/16.09.1594-05.09.1595-ci il.

**Şəkil 35.** Məhəmmədin məzar kitabəsi, XVI-XVII əsr.

**Şəkil 36.** Sənduqə tipli qəbirüstü xatirə abidəsi, XVI-XVII əsr.

**Şəkil 37.** Hacı Məhəmmədin qəbirüstü xatirə abidəsi. Rəbiəl-əvvəl, 1006 /12.10-10.11.1597-ci il.

**Şəkil 38.** Qasımın qəbirüstü xatirə abidəsi, XVII yüzillik.

**Şəkil 39.** Qoç heykəli tipli qəbirüstü xatirə abidəsi, XVII yüzillik.

**Şəkil 40.** Başdaşı tipli qəbirüstü xatirə abidəsinin parçası, XVI yüzillik.

# FOTOŞƏKİLLƏR VƏ QRAFİK TƏSVİRLƏR



Şəkil 1. Yusif Küseyr oğlu türbəsi



Şəkil 2. Möminə xatın türbəsi



Şəkil 3. Qoşa minarəli baştağ



Şəkil 4. İmamzadə kompleksi



Şəkil 5. Banu Şahbikənin qəbirüstü xatirə abidəsi



Şəkil 6. Bəyazidin qızına məxsus qəbirüstü xatirə abidəsi



Şəkil 7. Cəfəriyyə məscidinin kitabəsi



Şəkil 8. Məhəmməd Əhməd oğlunun
qəbirüstü xatirə abidəsi



Şəkil 9. Əmrusəlin qəbirüstü xatirə abidəsi



Şəkil 10. Xanməhəmmədin qəbirüstü xatirə abidəsi



Şəkil 11. İmamqulunun oğlu Bəhmənin qəbirüstü
xatirə abidəsi



Şəkil 12. Mikeysə xanımın qəbirüstü xatirə abidəsi




Şəkil 13. Qureyş Şahbanunun qəbirüstü xatirə abidəsi



Şəkil 14. Əmir Şahmənsurun qəbirüstü xatirə abidəsi



Şəkil 15. Naməlum şeyxin qəbirüstü xatirə abidəsi



Şəkil 16. Nəsrullahın məzar kitabəsi



Şəkil 17. Kitabə parçası



Şəkil 18. Əmirzadə Qəzənfərin qəbirüstü xatirə abidəsi



Şəkil 19. Kitabə parçası




Şəkil 20. İzz Şərəf xanımın məzar kitabəsi




Şəkil 21. Sona xanımın məzar kitabəsi



Şəkil 22. Fəthullahın məzar kitabəsi



Şəkil 23. Vəliqulu bəyin məzar kitabəsi



Şəkil 24.Məşədi Hüseynin məzar kitabəsi



Şəkil 25. Muradxanın qəbirüstü xatirə abidəsi



Şəkil 26. Qoç heykəli tipli qəbirüstü xatirə abidəsi



Şəkil 27. Zeynal Bəkirinin qəbirüstü xatirə abidəsi



Şəkil 28. Cəbrailin oğlu Əlinin qəbirüstü xatirə abidəsi



Şəkil 29. Qoç heykəli tipli qəbirüstü xatirə abidəsi



Şəkil 30. Şərəf xanımın məzar kitabəsi



Şəkil 31. Nuh peyğəmbərin türbəsinin yanından tapılmış kitabə fraqmenti



Şəkil 32. Məlik Vəlxanın qəbirüstü xatirə abidəsi



Şəkil 33. Bəkirin qəbirüstü xatirə abidəsi



Şəkil 34. İmanın məzar kitabəsi



Şəkil 35. Məhəmmədin  məzar kitabəsi



Şəkil 36. Sənduqə tipli qəbirüstü xatirə abidəsi



Şəkil 37.Hacı Məhəmmədin qəbirüstü xatirə abidəsi



Şəkil 38. Qasımın qəbirüstü xatirə abidəsi



Şəkil 39. Qoç heykəli tipli qəbirüstü xatirə abidəsi



Şəkil 40. Başdaşı tipli qəbirüstü xatirə abidəsi

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİ TARİX, ETNOQRAFİYA VƏ ARXEOLOGİYA İNSTİTUTU**

**HACIFƏXRƏDDİN SƏFƏRLİ**

# NAXÇIVAN ŞƏHƏRİNİN EPİQRAFİK ABİDƏLƏRİ

*Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir.*
***Qrant № EİF-KETPL-2-2015-1(25)-56/47/5***

Çapa imzalanmış 01.02.2019.
Formatı 70X100 1/16 “Tayms” qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 9.5 ç.v.
Sifariş № 98. Tiraj 150 nüsxə.

Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.